RSSSMİ DÖVLSST QSSZETİ

# AZƏRBAYCAN

№ 61 (10081) 11 aprel 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QSSZETİN SSSASI 1918-Cİ İLDSS QOYULMUŞDUR



# Bütöv və qüdrətli Azərbaycan missiyası



## 2018-ci ilin 11 aprel seçkiləri İlham Əliyevə olan ümumxalq etimadının növbəti parlaq təcəssümünə çevrildi

Prezident İlham Əliyevin milli maraqlarımızın təmini naminə həyata keçirdiyi qətiyyətli siyasət 2020-ci ilin 27 sentyabrında haqq yürüşünə çevrildi. 44 günlük Vətən müharibəsi ərzində bircə dəfə də olmadı ki, qəhrəman döyüşçülərimiz düşmən tapdağından azad etdikləri ərazilərdən bir qarış belə geri çəkilsinlər. Müzəffər Ali Baş Komandan İlham Əliyevin gücləndirdiyi ordumuz yüksək peşəkarlıq göstərərək qısa zamanda 300-dən çox yaşayış məntəqəsini və Qarabağın mirvarisi Şuşanı azad etdi. Kapitulyasiya aktına qol çəkən düşmən Ağdamı, Kəlbəcəri və Laçını döyüşsüz tərk etməyə məcbur oldu.

Qarabağ zəfəri yüz minlərlə vətəndaşımızın torpaq həsrətinə son qoydu. Azərbaycan xalqı qalib xalqa çevrildi.

Ardınca həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində dövlət suverenliyimiz tam bərpa olundu, konstitusiyamız bütün ərazilərimizdə hüquqi qüvvəyə mindi. Regionda separatizmə son qoyuldu, xalqımıza qarşı ağır cinayətlər törətmiş canilər qanun qarşısında cavab verməli oldular.

Qarabağ və Şərqi Zəngəzurda quruculuq dövrü başlandı və bu, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mühüm istiqamətlərindən oldu. Uzun illər işğal altında qalmış, tamamilə dağıdılmış ərazilərimizin yenidən qurulması, burada müasir infrastrukturun yaradılması "Böyük qayıdış" proqramının icrasını da sürətləndirdi. Bu gün doğma yurduna qovuşdurulan insanların sayı 31 mini ötüb.

Qarabağ və Şərqi Zəngəzurun dirçəlişi Azərbaycanın qələbələr silsiləsinin ən mühüm bəndlərindən biri kimi hər birimizi qürurlandırır.

Xatırladaq ki, xalqımızın həyatında yaşanan əlamətdar hadisələrdən biri isə 2024-cü ilin 7 fevralında keçirilən prezident seçkiləri oldu. Xalq növbəti dəfə İlham Əliyevə yüksək etimad göstərərək ona səs verdi. Müstəqillik dövründə ilk dəfə olaraq Qarabağ və Şərqi Zəngəzurda vətəndaşlarımız səsvermədə iştirak etdilər. Bu seçki ilk dəfə bütün suveren ərazilərimizdə keçirilərək "Zəfər seçkisi" adı ilə tarixləşdi. İlham Əliyevin Xankəndidə səs verməsi isə həm siyasi, həm də rəmzi baxımdan xüsusi məna kəsb etdi.

Xalqımız Zəfər seçkisindən sonrakı dövrdə də Prezident İlham Əliyevin rəhbərliyi altında xeyli nailiyyətlər əldə etdi. Rusiya Federasiyasının sülhməramlı kontingentinin ölkəmizi zamanından əvvəl tərk etməsi, həmçinin Müzəffər Ali Baş Komandan İlham Əliyevin bir tələbi ilə 2024-cü ilin may ayında Qazax rayonunun dörd kəndinin Azərbaycana qaytarılması bu qəbildəndir.

Gerçəkləşdirilən uzaqgörən siyasət nəticəsində bu gün Azərbaycan dünyanın nüfuzlu ölkəsinə, etibarlı tərəfdaşa çevrilib. Ölkəmiz təkcə regionun deyil, dünyanın enerji və nəqliyyat qovşağı kimi adından söz etdirir. ABŞ və Çin kimi nəhənglərin maraq dairəsində olan respublikamız Prezident İlham Əliyevin sülhpərvər siyasəti ilə qlobal etimad qazanıb. Azərbaycanın səyləri ilə bölgədə yaranan reallıqlar və regional sabitlik mühiti Cənubi Qafqazı rifah və tərəqqi ünvanına çevirib.

ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ağ Evdə paraflanan sülh sazişinin mətni və ölkəmizin rəhbərinin layiq görüldüyü "Zayed İnsan Qardaşlığı Mükafatı" bu uğurların beynəlxalq miqyasda möhürüdür.

4

## Azərbaycan nümunəsi

### Mütləq qələbəsini təmin edən ölkəmiz xaos dövrünü yaşayan dünyanın təhlükəsizlik və sabitlik adasıdır



44 günlük müharibə və 2023-cü ilin antiterror tədbirləri həm də onu göstərdi ki, ən müasir texnologiyalar belə insan amili və milli ruh olmadan həlledici ola bilməz. Dağlıq və çətin relyefdə yüngül silahlarla və əlbəyaxa döyüşlə torpaqlarımızın düşməndən təmizlənməsi dünya hərb tarixinə rəşadət nümunəsi kimi düşdü. Bu, Azərbaycan əsgərinin psixoloji üstünlüyünün və vətən sevgisinin sübutu idi. Hərbçilərimizin mülki əhalini qoruması, hədəfləri dəqiqliklə məhv etməsi və ən kritik anlarda misilsiz qəhrəmanlığı müharibənin taleyini həll edən əsas hərəkətverici amil oldu.

5

## Qarabağ və Şərqi Zəngəzurda yeni tarix yazılır



Bu gün Qarabağ nəhəng tikinti meydançasını xatırladır. Qısa müddət ərzində sıfırdan qurulan yollar, körpülər, kommunikasiya xətləri regionun simasını tamamilə dəyişib. Müasir avtomobil yolları Qarabağı və Şərqi Zəngəzuru Azərbaycanın digər bölgələri ilə birləşdirərək həm iqtisadi, həm də sosial inteqrasiyanı sürətləndirir.

Qarabağın beynəlxalq nəqliyyat xəritəsində yerini möhkəmləndirən mühüm layihələrdən biri də yeni hava limanlarının tikintisidir. Füzuli, Zəngilan, Laçın beynəlxalq hava limanları qısa müddətdə inşa edilərək istifadəyə verildi. Bu hava qapıları Qarabağın və Şərqi Zəngəzurun dünyaya açılan pəncərələridir və regionun iqtisadi potensialını artıran strateji layihələr kimi xüsusi əhəmiyyət daşıyır.

6

## Rəqəmsal keçid: yeni çağırışlar, prioritetlər və hədəflər



Rəqəmsal transformasiya, sadə dillə desək, cəmiyyətin və iqtisadiyyatın müasir texnoloji modelə keçididir. Buraya məlumatların rəqəmsal formada toplanması, emalı, təhlili, xidmətlərin onlayn təqdim edilməsi, istehsal proseslərinin avtomatlaşdırılması və qərarvermədə süni intellekt həllərindən istifadə daxildir. Başqa sözlə, rəqəmsallaşma həyatın sürətini artırır, vaxt itkisini azaldır və insan resurslarının daha səmərəli istifadəsinə imkan yaradır. Süni intellekt isə bu transformasiyanın ən mühüm dayaqlarından biridir. Bu texnologiya böyük həcmdə məlumatı qısa müddətdə təhlil edir, proqnozlar verir, riskləri müəyyənləşdirir və qərarvermə prosesini asanlaşdırır.

4



## Bütün gözlər İslamabada dikilib

Tehranın Hörmüz boğazında gəmilərin keçidinə icazə verməsi D.Tramp tərəfindən elan edilən müvəqqəti atəşkəsin ən vacib şərtlərindən biri hesab olunur və ABŞ ilə İsrailin fevralın 28-də İrana qarşı başladığı müharibədə atəşkəsə nail olmaq üçün şərtlər siyahısındakı 10 bənddən biridir.

ABŞ Prezidentinin açıqlamasından sonra Hörmüz boğazında gəmilərin hərəkəti məhdud şəkildə bərpa edilib. Reuters agentliyinin məlumatına görə, atəşkəsdən sonrakı ilk 24 saat ərzində boğazdan yalnız 1 neft tankeri və 5 yük gəmisi keçib. Yaxın Şərqdə atəşkəs elan edildiyi çərşənbə axşamından bəri ümumilikdə Hörmüz boğazından 18 gəmi keçib. Bu, qlobal neft hasilatının 20 faizinin (gündə təxminən 140 tankerin) keçdiyi regionun ən vacib gəmiçilik arteriyalarından biri üçün olduqca kiçik rəqəmdir.

8

## Bakının anası - İçərişəhər



Bu gün İçərişəhər təkcə Azərbaycanda deyil, bütün dünyada yüksək qiymətləndirilən tarixi abidədir. Bunu UNESCO-nun Dünya Maddi İrs Siyahısına İçərişəhərin Qız qalası və Şirvanşahlar Saray Kompleksi ilə birgə salınması da təsdiq edir. Azərbaycan memarlığının, onun tarixinin bir hissəsi, Azərbaycan xalqının maddi-mədəniyyət irsinin qiymətli nümunəsi olan bu abidələr UNESCO tərəfindən Dünya irsi kimi qəbul olunub. Bu da ölkəmizin dünya mədəni irsinə əvəzsiz bir töhfəsidir.

İçərişəhərdə abidələr üç qrupda təsnif edilir. İlk növbədə dünya əhəmiyyətli abidələr muzeyləşdirilir. Qız qalası, Şirvanşahlar sarayı, Məhəmməd məscidi kimi abidələr bu qrupa aiddir. Ölkə əhəmiyyətli abidələr isə qismən muzeyləşdirilərək funksiyasına uyğun müstəqil obyektə çevrilir.

11



## Ermənistan cəmiyyəti ideoloji sınaq qarşısındadır

R.Koçaryanın seçki kampaniyası müharibə ritorikasına və qondarma ideologiyaların yenidən canlandırılmasına hesablanıb. Məsələn, Xocalı soyqırımının təşkilatçısı və iştirakçısı olmuş müharibə canisi iddia edir ki, Ermənistan böyük diaspora malikdir və ona görə də ölkə 29 min kvadrat kilometrlik ərazi ilə məhdudlaşmamalıdır. Baş nazir Nikol Paşinyan isə bu cür açıqlamaları təhlükəli hesab edir. Hökumət başçısının fikrincə, müxalif cinahın indiki sərhədlərlə kifayətlənməmək çağırışları və erməni lobbisinin ambisiyalarına söykənən ritorikası Ermənistanı yenidən qaçılmaz müharibə və regional fəlakət ssenarisi ilə üz-üzə qoyur: "Bu, qaçılmaz müharibə deməkdir".

6

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılmasının 10 illiyi münasibətilə **qərara alıram:**

Vətəndaşların mənzil təminatının yaxşılaşdırılması sahəsində xidmətlərinə görə, Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Qədimov Çingiz Sahib oğlu
Məmmədov Elşad Pənah oğlu
SalmanovAzər Ağababa oğlu
Şərifov Rizvan Həmid oğlu
Şiriyeva Kəmalə Məzahir qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 aprel 2026-cı il*

# "İstilik təchizatı şəbəkəsinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair tələblər"in təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 98** **Bakı şəhəri, 9 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstilik təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 222-VIIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 iyul tarixli 442 nömrəli Fərmanının 2.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İstilik təchizatı şəbəkəsinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair tələblər" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# İqtisadi Şuranın növbəti iclası keçirilib

Aprelin 10-da İqtisadi Şuranın növbəti iclası keçirilib.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində "Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi Qrup"u tərəfindən hazırlanan "Tikinti və kommunal infrastruktura qoşulma" və "Sənaye" sahələrində sahibkarların qaldırdığı aktual məsələlər və problemlər ətraflı müzakirə olunub.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi və İşçi Qrupun rəhbəri Natiq Əmirovun gündəlikdə yer alan məsələlər üzrə məruzəsi dinlənilib.



İclasda təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və dəvət olunanlar ədliyyə naziri Fərid Əhmədov, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayev, Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəisi Cəbrayıl Xanlarov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov çıxış ediblər.

Yekunda iclas iştirakçılarının rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan məsələlərin həlli istiqamətində müvafiq normativ-hüquqi aktların layihələrinə dəyişiklikləri hazırlayaraq Nazirlər Kabinetinə təqdim olunması barədə qərarlar qəbul olunub və aidiyyəti qurumlara tapşırıqlar verilib.

# Litvanın Baş naziri İnqa Ruqiniene İçərişəhərlə tanış olub





**Aprelin 10-da Litvanın Baş naziri İnqa Ruqiniene dünya mədəni irs abidələri sırasında yer alan "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, gəzinti zamanı Litvanın Baş nazirinə UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş İçərişəhər, həmçinin burada aparılan təmir, abadlaşdırma və bərpa işləri barədə ətraflı məlumat verilib.



Qeyd olunub ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri qorunub saxlanılır.

Sonra Qız qalası ilə tanış olan qonağa qala divarlarının inşa tarixi barədə ətraflı məlumat verilib. Bildirilib ki, eramızdan əvvəl VII-VI əsrlərdə əsası qoyulmuş Qız qalası XII əsrdə bərpa edilib. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr olan abidə silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən iri dayaq tikilidən ibarətdir.

İçərişəhərdə XV əsrə aid ölkə əhəmiyyətli abidə - Buxara karvansarası ilə tanışlıq zamanı İnqa Ruqiniene bu tarixi məkanın keçmişi və bərpa prosesi barədə ətraflı məlumatlandırılıb. Bildirilib ki, qədim ticarət magistralı üzərində ucaldılan və mərkəzi asiyalı tacirlərin sığınacağına çevrilən bu möhtəşəm tikili Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən həyata keçirilən genişmiqyaslı layihə çərçivəsində hazırda öz əvvəlki əzəmətinə qovuşub. Bərpa prosesi abidənin həm memarlıq, həm də mühəndislik xüsusiyyətlərinin qorunması prinsipi ilə aparılıb.

Həmçinin qeyd olunub ki, burada ziyarətçilər sənətkarların yaradıcılıq prosesini yaxından izləmək, milli sənət nümunələrinin hazırlanma mərhələləri ilə tanış olmaq, eləcə də özləri üçün unikal suvenirlər əldə etmək imkanı əldə edirlər.

İçərişəhərdə gəzinti zamanı xanım İnqa Ruqiniene təndir çörəyinə qonaq edilib.

Daha sonra Litvanın Baş naziri Orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan "Şirvanşahlar Sarayı Kompleksi" ilə də tanış olub. Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. O, Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bu günədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

# Litvanın Baş naziri İnqa Ruqiniene Heydər Əliyev Mərkəzində olub

**Litva Respublikasının Baş naziri İnqa Ruqiniene aprelin 10-da Heydər Əliyev Mərkəzində olub.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov qonağa dünya memarlığının nadir incilərindən sayılan mərkəzin binası haqqında məlumat verib. Qeyd olunub ki, Heydər Əliyev Mərkəzinin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

Buradakı Heydər Əliyev Muzeyində Ulu Öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual şəkildə təqdim olunur.

Baş nazir İnqa Ruqiniene əvvəlcə Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə - 1969-cu ildən 2003-cü ilə qədər rəsmi istifadəsində olan avtomobillərə baxıb.

Ümummilli Liderin həm sovet hakimiyyəti, həm də müstəqillik illərində fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlar, fotoşəkillər və multimedia zalı qonaqda böyük maraq doğurub.







"Azərbaycan inciləri" sərgisi ilə də tanış olan İnqa Ruqinieneyə bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatlar nümayiş etdirildiyi bildirilib. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələrinin sərgiləndiyi, qədim çalğı alətlərimizin orijinal şəkildə - səsli formada təqdim olunduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

Daha sonra qonaq "Kukla incəsənətdə" sərgisi ilə tanış olub. Bildirilib ki, sərgidə çini, kağız, plastik, taxta və parçadan hazırlanan ənənəvi kuklalarla yanaşı, müasir texnologiyalardan istifadə olunaraq yaradılan modern kuklalar da mövcuddur.

"Musiqi alətləri: Birlik və müxtəliflik" sərgisi ilə tanışlıqdan sonra İnqa Ruqiniene Azərbaycan xalçalarından ibarət "İlmələrin rəqsi" sərgisinə baxış keçirib.

"Klassik avtomobillər sərgisi" ilə də tanış olan Baş nazir daha sonra xatirə kitabına ürək sözlərini yazıb.

Sonda Litvanın Baş nazirinə xatirə hədiyyəsi təqdim edilib, o, mərkəzdən xoş təəssüratla ayrılıb.

# *Litvanın Baş naziri:* "Azərbaycan regionda aparıcı ölkədir"

**Litvanın Baş naziri İnqa Ruqiniene Azərbaycana rəsmi səfəri çərçivəsində AZƏRTAC-a məxsusi müsahibə verib.**

Müsahibədə Baş nazir Azərbaycanla əlaqələrin inkişaf perspektivləri, enerji təhlükəsizliyi və regional əməkdaşlıq məsələlərinə toxunub. İnqa Ruqiniene həmçinin Orta dəhliz çərçivəsində əməkdaşlıq imkanlarına və iki ölkə arasında müxtəlif sahələrdə tərəfdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

*- Xanım Baş nazir, ilk növbədə Bakıya səfərinizin məqsədi barədə məlumat verməyinizi xahiş edirik.*

- Bu, mənim Avropa İttifaqından kənara ilk beynəlxalq səfərimdir. Baş nazir vəzifəsinə başladıqdan sonra komandamla birlikdə anladıq ki, beynəlxalq əlaqələri daha da gücləndirməliyik. Bildiyiniz kimi, coğrafi və geosiyasi vəziyyət çox dinamikdir, biz də ölkələrimizin hüdudlarından kənarda baş verənləri görürük. Buna görə də bir-birimizlə dostluğu möhkəmləndirmək çox vacibdir. Buraya gəlmək qərarını ona görə verdim ki, bizi 107 illik dostluq tarixi bağlayır. Mən Azərbaycanı bu regionda aparıcı ölkə kimi görürəm. Düşünürəm ki, münasibətlərimizin gücləndirilməsi hər iki ölkə üçün çox önəmlidir.



*- Avropanın enerji təhlükəsizliyində vacib rol oynayan ölkə kimi Azərbaycan Litva ilə əlaqələrə ciddi önəm verir. Enerji layihələrinin şaxələndirilməsi qarşıya qoyulan əsas hədəflərdəndir. Azərbaycanın "yaşıl enerji" ixracatçısı kimi artan rolunu və Xəzər dənizindən Avropaya uzanacaq "yaşıl enerji" dəhlizini - Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizini Litva özünün enerji təhlükəsizliyi baxımından necə qiymətləndirir?*

- Azərbaycanın enerji təchizatı üçün alternativ yollar üzərində işləməsi çox müsbət haldır. Təchizat zəncirləri qəfil dayana bilər və əgər alternativlərimiz yoxdursa, bu, ciddi problemə çevrilər. Buna görə də Azərbaycanın alternativ istiqamətlər yaratmaq üçün fəal çalışması məni çox sevindirir. Geniş təchizat imkanlarının mövcudluğu Avropa İttifaqı üçün də çox vacibdir. Eyni zamanda məsələ təkcə neft və qazla məhdudlaşmır, həm də bərpaolunan enerji mənbələrini əhatə edir. Litvada biz Günəş, külək kimi alternativ enerji mənbələri sahəsində inkişaf etdirdiyimiz texnologiyaları təqdim edə bilərik. Mən bilirəm ki, Azərbaycan bu sahəyə böyük maraq göstərir və bunun üzərində fəal işləyir. Bu, ortaq ideyalar və əməkdaşlıq üçün real imkanlar yaradır.

*- Litva Orta dəhliz və digər regional logistika marşrutları çərçivəsində Azərbaycanla əməkdaşlığı necə genişləndirməyi planlaşdırır? Məsələn, Klaypeda limanı bu məsələdə hansı rolu oynaya bilər?*

- Əlbəttə, Azərbaycan ilə Litva arasında əsas müzakirə mövzusu, adətən, enerji olur. Lakin bu, əməkdaşlıq edə biləcəyimiz yeganə sahə deyil. Litva müdafiə sahəsinə ciddi şəkildə investisiya yatırır. Biz çox həssas bir regionda yaşayırıq və hər gün müxtəlif təhdidlərlə üzləşirik. Təhlükəsizliyimizi qorumaq üçün daha çox çalışmalıyıq. Buna görə də hökumətimiz müdafiəyə daha çox vəsait ayırmaq qərarına gəlib. Mən bilirəm ki, Azərbaycanın bu sahədə mühüm nailiyyətləri var və burada təcrübələrimizi birləşdirərək bir-birimizi gücləndirə bilərik.

Bu, hamısı deyil. Kənd təsərrüfatı sahəsində də əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. Belə ki, Litvada ağartı sənayesi, südçülük təsərrüfatı güclüdür, Azərbaycanda isə kənd təsərrüfatı ümumilikdə çox inkişaf edib. Burada da ortaq məqamlar tapa bilərik. Eləcə də ölkələrimiz arasında təhsil, universitetlər və elm sahələrində artıq yaxşı əlaqələrimiz var, lakin elmi əməkdaşlığı və bilik mübadiləsini genişləndirərək bunları daha da gücləndirmək mümkündür. Bundan əlavə, Azərbaycan mədəniyyət sahəsinə böyük sərmayə yatırır və biz də eyni istiqamətdə fəaliyyət göstəririk. Bu da əməkdaşlıq üçün başqa bir sahədir.

## Milli Məclisin iclasında

# Əmək bazarında gender bərabərliyinin təminatlarının hüquqi bazası təkmilləşdirilir

**Aprelin 10-da Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə başçılıq etdiyi nümayəndə heyətinin martın 24-dən 26-dək Çin Xalq Respublikasına işgüzar səfəri barədə məlumat verib.**

Spiker bildirib ki, səfərdə məqsəd Asiya naminə Boao Forumunda iştirak etmək idi. Diqqətə çatdırılıb ki, forum Asiya-Sakit Okean regionunun 26 ölkəsi tərəfindən 2001-ci ildə təsis edilib, sonradan daha 3 ölkə onlara qoşulub. Azərbaycan bu tədbirə xüsusi qonaq kimi dəvət olunub.

Milli Məclisin Sədri bildirib ki, Asiya naminə Boao Forumunun illik konfransında Azərbaycan Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin səyləri ilə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş Azərbaycan-Çin münasibətləri barədə məlumat verib.

Çıxışda Çin tərəfindən irəli sürülən və Azərbaycanın dəstəklədiyi qlobal təşəbbüslərin əhəmiyyəti vurğulanıb. Azərbaycanın Avrasiyanın əsas nəqliyyat qovşaqlarından birinə çevrildiyi, "Bir Kəmər, Bir Yol" layihəsinin inkişafına fəal şəkildə töhfə verməyə davam etdiyi diqqətə çatdırılıb. Qeyd edilib ki, Azərbaycan Çindən sonra bu təşəbbüsə ən böyük sərmayə qoyan ikinci ölkədir.

Milli Məclisin Sədri çıxışında deyib ki, Azərbaycanla Ermənistan arasında sülh prosesi çərçivəsində ölkəmizin qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat və kommunikasiya əlaqələrinin bərpası Orta dəhlizin səmərəliliyini daha da artıracaqdır.

Diqqətə çatdırılıb ki, 30 illik işğala son qoyan Azərbaycan suverenlik, ərazi bütövlüyü və daxili işlərə qarışmama prinsiplərini daim dəstəkləyir. Azərbaycan dövlətinin irəli sürdüyü qlobal təşəbbüslər, Bakıda keçirilmiş və keçirilməsi nəzərdə tutulan beynəlxalq tədbirlər haqqında forum iştirakçılarına məlumat verilib.

Səfər zamanı Azərbaycan parlamentinin spikerinin Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin Sədri Cao Lıci ilə görüş keçirilib. Görüşdə ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafından məmnunluq ifadə edilib. Parlamentlərarası əməkdaşlığın genişləndirilməsi yolları haqqında fikir mübadiləsi aparılıb, o cümlədən qanunvericilik orqanlarının komitələri arasında institusional əlaqələrin inkişaf etdirilməsi imkanları və digər məsələlər nəzərdən keçirilib.

Milli Məclisin Sədri bildirib ki, Çin Xalq Respublikasına işgüzar səfər uğurlu olub.

Sonra Sahibə Qafarova iclasın gündəliyinə 11 məsələnin daxil edildiyini, ilk məsələnin "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi olduğunu bildirib. O, layihənin beynəlxalq sənədlə bağlı olduğunu və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə uyğun olaraq bir oxunuşda qəbul ediləcəyini bildirib.

Bu məsələ barədə məlumat verən parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini Elşən Musayev bildirib ki, "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında" Saziş 2026-cı il yanvarın 16-da Bakı şəhərində imzalanıb. 15 maddədən ibarət sazişə əsasən, tərəflər səlahiyyətli qurumları tərəfindən öz dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq verilmiş daimi və etibarlı sürücülük vəsiqələrini qarşılıqlı olaraq tanıyırlar. Sənəd sürücülük vəsiqələrinin qarşılıqlı tanınmasının və dəyişdirilməsinin prosedur qaydaları, rüsumların ödənilməsi, zəruri məlumatların ötürülməsi və fikir ayrılıqlarının həlli kimi məsələləri tənzimləyir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Elçin Mirzəbəyli təmsil etdiyi komitənin sənəd barədə müsbət rəyini diqqətə çatdırıb.

Müzakirədə komitə sədri Zahid Orucun fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul olunub.

İclasda Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edilib.




Sonra Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri isə ikinci oxunuşda qəbul olunub.

Milli Məclisin Sədri gündəliyin qalan 5 məsələsinin birinci oxunuşda təqdim edilən qanun layihələri olduğunu bildirib. Spiker deputatlardan müzakirələrdə birinci oxunuşun tələblərinə riayət etməyi diqqətə çatdırıb.

Yeddinci məsələ olan Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib. Komitə sədri bildirib ki, qanun layihəsi "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Bu məqsədlə Əmək Məcəlləsinin 4 maddəsinə 6 dəyişiklik təklif olunur. Məcəllənin 48-ci maddəsinin 5-ci bəndinə əlavələr edilir. Yeni müddəalarda narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinə və vəzifələrə qəbul edilərkən işçinin dövlət narkoloji tibb müəssisəsi tərəfindən verilmiş tibbi müayinə haqqında rəy təqdim etməsi, işçilərin əmək funksiyasını yerinə yetirməsi zamanı əsaslı şübhələr yarandığı halda işəgötürənin hesabına müvafiq dövri və ya növbədənkənar icbari tibbi müayinədən keçirilməsi məsələlərinin tənzimlənməsi öz əksini tapıb.

Habelə dəyişikliyə əsasən, Əmək Məcəlləsinin 74-cü maddəsində qeyd olunan peşə və vəzifələr üzrə narkoloji xəstə olduğu müəyyən edilən şəxslə əmək müqaviləsinin bağlandığı aşkar edildikdə və ya əmək münasibətləri dövründə tibbi müayinə zamanı şəxsin narkoloji xəstə olması müəyyən edildikdə, tərəflərin iradəsindən asılı olmayan əsas kimi işçinin əmək müqaviləsinə xitam verilməsi nəzərdə tutulur.

"Narkoloji xidmət və nəzarət haqqında" qanunun 24.3-cü maddəsinə də uyğunlaşma xarakterli "işçinin davranışında narkotik maddənin təsiri altında olmasına əsaslı şübhələr yarandığı halda dərhal, işəgötürənin vəsaiti hesabına narkoloji müayinədən keçməsi" müddəası əlavə olunub.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov layihə barədə rəhbərlik etdiyi komitənin müsbət rəyini təqdim edib.

Müzakirədə komitə sədri Siyavuş Novruzovun dəyişikliklərlə bağlı fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov isə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, layihəyə əsasən, Cinayət Məcəlləsinə terror təşkilatı yaratma, ona rəhbərlik etmə və ya onun fəaliyyətində iştirak etməyə görə cinayət məsuliyyətini müəyyən edən yeni 214-4-cü maddə əlavə olunur. Həmin maddəyə əsasən, terror təşkilatı yaratma, yaxud həmin təşkilata və ya onun struktur bölməsinə rəhbərlik 10 ildən 14 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Terror təşkilatına üzv olma və ya onun fəaliyyətində iştirak isə 7 ildən 12 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Maddənin Qeyd hissəsində isə terror təşkilatına üzv olan və ya onun fəaliyyətində iştirak edən şəxsin hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla cinayət əməllərinin qarşısının alınmasına, terror təşkilatını yaratmış, ona rəhbərlik etmiş, fəaliyyətində iştirak etmiş və ya onu maliyyələşdirmiş şəxslərin aşkarlanmasına yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulur.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev məsələ barədə rəhbərlik etdiyi komitənin rəyini açıqlayaraq, terrorçuluğun insan həyatını, ictimai sabitliyi, iqtisadi inkişafı və beynəlxalq münasibətləri ciddi şəkildə sarsıtdığını qeyd edib. O, bu gün terrorçuluğa qarşı mübarizənin yalnız hüquq-mühafizə tədbirləri ilə məhdudlaşmadığını, eyni zamanda maarifləndirmə, beynəlxalq əməkdaşlıq, sosial ədalətin təmin edilməsi və radikallaşmanın qarşısının alınması kimi kompleks yanaşmanı tələb edən bir proses olduğunu deyib. Bu baxımdan təqdim edilən qanun layihəsində zəruri dəyişikliklərin nəzərdə tutulduğunu söyləyib.

Komitə sədri məsələ ilə bağlı bildirib ki, Cinayət Məcəlləsinin 282-ci maddəsi yeni redaksiyada təqdim olunur. Belə ki, 282.1-ci maddəyə elmi-texniki potensialı zəiflətmək məqsədi, habelə kritik informasiya infrastrukturu, enerji, nəqliyyat və telekommunikasiya şəbəkələrinin normal fəaliyyətinin pozulması kimi yeni obyektlər əlavə edilir. Həmçinin təxribatın törədilmə üsullarına əməli süni intellekt texnologiyalarından və xüsusi proqram təminatlarından istifadə halları da daxil edilir. 282.2-ci maddədə təxribatın cinayətkar birlik tərəfindən törədilməsi, fövqəladə və ya hərbi vəziyyət, sosial xarakterli fövqəladə mühit rejimi, habelə kütləvi iğtişaşlar zamanı törədilməsi, şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi, ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olması kimi yeni ağırlaşdırıcı hallar nəzərdə tutulur. 282-ci maddənin Qeyd hissəsinə əsasən isə təxribatın hazırlanmasında iştirak etmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla bu cür əməlin qarşısının alınmasına yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilir.

Sənədin müzakirəsi zamanı deputatlar Hikmət Məmmədov, Nizami Səfərov, Vasif Qafarov çıxış edərək öz fikirlərini bölüşüblər.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı nəzərə çatdırıb. Komitə sədri bildirib ki, Beynəlxalq Əmək Təşkilatının 100 nömrəli Konvensiyasına və Avropa Sosial Xartiyasına uyğun olaraq, kişi və qadınlara bərabər dəyərli əməyə görə bərabər əməkhaqqı verilməsi tam təmin olunmalıdır. Lakin mövcud qanunvericilikdə bu prinsip yalnız "eyni və ya oxşar işlər" çərçivəsində tətbiq olunur və daha geniş anlayışı əhatə etmir.

O diqqətə çatdırıb ki, təqdim olunan layihəyə əsasən, Əmək Məcəlləsində dəyişiklik edilərək işəgötürənlərin bərabər əməkhaqqı təmin etmək öhdəliyi konkretləşdirilir və əməkhaqqı sistemində cinsə görə ayrı-seçkiliyin qarşısının alınması gücləndirilir. Belə ki, Məcəllədə işəgötürənin vəzifələrini nəzərdə tutan 12-ci maddənin "g" bəndi təkmilləşdirilir və cinsindən asılı olmayaraq eyni və ya bərabər dəyərli müxtəlif işi yerinə yetirən işçilərə bərabər əməkhaqqının verilməsini təmin etmək öhdəlik olaraq müəyyən edilir.

Eyni zamanda Məcəllənin 154-cü maddəsinə yeni hissə əlavə edilməklə bərabər dəyərli işin obyektiv qiymətləndirilməsinin əmək şəraiti, əmək funksiyasının xarakteri və qüvvədə olan Vahid Tarif-İxtisas Sorğu Kitabçalarında nəzərdə tutulmuş tarif-ixtisas xüsusiyyətləri nəzərə alınmaqla işəgötürənlər tərəfindən müəyyən edilməsi nəzərdə tutulur. Qeyd edilib ki, sənəddə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanuna təklif olunan dəyişikliyə əsasən əməkhaqqının yalnız eyni və ya oxşar işlərə görə deyil, bərabər dəyərli işlərə görə də ödənilməsi nəzərdə tutulur. Belə ki, qanunun yeni redaksiyada təqdim edilən 9.1-ci maddəsinə əsasən, işəgötürən tərəfindən cinsindən asılı olmayaraq eyni və ya bərabər dəyərli müxtəlif işi yerinə yetirən işçilərə əməkhaqqı bərabər ödənilməlidir. İşin bərabər dəyərli olması Əmək Məcəlləsinin tələblərinə uyğun olaraq əmək şəraiti, əmək funksiyasının xarakteri və qüvvədə olan vahid tarif-ixtisas sorğu kitabçalarında əks olunan tarif-ixtisas xüsusiyyətləri nəzərə alınmaqla işəgötürən tərəfindən müəyyən edilir.

Musa Quliyev deyib ki, bu qanun layihəsinin qəbul edilməsi ölkəmizdə əmək bazarında gender bərabərliyinin təminatlarının hüquqi bazasının daha da təkmilləşməsinə, Azərbaycanın beynəlxalq reytinqinin yüksəlməsinə xidmət edəcək.

Sonra Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova layihə barədə rəhbərlik etdiyi komitənin rəyini açıqlayıb. O bildirib ki, Azərbaycanın qoşulduğu Beynəlxalq Əmək Təşkilatının "Bərabər dəyərli əməyə görə kişi və qadın işçilərin bərabər ödənişi haqqında" 100 nömrəli Konvensiyasına və digər normativ hüquqi aktlara əsasən, kişi və qadınlara bərabər dəyərli əməyə görə bərabər əməkhaqqı verilməsi tam təmin olunmalıdır. Həmin sənədlər əməkhaqqı ilə bağlı gender ayrı-seçkiliyinin aradan qaldırılmasına xidmət edir və bu prinsipi həyata keçirmək üçün bərabər dəyərli işin obyektiv qiymətləndirilməsi aparılmalıdır.

Komitə sədri qeyd edib ki, ölkəmizdə kişi və qadınların orta əməkhaqqı fərqinin aradan qaldırılması üçün mühüm islahatlar həyata keçirilir. Vətəndaşların məşğulluq məsələsi, onların layiqli işlə təmin edilməsi daim dövlətin diqqət mərkəzindədir. İşsizliyin aradan qaldırılması, yeni iş yerlərinin açılması, əməyin qiymətləndirilməsi prioritet məsələlərdən hesab edilir və bu istiqamətdə müsbət nəticələr əldə edilib.

Məsələ ilə bağlı müzakirələrdə deputatlar Elçin Mirzəbəyli və Günay Ağamalı bəzi qeyd və fikirlərini səsləndirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Komitə sədri bildirib ki, qanun layihəsi "operativ nəqliyyat vasitələri" anlayışının yeni redaksiyada genişləndirilməsini nəzərdə tutur və bu dəyişiklik hüquq-mühafizə, habelə digər xüsusi təyinatlı dövlət orqanlarının fəaliyyətinin daha səmərəli təşkilinə yönəlib. Xüsusilə prokurorluq orqanlarına məxsus, kriminalistik avadanlıqlarla təchiz edilmiş nəqliyyat vasitələrinin bu kateqoriyaya daxil edilməsi mövcud praktiki tələbatdan irəli gəlir. Layihədə hadisə yerinə operativ şəkildə çatdırılmanın təmin edilməsi, təxirəsalınmaz prosessual hərəkətlərin yerinə yetirilməsi və operativ-axtarış tədbirlərinin həyata keçirilməsi üçün həmin nəqliyyat vasitələrinin digər operativ xidmətlərlə eyni hüquqi statusa malik olması təsbit edilir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Təhsil haqqında" və "Minatəmizləmə fəaliyyəti haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (birinci oxunuş) məlumatı nəzərə çatdırıb. O, minatəmizləmə fəaliyyətinin müasir dövrdə həm humanitar, həm də milli təhlükəsizlik baxımından mühüm əhəmiyyət daşıdığını, işğaldan azad olunmuş ərazilərdə həyatın bərpası, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı, infrastrukturun yenidən qurulmasının məhz bu fəaliyyətin nəticəsində mümkün olduğunu vurğulayıb. Minatəmizləmə zamanı həlak olan şəxslərə dövlət qayğısı sosial siyasətin bir istiqaməti olması ilə yanaşı, eyni zamanda mənəvi borc, milli məsuliyyət və ədalət prinsipinin təzahürüdür. Onların ailələrinin sosial müdafiəsi, təminatı və diqqət mərkəzində saxlanılması dövlətin humanitar siyasətinin əsas prioritetlərindəndir.

Komitə sədri diqqətə çatdırıb ki, layihədə Vergi Məcəlləsinə təklif edilən dəyişiklik minatəmizləmə fəaliyyətini həyata keçirən zaman vəzifə borcunu yerinə yetirərkən həlak olmuş minatəmizləyənlərin ailə üzvlərinin vergi tutulmalı olan aylıq gəlirinin 400 manat məbləğində azaldılmasını, "Təhsil haqqında" qanuna təklif olunan dəyişiklik isə minatəmizləmə fəaliyyəti həyata keçirən zaman həlak olmuş minatəmizləyənlərin övladlarının mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikasının təhsil müəssisələrində ödənişli əsaslarla təhsil (əlavə təhsil istisna olmaqla) aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsini nəzərdə tutur.

Qanun layihəsinin keçid müddəalarına əsasən, 2026-cı il sentyabrın 15-dən tətbiq edilməsi nəzərdə tutulan dəyişikliklər bu qanun qüvvəyə mindiyi tarixədək minatəmizləmə fəaliyyətini həyata keçirən zaman həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin övladlarına da şamil olunur.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov layihə barədə rəhbərlik etdiyi komitənin rəyini bildirib. O, sənəddə Vergi Məcəlləsinə təklif edilən minatəmizləmə fəaliyyətini həyata keçirən zaman vəzifə borcunu yerinə yetirərkən həlak olmuş minatəmizləyənlərin ailə üzvlərinin vergi yükünün azaldılması ilə bağlı dəyişikliklərin vacibliyini qeyd edib. Komitə sədri diqqətə çatdırıb ki, gəlir vergisi üzrə güzəştə malik olan şəxslərin sırasına Vətən müharibəsi qəhrəmanları, Milli qəhrəmanlar, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin ailə üzvləri, "Müharibə veteranı" adı almış şəxslər və digərləri daxildir.

Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov məsələ barədə bu komitənin rəyini açıqlayaraq, layihədə "Təhsil haqqında" qanuna təklif olunan dəyişiklik barədə danışıb. O qeyd edib ki, qanuna əlavə edilməsi təklif olunan 14.8-1.10-cu maddəyə əsasən, dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin övladları təhsil müəssisələrində ödənişli əsaslarla təhsil (əlavə təhsil istisna olmaqla) aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Məsələ ətrafında müzakirələrdə parlamentin komitə sədri Fazil Mustafa, deputatlar Azər Allahverənov və Nigar Məmmədova fikirlərini səsləndirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Sonda Milli Məclisin Sədri Sahibə Qafarova bir neçə gün əvvəl Milli Məclisin bir qrup deputatı və parlament Aparatı əməkdaşlarından ibarət futbol komandasının Türkiyənin Antalya şəhərində keçirilmiş Türk Dünyası Parlamentlərarası Futbol Turnirində iştirak etdiyini və yüksək yer tutduğunu bildirərək, bu münasibətlə öz təbriklərini çatdırıb.

İclasda Milli Məclisin futbol komandasının kapitanı, parlamentin komitə sədri Fazil Mustafa turnir barədə məlumat verib. O, Türkiyə Böyük Millət Məclisinin təşkilatçılığı ilə keçirilmiş Futbol Turnirində 6 komandanın təmsil olunduğunu söyləyib. Qeyd edib ki, ilk dəfə idi ki, TÜRKPA-ya daxil olan ölkələrin parlament nümayəndələri burada iştirak edirdilər. Komitə sədri spiker Sahibə Qafarovanın dəstəyi ilə formalaşmış Milli Məclisin komandasının finala çıxdığını bildirib. İdman oyunlarında, eyni zamanda dostluq və əməkdaşlıq münasibətlərinin qurulduğunu da deyən Fazil Mustafa turnirdə iştirak edən komanda üzvlərinə təşəkkür edib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Bütöv və qüdrətli Azərbaycan missiyası

## 2018-ci ilin 11 aprel seçkiləri İlham Əliyevə olan ümumxalq etimadının növbəti parlaq təcəssümünə çevrildi

**8 il əvvəl, 2018-ci il aprelin 11-də Azərbaycanda keçirilən növbədənkənar prezident seçkiləri xalq-hakimiyyət birliyinin növbəti təntənəsi oldu. Seçkilərdə inamlı qələbə qazanmış İlham Əliyev aprelin 18-də konstitusiyaya və müqəddəs "Qurani-Kərim"ə əl basaraq and içdi və növbəti 7 il üçün Prezident səlahiyyətlərinin icrasına başladı. Bu qələbə təsadüfi deyil, son 15 ilin dinamik inkişafının məntiqi nəticəsi idi. 2003-cü ildən bəri verilən hər bir vəd, istər sosial-iqtisadi sahədə, istərsə də xarici diplomatiyada, real işlərlə öz təsdiqini tapmışdı. Xüsusilə hərbi sahədəki islahatlar 2016-cı ilin Aprel döyüşləri ilə öz bəhrəsini vermiş, Lələtəpədə dalğalanan bayraq Şuşaya gedən yolun ilk müjdəçisi olmuşdu.**

### "Biz Azərbaycanı daha qüdrətli ölkəyə çevirəcəyik"

Uzaqgörən və müdrik siyasi rəhbərlik altında ölkəmizin əldə etdiyi uğurlar vətəndaşlarımızı 2018-ci il 11 aprel tarixində prezident seçkilərində fəal şəkildə iştiraka və Azərbaycanı inamla parlaq gələcəyə aparan liderinə növbəti dəfə səs verməyə ruhlandırdı. Buna görə də sözügedən tarixdə İlham Əliyev yekdilliklə dövlətimizin başçısı seçildi. Prezident İlham Əliyev andiçmə mərasimində gələcək fəaliyyətinin yol xəritəsini bu sözlərlə bəyan etdi: "Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik".

Ölkəmizin rəhbəri həmin zaman vurğuladı: "...Əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar".

Beləliklə, ölkəmiz özünün yeni və daha dinamik inkişaf mərhələsinə qədəm qoydu.

Prezident İlham Əliyevin bu vədindən cəmi bir ay sonra, 2018-ci ilin mayında Günnüt əməliyyatı baş tutdu. Bununla 2016-cı il Aprel döyüşlərindən sonra böyük zəfərə aparan qələbə yolunun ən mühüm addımlarından biri Naxçıvanda atıldı.

Həmin il mayın 20-dən 27-nə qədər həyata keçirilən əməliyyatda Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklər işğaldan azad edildi. Uğurlu Naxçıvan əməliyyatı sayəsində ümumilikdə 11 min hektardan çox ərazi və Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı düşməndən azad edildi. Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Əməliyyat ordumuza İrəvan-Yeğeqnadzor-Gorus avtomobil yoluna nəzarət etməyə imkan verdi.

11 min hektardan çox ərazinin azad edilməsi və strateji yollara nəzarətin ələ keçirilməsi göstərdi ki, Azərbaycan artıq diktə edən tərəfdir. Dövlətimizin başçısının qeyd etdiyi kimi, bu əməliyyatda əldə olunan üstünlük İkinci Qarabağ müharibəsində bizə əvəzsiz informasiya və hərbi üstünlük qazandırdı.

### Tam suverenlik

Prezident İlham Əliyevin milli maraqlarımızın təmini naminə həyata keçirdiyi qətiyyətli siyasət 2020-ci ilin 27 sentyabrında haqq yürüşünə çevrildi. 44 günlük Vətən müharibəsi ərzində bircə dəfə də olmadı ki, qəhrəman döyüşçülərimiz düşmən tapdağından azad etdikləri ərazilərdən bir qarış belə geri çəkilsinlər. Müzəffər Ali Baş Komandan İlham Əliyevin gücləndirdiyi ordumuz yüksək peşəkarlıq göstərərək qısa zamanda 300-dən çox yaşayış məntəqəsini və Qarabağın mirvarisi Şuşanı azad etdi. Kapitulyasiya aktına qol çəkən düşmən Ağdamı, Kəlbəcəri və Laçını döyüşsüz tərk etməyə məcbur oldu.

Qarabağ zəfəri yüz minlərlə vətəndaşımızın torpaq həsrətinə son qoydu. Azərbaycan xalqı qalib xalqa çevrildi.

Ardınca həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində dövlət suverenliyimiz tam bərpa olundu, konstitusiyamız bütün ərazilərimizdə hüquqi qüvvəyə mindi. Regionda separatizmə son qoyuldu, xalqımıza qarşı ağır cinayətlər törətmiş canilər qanun qarşısında cavab verməli oldular.

Qarabağ və Şərqi Zəngəzurda quruculuq dövrü başlandı və bu, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mühüm istiqamətlərindən oldu. Uzun illər işğal altında qalmış, tamamilə dağıdılmış ərazilərimizin yenidən qurulması, burada müasir infrastrukturun yaradılması "Böyük qayıdış" proqramının icrasını da sürətləndirdi. Bu gün doğma yurduna qovuşdurulan insanların sayı 31 mini ötüb.

Qarabağ və Şərqi Zəngəzurun dirçəlişi Azərbaycanın qələbələr silsiləsinin ən mühüm bəndlərindən biri kimi hər birimizi qürurlandırır.

Xatırladaq ki, xalqımızın həyatında yaşanan əlamətdar hadisələrdən biri isə 2024-cü ilin 7 fevralında keçirilən prezident seçkiləri oldu. Xalq növbəti dəfə İlham Əliyevə yüksək etimad göstərərək ona səs verdi. Müstəqillik dövründə ilk dəfə olaraq Qarabağ və Şərqi Zəngəzurda vətəndaşlarımız səsvermədə iştirak etdilər. Bu seçki ilk dəfə bütün suveren ərazilərimizdə keçirilərək "Zəfər seçkisi" adı ilə tarixləşdi. İlham Əliyevin Xankəndidə səs verməsi isə həm siyasi, həm də rəmzi baxımdan xüsusi məna kəsb etdi.

Xalqımız Zəfər seçkisindən sonrakı dövrdə də Prezident İlham Əliyevin rəhbərliyi altında xeyli nailiyyətlər əldə etdi. Rusiya Federasiyasının sülhməramlı kontingentinin ölkəmizi zamanından əvvəl tərk etməsi, həmçinin Müzəffər Ali Baş Komandan İlham Əliyevin bir tələbi ilə 2024-cü ilin may ayında Qazax rayonunun dörd kəndinin Azərbaycana qaytarılması bu qəbildəndir.

### Azərbaycanın sülh modeli

Gerçəkləşdirilən uzaqgörən siyasət nəticəsində bu gün Azərbaycan dünyanın nüfuzlu ölkəsinə, etibarlı tərəfdaşa çevrilib. Ölkəmiz təkcə regionun deyil, dünyanın enerji və nəqliyyat qovşağı kimi adından söz etdirir. ABŞ və Çin kimi nəhənglərin maraq dairəsində olan respublikamız Prezident İlham Əliyevin sülhpərvər siyasəti ilə qlobal etimad qazanıb. Azərbaycanın səyləri ilə bölgədə yaranan reallıqlar və regional sabitlik mühiti Cənubi Qafqazı rifah və tərəqqi ünvanına çevirib.

ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ağ Evdə paraflanan sülh sazişinin mətni və ölkəmizin rəhbərinin layiq görüldüyü "Zayed İnsan Qardaşlığı Mükafatı" bu uğurların beynəlxalq miqyasda möhürüdür.

Ötən ilin avqustunda dünyanın supergüc ölkəsinin liderinin iştirakı ilə Ağ Evdə sülh sazişi mətninin paraflanması faktiki olaraq bölgədə sülhü təmin edib. Prezident İlham Əliyevin sülh istiqamətində göstərdiyi səylər qlobal səviyyədə yüksək etimad görür. Bakının liderliyi ilə Cənubi Qafqazda formalaşdırılan sülh modeli bu gün dünyada nümunə götürülür. BMT Təhlükəsizlik Şurasının onilliklər boyu kağız üzərində qalan qətnamələrini yerinə yetirən lider kimi beynəlxalq nüfuz qazanan Prezident İlham Əliyevin qlobal miqyaslı problemlərin həllində söz sahibi olması da bu mənada təsadüfi deyil.

Azərbaycan adına qazanılan qələbələrin təməl gücü isə xalq-iqtidar birliyidir. Bu mühüm məqamı 2018-ci ildə Prezident İlham Əliyev andiçmə mərasimindəki nitqində də vurğulayıb: "Prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirib. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət vermişdir, görülən işlərə səs vermişdir. İnkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs vermişdir... ...Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir".

Ulu Öndər Heydər Əliyev 2003-cü ildə xalqa müraciət edərkən demişdi ki, İlham Əliyevə özü qədər inanır və gələcəyinə böyük ümidlər bəsləyir. Bu gün qürurla deyirik ki, o ümidlər doğrulub, o inam Zəfər bayrağına çevrilib.

Ümumiyyətlə, 2003-cü ildən etibarən xalqın Prezident İlham Əliyevə verdiyi səs, əslində, Azərbaycanın bütövlüyünə, Şuşanın azadlığına və Xankəndidə dalğalanan üçrəngli bayrağımıza verilən səs idi. İlham Əliyev bir Prezident, həm də bir millətin qələbə, torpaq həsrətinə son qoyan, tarixin axarını dəyişən Xilaskar Lider kimi adını əbədiyyətə həkk etdirdi. Məhz Prezident İlham Əliyevin vətənə böyük xidmət missiyası sayəsində Azərbaycan daha güclü, daha qüdrətli və ən əsası, bütövdür.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Rəqəmsal keçid:
## yeni çağırışlar, prioritetlər və hədəflər

**Müasir dünya sürətlə rəqəmsallaşır. Bu gün cəmiyyət həyatının, demək olar ki, bütün sahələrində rəqəmsal texnologiyaların təsirləri hiss olunur. Dünya dövlətləri sosial və iqtisadi həyatı daha çevik, daha şəffaf və daha səmərəli etmək üçün rəqəmsallaşma proqramları hazırlayır. İri korporasiyalar rəqabət qabiliyyətini qorumaq məqsədilə böyük məlumat bazalarını yüksək texnologiyalar vasitəsilə emal edir. Vətəndaşlar isə hər gün rəqəmsal xidmətlərdən daha geniş şəkildə istifadə edirlər. Bütün bu proseslər zamanın əsas çağırışıdır.**

Rəqəmsal transformasiya, sadə dillə desək, cəmiyyətin və iqtisadiyyatın müasir texnoloji modelə keçididir. Buraya məlumatların rəqəmsal formada toplanması, emalı, təhlili, xidmətlərin onlayn təqdim edilməsi, istehsal proseslərinin avtomatlaşdırılması və qərarvermədə süni intellekt həllərindən istifadə daxildir. Başqa sözlə, rəqəmsallaşma həyatın sürətini artırır, vaxt itkisini azaldır və insan resurslarının daha səmərəli istifadəsinə imkan yaradır. Süni intellekt isə bu transformasiyanın ən mühüm dayaqlarından biridir. Bu texnologiya böyük həcmdə məlumatı qısa müddətdə təhlil edir, proqnozlar verir, riskləri müəyyənləşdirir və qərarvermə prosesini asanlaşdırır.

Təcrübə göstərir ki, rəqəmsal iqtisadiyyatın inkişafı ölkələrin gücünü və beynəlxalq rəqabətdə mövqeyini müəyyən edən əsas amillərdən biridir. Məhz buna görə də rəqəmsallaşma ümumilikdə qlobal inkişafın aparıcı istiqamətlərindəndir.

Azərbaycan üçün də rəqəmsallaşma mühüm əhəmiyyət daşıyır. Dünyada gedən sürətli texnoloji dəyişikliklər fonunda Azərbaycan da rəqəmsal transformasiyanı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Qloballaşan dünyada ölkəmizin coğrafi mövqeyi, enerji və nəqliyyat dəhlizlərinin mərkəzində yerləşməsi, insan kapitalı və mövcud iqtisadi potensialı rəqəmsal inkişaf üçün geniş imkanlar yaradır. Xüsusilə Dördüncü Sənaye İnqilabı şəraitində Azərbaycan regionda innovasiya mərkəzlərindən birinə çevrilmək potensialına malikdir.

Son illərdə ölkəmizdə informasiya və kommunikasiya texnologiyaları sahəsində mühüm addımlar atılıb. Elektron xidmətlərin genişlənməsi, dövlət idarəçiliyində rəqəmsal platformaların tətbiqi, internet infrastrukturunun gücləndirilməsi və innovasiya ekosisteminin inkişafı bunun bariz nümunəsidir.

Prezident İlham Əliyevin sədrliyi ilə 2026-cı il fevralın 11-də keçirilmiş müşavirədə ölkəmizin rəqəmsal gələcəyini müəyyən edən mühüm qərarlar qəbul edilib. Dövlətimizin başçısı müşavirədə deyib: "Dünyada gedən meyillər, trendlər bəllidir. Bu gün süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsallaşma ilə bağlı islahatlar faktiki olaraq ölkələrin gələcək inkişafını müəyyən edir. Azərbaycanda bu istiqamətdə müəyyən işlər görülüb, bu barədə bu gün danışılacaq. Ən önəmlisi gələcək fəaliyyətimizdə bu məsələni əsas prioritetlər siyahısına daxil etməyimizdir".

Müşavirədə müəyyən edilmiş prioritetlərə uyğun olaraq "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" təsdiq edilib. Fəaliyyət Planı əsasında bu illər ərzində həyata keçiriləcək tədbirlər çərçivəsində "vahid məlumat idarəçiliyi" yanaşmasının tətbiqi, məlumatların dövlət orqanları tərəfindən alınmasında "yalnız bir dəfə" prinsipinin reallaşdırılması, proaktiv dövlət xidmətlərinə keçid və bütün dövlət xidmətlərinin "Mygov" və "Mygov Biznes" platformaları (portal və mobil tətbiqləri) vasitəsilə göstərilməsi, texnoparklarda rezidentlik şərtlərinin sadələşdirilməsi və yerli innovativ məhsulların dövlət satınalmalarında dəstəklənməsi həyata keçirilməlidir. Eyni zamanda qlobal istedadları cəlb etmək üçün "rəqəmsal səyyah" vizasının tətbiqi, müstəqil mütəxəssislərin hüquqi statusunun müəyyən edilməsi, miqrasiya prosedurlarının sadələşdirilməsi, İKT, süni intellekt və informasiya təhlükəsizliyi üzrə mütəxəssislərin bilik və bacarıqlarının artırılması, dövlət informasiya ehtiyatlarının və sistemlərinin "Hökumət buludu"na tam miqrasiyası, maliyyə xidmətlərinin rəqəmsallaşması, elektron ticarət və informasiya təhlükəsizliyi sahələri üzrə normativ-hüquqi aktların tamamilə yenilənməsi nəzərdə tutulur. Fəaliyyət Planı, ilk növbədə, ölkədə rəqəmsal inkişaf sahəsində mövcud vəziyyətə və qlobal trendlərə əsaslanaraq müəyyənləşdirilən prioritet istiqamətlər və tədbirlər vasitəsilə sözügedən sahədə strateji məqsədlərə və göstəricilərə nail olmağı hədəfləyir.

"Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya" da təsdiq olunub. Strategiyanın əsas məqsədi rəqəmsal infrastrukturun genişləndirilməsi və iqtisadi rəqabət qabiliyyətinin artırılmasıdır.

Beləliklə, Azərbaycan dövlətinin rəqəmsallaşma ilə bağlı mövqeyi aydındır. Dövlət başçısı dəfələrlə qeyd edib ki, müasir dövrdə rəqəmsallaşma iqtisadi inkişafın, milli təhlükəsizliyin və sosial rifahın əsas dayaqlarından biridir.



Respublikamızda rəqəmsal inkişaf həm dövlət səviyyəsində, həm də özəl sektorun fəal iştirakı ilə daha da sürətlənir. Bu gün Azərbaycanda bankçılıq, telekommunikasiya, logistika, ticarət və xidmət sahələrində rəqəmsal həllər geniş tətbiq olunur. Elektron ödəniş sistemləri, mobil tətbiqlər və onlayn xidmət platformaları gündəlik həyatın ayrılmaz hissəsidir.

Ən vacib məqamlardan biri isə odur ki, süni intellekt və rəqəmsallaşma cəmiyyət üçün yeni iş imkanları yaradır. Bəzi ənənəvi peşələr dəyişir, lakin eyni zamanda proqramlaşdırma, kibertəhlükəsizlik, məlumat analitikası, robot texnologiyaları və rəqəmsal marketinq kimi yeni sahələr formalaşır. Bu isə gənclər üçün yeni perspektivlər açır.

Göründüyü kimi, Azərbaycan bu gün rəqəmsal yüksəliş mərhələsinə daxil olub. Bu yüksəliş novator təşəbbüslərə, dövlətin siyasi iradəsinə və müasir çağırışlara uyğunlaşma bacarığına əsaslanır. Qarşıdakı illərdə süni intellekt və rəqəmsal texnologiyaların daha geniş tətbiqi ölkəmizin iqtisadi inkişafını sürətləndirəcək, idarəetmədə şəffaflığı artıracaq və vətəndaşların həyat keyfiyyətini daha da yüksəldəcək.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# WUF13-ə hazırlıq çərçivəsində nəqliyyat vasitələrinin hərəkəti monitorinq ediləcək

**Mayın 17-22-də Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası (WUF13) çərçivəsində nəqliyyat axınının təhlükəsiz və səmərəli idarəsini təmin etmək məqsədilə müəyyənləşdirilmiş marşrutlar üzrə nəqliyyat vasitələrinin hərəkəti monitorinq olunacaq.**

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar WUF13 Azərbaycan Əməliyyat Şirkəti və aidiyyəti qurumların birgə təşkilatçılığı ilə həyata keçiriləcək monitorinq çərçivəsində aprelin 11-dən 12-nə keçən gecə saat 01:30-03:30 aralığında Bakı şəhərinin bir sıra küçə və prospektlərində nəqliyyatın hərəkəti üzrə müvəqqəti tənzimləmələr həyata keçiriləcək.

Monitorinq Neftçilər prospekti, Yusif Səfərov küçəsi, qismən Heydər Əliyev prospekti (Sabunçu körpüsünə qədər), Mehdi Hüseyn küçəsi, Xocalı prospekti, Rixard Zorge küçəsi, Zərifə Əliyeva küçəsi, həmçinin tədbir məkanı olan Bakı Olimpiya Stadionu istiqamətlərini əhatə edəcək.

Sürücülərdən və digər yol hərəkəti iştirakçılarından göstərilən tarixdə hərəkətlərini əvvəlcədən planlaşdırmaları, qeyd olunan istiqamətlər üzrə mümkün sıxlığı nəzərə almaları və alternativ yollardan istifadə etmələri xahiş olunur.

Heydər Əliyev Beynəlxalq Aeroportu ilə şəhər mərkəzi istiqamətlərində hərəkət edən ekspres avtobus marşrutu fəaliyyətinə normal qaydada, maneəsiz davam edəcək.

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider

**Dünya qeyri-müəyyənlik erasının ağrısını yaşayır. Bəşəriyyət qloballaşmanın gətirdiyi mürəkkəb sınaqlar və kəskin geosiyasi sarsıntılarla üz-üzədir. Planetin bir çox nöqtəsi maliyyə tənəzzülü, siyasi iflic və hərbi qarşıdurmaların meydanına çevrilib. Xüsusilə regionumuzda və qonşu coğrafiyalarda alovlanan münaqişələr qlobal təhlükəsizlik arxitekturasını darmadağın edir, dövlətlərarası etimadı sarsıdır və beynəlxalq əməkdaşlığı zəiflədir. İllərdir davam edən münaqişələr göstərir ki, beynəlxalq hüquq normaları və BMT kimi təsisatlar artıq çəkindirici funksiyanı yerinə yetirə bilmir. Yaranmış riskli mənzərə dünyanı "güclünün haqlı olması" prinsipinə geri qaytarır ki, bu da qlobal təhlükəsizlik üçün ən böyük təhdiddir.**




## Azərbaycan nümunəsi

### Mütləq qələbəsini təmin edən ölkəmiz xaos dövrünü yaşayan dünyanın təhlükəsizlik və sabitlik adasıdır

Problem həm də ondadır ki, indiki müharibələr artıq lokallaşdırıla bilmir və zəncirvari reaksiyalara səbəb olur, sosial-iqtisadi balansı pozur. Təhlükəsizliyi təhdid edən əsas amil təkcə fiziki savaşlar deyil, həm də hibrid təhdidlərdir. Kiberhücumlar, dezinformasiya müharibələri və iqtisadi sanksiyalar da dövlətlər arasındakı etimadı tamamilə məhv edir. Böyük güclərin regional münaqişələrə birbaşa və ya proksi qüvvələr vasitəsilə müdaxiləsi nüvə eskalasiyası riskini də artırır. Bu isə konkret bir regionun yox, bəşəriyyətin mövcudluğunu təhdid edən kritik problemdir.

2022-ci ilin fevralından bəri davam edən Rusiya-Ukrayna müharibəsinin dalan vəziyyəti XXI əsrin ən böyük humanitar, iqtisadi və geosiyasi fəlakətinə çevrilib. Dördillik döyüşlər hər iki tərəf üçün dəhşətli itkilərlə nəticələnib. Sonu görünməyən müharibədə ölən və yaralananların sayı artıq 2 milyona yaxınlaşır. Ukrayna əhalisinin 25 faizdən çoxu ölkədən didərgin düşüb. Dünya Bankı ölkədə bərpa işlərinə 600 milyard dollardan çox vəsait lazım olduğunu açıqlayıb. Rusiya da ciddi hərbi itkilərlə yanaşı, demoqrafik böhran və iqtisadi çöküşlə üzləşib. Müharibənin maddi dəyəri trilyon dollarlarla ölçülür. Ölkənin iqtisadiyyatı tamamilə müdafiə sənayesinə yönəlib ki, bu da mülki sektorun çökməsinə və inflyasiyanın kəskin artmasına səbəb olub. Enerji ixracına tətbiq olunan məhdudiyyətlər inkişaf etməkdə olan ölkələrdə aclıq riskini artırıb.

2026-cı ilin fevral ayının sonunda başlayan və 40 gün davam edən Yaxın Şərqdə də müharibə kritik mərhələni adlamayıb. Münaqişənin ilk saatlarında ABŞ və İsrail yüksək texnoloji hava üstünlüyü ilə İranın hərbi və nüvə infrastrukturunu qısa zamanda sıradan çıxaracağını, İran isə rəqiblərini geri çəkilməyə məcbur edəcəyini düşünürdü. Lakin ehtimallar özünü doğrultmadı. Əksinə, müharibə daha geniş coğrafiyaya yayıldı və bütün Körfəz ölkələri raket hücumlarına məruz qaldı. Münaqişənin 40 gün davam etməsi, bir çox ölkənin hava məkanını beynəlxalq uçuşlar üçün bağlaması dünya iqtisadiyyatını, qlobal neft daşımalarını koma vəziyyətinə saldı. Hörmüz boğazının qismən bağlanması neftin qiymətinin kəskin qalxmasına, enerji asılılığı olan Avropa və Asiya ölkələrində inflyasiyaya yol açdı. Aprelin 7-də Pakistanın vasitəçiliyi ilə ikihəftəlik kövrək atəşkəs elan edilsə də, nəticənin necə olacağı bəlli deyil. Atəşkəsin ara-sıra pozulması hərbi əməliyyatların yenidən başlayacağı ehtimalını artırır. İsrailin Livan cəbhəsindəki təhlükəni tam aradan qaldırmadan atəşkəsdə tərəddüd etməsi sülh təşəbbüslərinin səmərəliliyini sual altına qoyur.

İdarəolunmaz xaos mühitində dövlətlərin öz daxili nizamını qoruması və iqtisadi tərəqqini davam etdirməsi strateji zərurətdir. Bugünkü reallıqlar fonunda Azərbaycan, sözün əsl mənasında, dünya okeanında fırtınalardan uzaq təhlükəsizlik və sabitlik adasıdır. Ölkəmizin qüdrətini şərtləndirən ən mühüm amil daxili təhlükəsizliyin təmin olunması və ictimai-siyasi harmoniyadır. Bu sabitliyin mayasında isə birbaşa milli maraqlara və xalqın iradəsinə söykənən uzaqgörən siyasi kurs dayanır. Vətəndaşlarımızın yüksələn sosial rifahı, təhlükəsiz yaşayışı və davamlı inkişafın təminatı məhz bu siyasətin bəhrəsidir. Mövcud reallıq həm də nüfuzlu beynəlxalq agentliklərin hesabatlarında Azərbaycanın yüksəkreytinqli statusu ilə öz təsdiqini tapır.

Azərbaycan dövləti milli təhlükəsizliyin qorunmasına konseptual və çevik bir yanaşma nümayiş etdirərək, istənilən xarici və daxili təhdidləri hələ rüşeym halındaykən neytrallaşdırmaq iqtidarındadır. Ərazi bütövlüyümüzün bərpası və suverenliyimizin tam təmini də daxildəki monolit birliyin, Prezident İlham Əliyevin polad iradəsinin nəticəsidir. Azərbaycandakı xalq-iqtidar birliyi uğurlarımızın qarantı və ölkəmizi bütün təhdidlərdən qoruyan ən etibarlı sipərdir. Xalqımız dövlətimizin başçısının yürütdüyü siyasəti tam dəstəkləyir və qəti inam bəsləyir.

Xüsusən, sonu görünməyən qlobal münaqişələr fonunda Azərbaycanın 44 günlük müharibədə qazandığı möhtəşəm qələbəsi və ardınca sülh təşəbbüsü ilə çıxış etməsi daha çox ön plana çıxır. Müasir hərb tarixində əksər münaqişələr "dondurulmuş" və ya "tükəndirmə" mərhələsinə keçdiyi halda Azərbaycanın 2020-ci il Zəfəri bir neçə səbəbdən yeganə mütləq qələbə nümunəsi hesab olunur. Digər müharibələrdən fərqli olaraq 44 günlük savaşda Ermənistan rəsmən təslim sənədini imzaladı və ordusunun məğlubiyyətini etiraf etdi. Münaqişə "atəşkəs xətti" ilə yox, beynəlxalq səviyyədə tanınmış sərhədlərimizin bərpası, suverenliyimizin bütün ölkə ərazisində tam təmin edilməsi ilə nəticələndi. Cəmi 44 gün ərzində 30 illik işğala son qoyulması hərb elmində yeni nəsil müharibə standartı kimi qəbul edildi. Şanlı ordumuz texnoloji üstünlüklə klassik müdafiə sədlərini darmadağın edərək hərbi əməliyyatların müddətini minimuma endirdi.

Azərbaycanın möhtəşəm qələbəsi həm də bir dövlətin beynəlxalq təzyiqlərə rəğmən öz taleyini necə dəyişə biləcəyinin nümunəsidir. Dünya birliyi illərlə BMT-nin 4 qətnaməsini icra etmədiyi halda Azərbaycan bunu hərbi-siyasi yolla, öz imkanları sayəsində reallaşdırdı. Ukrayna və Yaxın Şərqdəki münaqişələrdə böyük güclər bir-biri ilə birbaşa toqquşsa da, Azərbaycan rəhbərliyinin regional və qlobal güclərlə balanslı siyasəti kənar müdaxilələrə imkan vermədi.

44 günlük müharibə və 2023-cü ilin antiterror tədbirləri həm də onu göstərdi ki, ən müasir texnologiyalar belə insan amili və milli ruh olmadan həlledici ola bilməz. Dağlıq və çətin relyefdə yüngül silahlarla və əlbəyaxa döyüşlə torpaqlarımızın düşməndən təmizlənməsi dünya hərb tarixinə rəşadət nümunəsi kimi düşdü. Bu, Azərbaycan əsgərinin psixoloji üstünlüyünün və vətən sevgisinin sübutu idi. Hərbçilərimizin mülki əhalini qoruması, hədəfləri dəqiqliklə məhv etməsi və ən kritik anlarda misilsiz qəhrəmanlığı müharibənin taleyini həll edən əsas hərəkətverici amil oldu.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti və sarsılmaz iradəsi bu qələbənin təməlində dayanan əsas amillərdir. Prezidentimiz müharibə boyunca xarici təzyiqlərə, beynəlxalq təşkilatların "münaqişənin hərbi həlli yoxdur" tezislərinə baxmayaraq, geri çəkilmədi, milli maraqları hər şeydən uca tutdu. Savaşın davam etdiyi müddətdə xarici mediaya verilən 30-dan çox müsahibə Azərbaycanın haqlı səsini dünyaya çatdırdı. Bu, düşmənin illərlə qurduğu dezinformasiya blokadasını dağıdan intellektual cəbhə idi. Prezident İlham Əliyevin "nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" fəlsəfəsi Azərbaycanın həm döyüş meydanında, həm də masa arxasında maksimum yüksək əhəmiyyətli nəticə ilə tamamlandı. Dövlət başçısının bu ifadəsi Azərbaycanın kənar təzyiqlərə boyun əymədən, ən uyğun geosiyasi və hərbi məqamı gözlədiyinin təsdiqidir. Bakının diktəsi və İrəvanın qeyd-şərtsiz kapitulyasiya şərtlərini qəbul etməsi də Azərbaycan liderinin prinsipiallığının zirvəsi idi.

Prezident İlham Əliyevin müxtəlif dövrlərdə səsləndirdiyi fikirlər və strateji addımları qələbəmizin ideoloji sütunlarını təşkil edirdi. Müharibənin ilk günlərindən etibarən "dəmir yumruq" milli həmrəyliyin rəmzinə çevrildi. Məhz bu şüar düşmənə qarşı birliyin və Azərbaycan Ordusunun məğlubedilməzliyinin mesajı idi. Dövlətimizin başçısı göstərdi ki, xalq və ordu vahid hədəf üçün birləşəndə heç bir maneə onları dayandıra bilməz. 2023-cü ilin antiterror tədbirlərindən sonra dövlətimizin başçısı Xankəndidə Azərbaycan bayrağını ucaldarkən qələbəni zəruri edən əsas amili belə şərh etdi: "Bu gün biz tariximizin yeni dövrünə qədəm qoyuruq. Biz sübut etdik ki, biz böyük xalqıq, öz taleyimizin sahibiyik". Dövlətimizin başçısının Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində səsləndirdiyi fikirləri də bu günümüzlə tam uzlaşır: "İndi dünyanın hər bir yerində müharibələr, toqquşmalar, qarşıdurmalar hökm sürür, hər gün biz bunu görürük. Azərbaycan sabitlik adasıdır, təhlükəsizlik adasıdır. Bu da böyük sərvətdir və Azərbaycan xalqı bunu yaxşı bilir. Çünki biz müstəqilliyimizin ilk illərində çətin günlər yaşamışdıq".

Tarixə möhürünü vuran qələbəmizi zəruri edən digər faktorlar illərlə səbir və təmkinlə hazırlanan maddi-texniki baza idi. Müttəfiq ölkələrlə qurulan hərbi-texniki əməkdaşlıq ordumuzu XXI əsrin standartlarına çatdırdı. Azərbaycanın xarici yardımlardan asılı olmayan iqtisadiyyatı müharibənin bütün xərclərini öz resursları hesabına qarşılamağa imkan verdi. Bu da dövlətimizin siyasi manevr imkanlarını genişləndirdi. Antiterror tədbirləri isə 44 günlük müharibənin məntiqi yekunu oldu. Bir gündən az müddətdə Qarabağda yurd salmış qanunsuz silahlı birləşmələrin tərk-silah edilməsi ərazimizdə separatçılığın kökünü kəsdi. Qlobal münaqişələrin illərlə həllini tapmadığı bir şəraitdə Azərbaycanın öz problemini qısa müddətdə və köklü şəkildə həll etməsi sözsüz ki, İlham Əliyevin strateji dühasının və xalq-iqtidar vəhdətinin əyani təzahürü idi.

Azərbaycanda hökm sürən ictimai-siyasi sabitlik və ölkəmizin beynəlxalq aləmdə artan nüfuzu regional inkişafa və qarşılıqlı faydalı əməkdaşlığa yönəlib. Ermənistanla sülh prosesi, beynəlxalq tərəfdaşların sayının artması, Avropanın enerji təhlükəsizliyindəki rolumuz və digər məsələlər Azərbaycanın həm daxildə, həm də xaricdə tam müstəqil və praqmatik siyasət yürütdüyünü deməyə əsas verir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

## Uzanan münaqişələr fonunda Azərbaycan modeli

**Dünyanın müxtəlif regionlarında davam edən münaqişələr, uzunmüddətli gərginlik ocaqları və qeyri-müəyyən təhlükəsizlik mühiti qlobal sabitliyi ciddi şəkildə sarsıdır. Yaxın Şərqdə davam edən qarşıdurmalar, eləcə də Rusiya-Ukrayna müharibəsi göstərir ki, müasir dövrdə silahlı münaqişələr və tərəflər arasında qəti nəticə əldə etmək asan başa gəlmir.**



Milli Məclisin deputatı Nigar Məmmədova qəzetimizə açıqlamasında bildirib ki, bu gün bir çox münaqişə ya dondurulur, ya da qeyri-müəyyən vaxta qədər uzanır. Tərəflər arasında hərbi əməliyyatlar davam etsə də, nə tam qələbə, nə də dayanıqlı sülh əldə olunur. "Nəticədə regionlar illərlə qeyri-sabitlik, humanitar problemlər və iqtisadi geriləmə ilə üz-üzə qalır. Bu cür vəziyyətlər beynəlxalq hüququn effektivliyi və qlobal təhlükəsizlik mexanizmlərinin yetərli olub-olmaması ilə bağlı sualları da gündəmə gətirir. Belə mürəkkəb geosiyasi vəziyyətdə Azərbaycan nümunəsi uğurlu model kimi ön plana çıxır. 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan 44 gün ərzində hərbi əməliyyatları qəti nəticə ilə başa çatdıraraq 30 ilə yaxın davam edən mürəkkəb münaqişəyə son qoydu. Bu qələbə hərbi uğur olmaqla yanaşı, həm də beynəlxalq hüququn bərpası kimi tarixə düşdü", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, münaqişənin uzanmaması və qeyri-müəyyən mərhələyə keçməməsi əsas üstünlüklərdən biridir. Halbuki 30 il ərzində beynəlxalq vasitəçilər münaqişənin uzanması üçün bütün vasitələrdən istifadə etdilər. Uzun müddət aparılan danışıqların nəticə verməməsi müharibəni qaçılmaz edirdi. Prezident İlham Əliyev hər zaman bəyan edirdi ki, bu vəziyyət sona qədər davam edə bilməz. Ermənistan isə öz xoşu ilə bizim tarixi torpaqlarımızdan çıxmaq niyyətində deyildi. Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək erməni havadarlarının əsas planı idi. Azərbaycan xalqı və dövləti bu işğalla barışa bilməzdi və barışmadı. Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan öz torpaqlarını hərbi yolla azad etməyə tam hazır idi. Ali Baş Komandanın da söylədiyi kimi: "Biz güc toplayırdıq və aydan-aya, ildən-ilə gücümüz artırdı. Biz beynəlxalq arenada öz səsimizi ucalda bildik. Bütün aparıcı beynəlxalq təşkilatlarda ölkəmizin münaqişə ilə bağlı mövqeyi üstünlük təşkil edirdi. Bir çox qərar və qətnamələr bizim Zəfərimizin hüquqi və siyasi əsasını təşkil edirdi".

N.Məmmədova vurğulayıb ki, Azərbaycan döyüş meydanında qalib gəlməklə bütün dünyada güclü dövlət, müzəffər xalq kimi tanınıb və qəbul edilib: "Təbii ki, Azərbaycanda ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi, vətənpərvər gənc nəsil, xalq-iqtidar birliyi də qələbəmizi şərtləndirən əsas amillərdən idi. Beləliklə, həm regionda yeni reallıqlar formalaşdı, həm də postmünaqişə dövrü üçün konkret inkişaf gündəliyi müəyyən edildi. Müharibədən sonra Azərbaycanın əsas prioritetlərindən biri təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsi oldu. Azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılması, infrastruktur layihələrinin həyata keçirilməsi və bölgənin iqtisadi inteqrasiyası istiqamətində atılan addımlar ölkənin uzunmüddətli inkişaf strategiyasının tərkib hissəsidir. Bu siyasət milli maraqlarla yanaşı, regionda dayanıqlı sülhün təmin olunmasına xidmət edir".

Azərbaycanın regional əməkdaşlıq təşəbbüsləri ilə də diqqət çəkdiyini deyən deputat bildirib ki, nəqliyyat və logistika layihələri, o cümlədən Orta dəhliz kimi təşəbbüslər ölkəni Avrasiya məkanında mühüm tranzit və iqtisadi mərkəzə çevirir. Bu layihələr həm iqtisadi, həm də siyasi sabitlik üçün mühüm platforma rolunu oynayır. Nəticə etibarı ilə, müasir dünyada uzanan münaqişələr fonunda Azərbaycan modeli göstərir ki, qətiyyətli siyasət, aydın strateji məqsədlər və effektiv idarəetmə nəticəsində münaqişələrə qısa müddətdə son qoymaq, postmünaqişə dövründə sabitlik yaratmaq mümkündür. Bu təcrübə beynəlxalq müstəvidə də öyrənilməsi vacib olan nümunələrdən biri kimi qiymətləndirilir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Azərbaycan hər zaman sülhü və sabitliyi təşviq edir

**"Son illər dünyada olduqca gərgin geosiyasi vəziyyət hökm sürür. Dünyanın müxtəlif yerlərində müharibələr, qanlı toqquşmalar gedir. Baş verən bu müharibələrdə hər gün yüzlərlə insan həyatını itirir, şəhərlər viran qalır, dünya iqtisadiyyatı dərin böhrana sürüklənir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə Əliyeva deyib. O bildirib ki, bunların əsas səbəblərindən biri BMT-nin zəif, gücsüz bir təşkilat olmasıdır. Dünyada artıq beynəlxalq hüquq işləmir, kim güclüdür, o da haqlıdır prinsipləri əsas rol oynayır.

Azərbaycanın həm şimalında, həm də cənubunda ağır müharibələr getdiyini diqqətə çatdıran ekspert qeyd edib ki, məhz Prezident İlham Əliyevin uzaqgörən, müdrik, eyni zamanda, qətiyyətli siyasəti nəticəsində ölkəmizin yerləşdiyi Cənubi Qafqaz regionunda bu gün əmin-amanlıq, sabitlik hökm sürür: "Müsbət hal odur ki, Azərbaycanın cənubunda İranla ABŞ arasında gedən qarşıdurmada atəşkəs elan olunub. Atəşkəsin elan olunması qlobal təhlükəsizlik baxımından mühüm əhəmiyyət kəsb edir. 40 gün davam edən ABŞ-İran müharibəsi Yaxın Şərqdə vəziyyəti kəskin şəkildə dəyişdirəcək duruma yaxınlaşmış, bütün region dövlətlərinin bu münaqişəyə cəlbolma riskini artırmışdır. Münaqişənin dərinləşməsi hərbi müstəvi ilə yanaşı, qlobal səviyyədə enerji təhlükəsizliyinə, beynəlxalq ticarət əlaqələrinə öz mənfi təsirini qabarıq şəkildə göstərə bilər. Artıq bir sıra dövlətlərdə yanacaq qıtlığı yaranıb, ərzaq məhsullarının qiymətlərində artım müşahidə olunur. Nəqliyyat-logistika marşrutlarının və kommunikasiya xətlərinin təhlükəsizliyi də sual altında qalmışdır".

K.Əliyeva vurğulayıb ki, bu baxımdan atəşkəs haqqında razılığın əldə olunması genişmiqyaslı böhranın qarşısının alınması istiqamətində olduqca əhəmiyyətli bir addım olub. Türkiyə və Pakistanın bu istiqamətdə diplomatik səyləri də öz bəhrəsini verib. O diqqətə çatdırıb ki, Azərbaycan dövləti ABŞ-İran arasında əldə olunmuş razılaşmanı alqışlayır və tərəflər arasında dialoqun baş tutmasının, məsələnin beynəlxalq hüquq normaları çərçivəsində həll olunmasının tərəfdarıdır. Azərbaycan tək regionda deyil, beynəlxalq aləmdə sabitliyin, əmin-amanlığın, dövlətlər arasında əməkdaşlığın yaranmasını təşviq edir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Ermənistanın vətəndaş cəmiyyətinin nümayəndələri "Sülh Körpüsü" Təşəbbüsü çərçivəsində Azərbaycana gəliblər

**"Sülh Körpüsü" Təşəbbüsü Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri arasında dialoqu və birbaşa əlaqələri təşviq etməyə davam edir. Aprelin 10-12-də Azərbaycanda "Sülh Körpüsü" Təşəbbüsü çərçivəsində Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə növbəti ikitərəfli "dəyirmi masa" keçiriləcək.**

AZƏRTAC xəbər verir ki, erməni nümayəndə heyəti Azərbaycana quru sərhədi vasitəsilə, delimitasiya və demarkasiya edilmiş sahədən daxil olub, bütün müvafiq sərhəd və pasport nəzarəti prosedurlarından keçib.

Qeyd edək ki, vətəndaş cəmiyyəti nümayəndələri arasında dialoq 2025-ci il avqustun 8-də Vaşinqton şəhərində Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə keçirilmiş üçtərəfli sammitdə təsdiqlənmiş ikitərəfli sülh gündəliyi çərçivəsində aparılır.

Görüşün gündəliyinə sülh prosesinin hazırkı vəziyyəti, "Sülh Körpüsü" Təşəbbüsü iştirakçılarının öz ölkələrində həyata keçirdikləri fəaliyyətlər və əldə olunan nəticələr, həmçinin regiondakı vəziyyətin müzakirəsi daxildir.

Müzakirə sessiyaları isə cəmiyyət səviyyəsində sülhün təşviqi və sülh prosesinin növbəti mərhələlərində etimadın artırılması məsələlərinə həsr olunacaq.

## Operativ diplomatik təmaslar Azərbaycanın xarici siyasət reflekslərini nümayiş etdirir

**"İran ilə ABŞ arasında elan edilən ikihəftəlik atəşkəsdən sonra Azərbaycanın sürətli diplomatik reaksiyası, Bakının böhran idarəçiliyi və qonşuluq diplomatiyası sahəsində formalaşdırdığı yanaşmanın davamıdır".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Hacı Bayram Vəli Universitetinin müəllimi Şuay Nilhan Açıkalın söyləyib.

O bildirib ki, Azərbaycanın son dövrdə İrana qarşı sərgilədiyi mövqe yalnız ritorik dostluq vurğusu ilə məhdudlaşmır. Belə ki, İranın mürəkkəb daxili və xarici şərtlərlə üzləşdiyi bir mərhələdə Azərbaycan-İran sərhəd xəttinin sabit profil nümayiş etdirməsi iki ölkə arasında faktiki təhlükəsizlik koordinasiyasının davam etdiyini göstərir.

"Prezident İlham Əliyevin İranın ali rəhbərinin vəfatından sonra göstərdiyi operativ diplomatik təmaslar və ölkədəki səfirlik səviyyəsində həyata keçirilən ziyarətlər, simvolik siyasətin xarici siyasətdə rolunu gücləndirən amillər sırasındadır. Eyni şəkildə, atəşkəsdən sonra edilən ilk təbrik telefon zənglərindən birinin Bakıdan gəlməsi, Azərbaycanın regional prosesləri yaxından izləyən və mövqeyini erkən mərhələdə müəyyən edən xarici siyasət refleksinə sahib olduğunu göstərir.

Bu baxımdan da Azərbaycan və İran prezidentləri arasındakı son telefon danışığı yalnız diplomatik protokol deyil, eyni zamanda həssas regional balanslar daxilində "nəzarətli normallaşma" axtarışının göstəricisidir. İki ölkə arasındakı münasibətlər, tarixi gərginlik sahələrinə baxmayaraq, qarşılıqlı praqmatizm və geosiyasi zərurətlər əsasında yenidən formalaşır. Bu prosesdə isə həlledici amil böhran anlarında nümayiş etdirilən diplomatik davamlılıq və institusional təmas qabiliyyəti olacaq", - deyə türk ekspert əlavə edib.

# Qarabağ və Şərqi Zəngəzurda yeni tarix yazılır

**2020-ci ilin payızı Azərbaycan tarixində təkcə hərbi qələbə ilə deyil, həm də milli qürurun, ədalətin və beynəlxalq hüququn bərpası ilə yadda qaldı. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərlə Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərək uzun illər davam edən münaqişəyə son qoydu. Qazanılmış böyük qələbə hər bir regionda yeni geosiyasi reallıqlar formalaşdırdı, sülh və əməkdaşlıq üçün real zəmin yaratdı.**





Məhz qazanılan bu böyük hərbi Zəfərdən sonra Azərbaycan regionda sülh təşəbbüslərinin əsas müəllifinə çevrildi. Rəsmi Bakı dəfələrlə bəyan etdi ki, keçmiş Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub və indi əsas məqsəd dayanıqlı sülhün təmin olunmasıdır. Bu yanaşma bir daha göstərdi ki, ölkəmiz yalnız müharibə aparan deyil, həm də sülh quran dövlətdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə ilk səfərləri isə yeni dövrün ideoloji və siyasi manifestinə çevrildi. Onun səsləndirdiyi "Biz bu torpaqlara həyat qaytaracağıq" fikri artıq bir reallıqdır. Həmin səfərlər zamanı verilən mesajlar yalnız Azərbaycanın deyil, bütün regionun gələcəyinə hesablanmış strateji baxışın ifadəsi idi.

Bu gün Qarabağ nəhəng tikinti meydançasını xatırladır. Qısa müddət ərzində sıfırdan qurulan yollar, körpülər, kommunikasiya xətləri regionun simasını tamamilə dəyişib. Müasir avtomobil yolları Qarabağı və Şərqi Zəngəzuru Azərbaycanın digər bölgələri ilə birləşdirərək həm iqtisadi, həm də sosial inteqrasiyanı sürətləndirir.

Qarabağın beynəlxalq nəqliyyat xəritəsində yerini möhkəmləndirən mühüm layihələrdən biri də yeni hava limanlarının tikintisidir. Füzuli, Zəngilan, Laçın beynəlxalq hava limanları qısa müddətdə inşa edilərək istifadəyə verildi. Bu hava qapıları Qarabağın və Şərqi Zəngəzurun dünyaya açılan pəncərələridir və regionun iqtisadi potensialını artıran strateji layihələr kimi xüsusi əhəmiyyət daşıyır.

Quruculuq prosesinin ən parlaq nümunələrindən biri Ağalı kəndidir. "Ağıllı kənd" konsepsiyası əsasında qurulan bu yaşayış məntəqəsi müasir texnologiyalar, alternativ enerji mənbələri və dayanıqlı inkişaf prinsipləri üzərində formalaşdırılıb. Burada yaradılan yeni iş yerləri və sosial infrastruktur Böyük qayıdışın uğurlu modelinə çevrildi. "Böyük qayıdış" proqramının ilk və ən uğurlu nümunəsi olan Ağalı kəndi qısa müddət ərzində sıfırdan qurularaq müasir yaşayış məntəqəsinə çevrildi. Birinci mərhələdə kənddə 200-dən artıq fərdi yaşayış evi inşa olunaraq keçmiş məcburi köçkünlərin istifadəsinə verildi. Bu evlər ən son texnologiyalar əsasında -"ağıllı ev" sistemləri, alternativ enerji mənbələri və müasir kommunikasiya infrastrukturu ilə təmin edildi. Kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, xidmət və ictimai iaşə obyektləri yaradıldı. Dövlət tərəfindən sakinlərin məşğulluğunun təmini məqsədilə müxtəlif sahələrdə - kənd təsərrüfatı, xidmət sektoru və kiçik sahibkarlıq istiqamətində real imkanlar açıldı. Bu gün Ağalı sakinləri artıq uzun illərin məcburi köçkün həyatından sonra doğma torpaqlarında azad yaşayır, potensiallarını reallaşdırır və dövlətin yaratdığı şəraitdən istifadə edərək iqtisadi fəaliyyətə qoşulurlar.

Ağalıda həyatın bərpasının ən rəmzi və təsirli anlarından biri isə uzun illərdən sonra ilk məktəb zənginin çalınması oldu. Bu zəng, sadəcə, dərsin başlanğıcını deyil, bütövlükdə bir xalqın doğma torpaqlara qayıdışını, gələcəyə inamını və həyatın yenidən dirçəlişini ifadə edirdi. O həmçinin illərlə susdurulmuş torpaqlarda yenidən uşaq səslərinin eşidiləcəyinin, təhsilin, inkişafın və davamlı həyatın bərqərar olacağının simvolu idi. Ağalı "ağıllı kənd" modeli isə artıq təkcə Azərbaycan üçün deyil, bütövlükdə region üçün innovativ inkişaf nümunəsi kimi qiymətləndirilir. Məktəbdə tətbiq olunan texnologiyalar, dayanıqlı yaşayış prinsipləri və sosial-iqtisadi yanaşma gələcəkdə digər yaşayış məntəqələri üçün də örnək rolunu oynayır. Qürurla deyə bilərik ki, keçmiş məcburi köçkünlərin doğma yurdlarına sürətli dönüşü bir reallıqdır.



Laçın, Şuşa, Xankəndi, Xocalı, Füzuli, Ağdam, Cəbrayıl, Xocəvənd, Kəlbəcər şəhərləri yenidən həyata qayıdır. Bu torpaqlara qayıdan insanların sevinc göz yaşlarını Azərbaycanın ən böyük mənəvi qələbəsinin rəmzi hesab etmək olar. Bu məqamda xüsusi olaraq Laçın şəhərinin bir güllə atılmadan, diplomatik yolla qaytarılması müasir tariximizin ən mühüm siyasi nailiyyətlərindən biri olduğunu qeyd etməliyik. Bu hadisə təkcə hərbi qələbənin davamı deyildi, eyni zamanda Azərbaycanın düşünülmüş, praqmatik və uzaqgörən siyasətinin nəticəsi idi. Məhz Prezident İlham Əliyevin qətiyyəti, prinsipial mövqeyi və ardıcıl diplomatik xətti sayəsində Laçın rayonu 2022-ci ilin avqustunda tam şəkildə Azərbaycanın nəzarətinə qaytarıldı. Bu onun göstəricisi idi ki, ölkəmiz yalnız döyüş meydanında deyil, siyasi-diplomatik müstəvidə də öz maraqlarını qətiyyətlə təmin edən dövlətdir. Müzəffər Ali Baş Komandanın Laçına ilk səfəri isə bu tarixi qayıdışın rəmzi anlarından biri oldu. Dövlətimizin başçısının şəhərin mərkəzində Azərbaycan bayrağını ucaltması illərlə həsrətində olduğumuz suverenliyin bərpasının, milli qürurun və dövlət iradəsinin təntənəsi kimi yadda qaldı.

Qısa müddət ərzində Laçında aparılan abadlıq-quruculuq işləri isə bir möcüzə təsirini bağışlayır. Dağıdılmış infrastrukturun yerində müasir yaşayış məhəllələri, yollar, sosial obyektlər inşa edilir, şəhər yenidən həyat qazanır. Zabux kəndi və Sus kənd sakinlərinin doğma yurdlarına dönüşü "Böyük qayıdış" proqramının uğurla icra olunduğunu bir daha təsdiqləyir. Bu görüşlər zamanı Prezident İlham Əliyev Laçın sakinlərinə müraciətində vurğulamışdır: "Biz sizi doğma torpaqlarınıza qaytardıq və bundan sonra burada əbədi yaşayacaqsınız". Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva isə bu qayıdışı belə ifadə etmişdir: "Bu gün sizin sevinciniz bizim hamımızın sevincidir, Laçın yenidən dirçəlir". Bu fikirlər yalnız siyasi bəyanat deyil, həm də dövlətin öz vətəndaşına verdiyi dəyərin, doğma torpaqlara bağlılığın və gələcəyə inamın ifadəsidir.




Azərbaycan əsgərinin qəhrəmanlıq dastanı yazdığı müqəddəs Şuşa təkcə bir şəhər deyil, Azərbaycan xalqının milli ruhunun, mədəni yaddaşının və tarixi qürurunun simvoludur. 2020-ci ilin noyabrında əldə olunan Şuşa Zəfəri Vətən müharibəsinin taleyini həll edən ən mühüm hadisə olmaqla yanaşı, Azərbaycanın mənəvi qələbəsinin də zirvəsinə çevrildi.

Məhz bu şəhərin azad olunması ilə düşmənin müqavimət iradəsi qırıldı və münaqişənin yekunlaşması qaçılmaz oldu. Bu gün Şuşa yenidən dirçəlir, öz əzəli simasına qovuşur və Qafqazın mədəniyyət paytaxtı kimi əvvəlki şöhrətini bərpa edir. Qısa müddət ərzində burada genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir, dağıdılmış tarixi abidələr, mədəniyyət ocaqları, məscidlər və yaşayış məhəlləri yenidən inşa olunur. Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Vaqifin məqbərəsi kimi tarixi-mədəni incilər bərpa edilərək xalqımıza qaytarılıb. Şuşada keçirilən "Xarıbülbül" Musiqi Festivalı, "Vaqif Poeziya Günləri" kimi beynəlxalq əhəmiyyətli tədbirlər şəhərin yenidən mədəni həyatın mərkəzinə çevrildiyini sübut edir. Bu prosesdə Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr xüsusi rol oynayır - tarixi irsin qorunması, dini abidələrin bərpası və mədəni mühitin dirçəldilməsi istiqamətində görülən işlər Şuşanı yenidən Qafqazın incisinə çevirir. Bu gün Şuşa artıq təkcə Azərbaycanın deyil, bütün regionun mədəniyyət və dialoq platformasına çevrilməkdədir. Burada səslənən hər musiqi, keçirilən hər tədbir, bərpa olunan hər abidə bir həqiqəti təsdiqləyir - Şuşa yaşayır, dirçəlir, Azərbaycanın əbədi mədəniyyət paytaxtıdır.

2023-cü ildə həyata keçirilən antiterror tədbirləri isə ölkənin suverenliyini tam şəkildə təmin etdi. Xankəndi, Xocalı və digər ərazilərdə qeyri-qanuni silahlı birləşmələrin ləğvi ilə separatizmə son qoyuldu. Bununla da Qarabağda təhlükəsizlik və sabitlik tam bərqərar edildi.



Bir zamanlar separatizmin, qanunsuz silahlı birləşmələrin və süni şəkildə yaradılmış qarşıdurmanın mərkəzi kimi təqdim edilən Xankəndi bu gün tamamilə yeni bir mərhələyə qədəm qoyur. 2023-cü ildə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyi tam bərpa olundu, qanunsuz silahlı dəstələr tərk-silah edildi və illərlə regionda sabitliyə mane olan separatizmə son qoyuldu. Bununla da Xankəndi öz həqiqi kimliyinə - Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bir şəhər statusuna qayıtdı. Bu gün burada artıq qorxu və qarşıdurma deyil, sabitlik, inkişaf və inteqrasiya mühiti formalaşır. Şəhərin sosial və iqtisadi infrastrukturu yenidən qurulur, yeni idarəetmə modeli tətbiq olunur, təhsil və ictimai həyat canlandırılır. Xankəndinin tələbə şəhərciyinə çevrilməsi istiqamətində atılan addımlar isə onun gələcəyinin elm, bilik və gənclik üzərində qurulduğunu göstərir.

Ən mühüm məqamlardan biri isə budur ki, bir zamanlar qapalı və münaqişə ocağı kimi tanınan Xankəndi bu gün sülh və dialoq mərkəzi kimi çıxış edir. Burada keçirilən tədbirlər, görüşlər və təşəbbüslər Azərbaycanın regionda sabitlik və əməkdaşlıq niyyətinin real təcəssümüdür. Bu şəhər artıq dünyaya yeni mesaj verir - qarşıdurmanın yerini əməkdaşlıq, separatizmin yerini dövlətçilik, nifrətin yerini isə birgəyaşayış və inkişaf ideyası alıb. Xankəndinin bu transformasiyası təkcə bir şəhərin taleyinin dəyişməsi deyil, bütövlükdə regionun gələcəyinin yeni istiqamətdə formalaşmasının parlaq nümunəsidir.

Bir zamanlar bəşər tarixinin ən qanlı faciələrindən birinin baş verdiyi, günahsız insanların amansızlıqla qətlə yetirildiyi müqəddəs Xocalı şəhərini dünya ictimaiyyəti Azərbaycan xalqının çəkdiyi ağrı və ədalətsizliyin simvolu kimi tanıyırdı. Bu gün isə Xocalı yalnız faciənin deyil, həm də dirçəlişin, yenidən doğuluşun ünvanına çevrilib. Şəhər sürətlə bərpa olunur, yeni yaşayış məntəqələri salınır, sosial infrastruktur qurulur, insanların yaraları sağalır, həyat öz axarına qayıdır. Keçmişin ağrıları hələ də yaddaşlarda yaşayır, lakin bu gün xocalılılar artıq gələcəyə inamla, doğma torpaqlarında ləyaqətli həyat qurmaq əzmi ilə yaşayırlar. Bu il Xocalı faciəsinin xatirəsini əbədiləşdirən möhtəşəm memorial kompleksin açılışı isə həm tarixi yaddaşın qorunması, həm də ədalətin təntənəsinin rəmzinə çevrildi. Açılış mərasimində iştirak edən Prezident İlham Əliyev Xocalı haqqında belə demişdir: "Xocalı faciəsi heç vaxt unudulmayacaq. Azərbaycan xalqı bu dəhşətli cinayəti unutmayacaq və unutdurmayacaq". Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə keçirilən bu mərasim bir daha göstərdi ki, Xocalı artıq yalnız hüznün deyil, həm də qürurun, dirçəlişin və ədalətin bərpa olunduğu müqəddəs bir məkandır.

Ağdam - illərlə "ruhlar şəhəri" kimi yadda qalan, viranəyə çevrilən bu qədim məkan hazırda möhtəşəm dirçəliş mərhələsini yaşayır. Bir vaxtlar yalnız dağıntılar və söküntülərin hökm sürdüyü Ağdam indi yenidən həyatın qayıtdığı, quruculuğun vüsət aldığı bir şəhərə çevrilir. Burada həyata keçirilən genişmiqyaslı layihələr şəhərin gələcək inkişaf konsepsiyasını aydın şəkildə ortaya qoyur - müasir infrastruktur qurulur, yeni yaşayış massivləri salınır, sənaye zonalarının yaradılması ilə Ağdamın yenidən regionun iqtisadi mərkəzlərindən birinə çevrilməsi hədəflənir. Şəhərə ilk qatarın daxil olması isə təkcə nəqliyyat hadisəsi deyil, həm də Ağdamın yenidən ölkənin iqtisadi və sosial həyatına inteqrasiyasının rəmzidir. Perspektiv layihələr sırasında yer alan parkların salınması, müasir tramvay xəttinin yaradılması şəhərin gələcək urbanistik simasını müəyyənləşdirir.

Ağdamda milli-mənəvi irsin bərpası istiqamətində görülən işlər də xüsusi əhəmiyyət daşıyır. Cümə məscidinin bərpası, Pənahəli xanın imarətinin yenidən qurulması tarixi yaddaşın dirçəldilməsi baxımından mühüm addımlardır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müqəddəs kitabımız "Qurani-Kərimi"n Ağdam Cümə məscidinə hədiyyə olunması isə bu torpaqlara yalnız fiziki deyil, həm də mənəvi həyatın qayıtdığını simvolizə edir. Bu gün Ağdam artıq keçmişin faciələrinin deyil, gələcəyin ümidlərinin şəhəridir - burada aparılan quruculuq işləri bir daha sübut edir ki, Azərbaycan dağıdılmış şəhərlərini yalnız bərpa etmir, onları inkişaf modelinə uyğun yenidən quraraq regionun ən müasir və dinamik mərkəzlərinə çevirir.

Azərbaycan Qarabağı yalnız bərpa etmir, həm də onu gələcəyin "yaşıl enerji zonası"na çevirir. Günəş, külək və su resursları əsasında qurulan enerji layihələri regionun dayanıqlı inkişafını təmin edir və Qarabağı ekoloji baxımdan nümunəvi bölgəyə çevirir.

Bu gün Cəbrayıldan Füzuliyə, Qubadlıdan Ağdama, Şuşadan Xankəndiyə qədər uzanan bu böyük dirçəliş salnaməsi bir həqiqəti bütün dünyaya nümayiş etdirir - Azərbaycan təkcə torpaqlarını azad etmədi, o torpaqlara yeni həyat, yeni nəfəs, yeni gələcək bəxş etdi. Bu şəhərlərin hər biri artıq keçmişin ağrılarından doğan gücün, milli iradənin və dövlət qətiyyətinin canlı təcəssümüdür.

Bu möhtəşəm dönüşün arxasında isə sarsılmaz iradəsi, qətiyyəti və uzaqgörən siyasəti ilə tarix yazan İlham Əliyev dayanır. Qarabağın xilaskarı olan Müzəffər Ali Baş Komandan yalnız torpaqları azad etmədi, həmçinin viran qoyulmuş yurdları yenidən cənnətə, illərlə həsrət çəkən insanları doğma ocaqlarının xoşbəxt sakinlərinə çevirir. Bu gün Qarabağda və Şərqi Zəngəzurda ucalan hər bina, çəkilən hər yol, yanan hər işıq qayıdışın, dirçəlişin, zəfərin davamıdır. Bu, Zəfərdən quruculuğa uzanan yolun günbəgün, saatbasaat yazılan tarixidir.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*



# Ermənistan cəmiyyəti ideoloji sınaq qarşısındadır



**Ermənistanda 7 iyuna təyin edilmiş parlament seçkisi öncəsi yaşanan siyasi gərginlik ideologiyaların toqquşması müstəvisinə keçib. Baş nazir Nikol Paşinyanın "real Ermənistan" konsepsiyası ilə müxalifəti təmsil edən Robert Koçaryanın simvolizə etdiyi revanşist blok arasındakı mübarizə hakimiyyət davasından daha çox ölkənin gələcək mövcudluğu üzərində seçimə çevrilib. Bu mənada siyasi temperaturun pik həddə çatması daxili və regional təhlükəsizlik baxımından ciddi suallar doğurur.**

R.Koçaryanın seçki kampaniyası müharibə ritorikasına və qondarma ideologiyaların yenidən canlandırılmasına hesablanıb. Məsələn, Xocalı soyqırımının təşkilatçısı və iştirakçısı olmuş müharibə canisi iddia edir ki, Ermənistan böyük diaspora malikdir və ona görə də ölkə 29 min kvadrat kilometrlik ərazi ilə məhdudlaşmamalıdır. Baş nazir Nikol Paşinyan isə bu cür açıqlamaları təhlükəli hesab edir. Hökumət başçısının fikrincə, müxalif cinahın indiki sərhədlərlə kifayətlənməmək çağırışları və erməni lobbisinin ambisiyalarına söykənən ritorikası Ermənistanı yenidən qaçılmaz müharibə və regional fəlakət ssenarisi ilə üz-üzə qoyur: "Bu, qaçılmaz müharibə deməkdir".

N.Paşinyan açıq şəkildə vurğulayır ki, Azərbaycan və Ermənistan arasında təhlükəsizliyin ən etibarlı qarantı sülhdür. Baş nazir delimitasiya və demarkasiya prosesini legitim sərhədlərin bərpası kimi təqdim edərək revanşistlərin gəlişinin Azərbaycan və Türkiyə ilə birbaşa qarşıdurma yaradacağını vurğulayır. Yəni özünü pis variantların içində "ən yaxşısı" kimi göstərməyə çalışır. Seçki kampaniyasını strateji tezislər üzərində quran hökumət başçısı erməni toplumunu seçim qarşısında qoyur: ya sülh yolu ilə dövlətçiliyi qorumaq, ya da xülyalar dalınca gedərək dövləti tamamilə itirmək.

R.Koçaryanın namizədliyinin irəli sürülməsi müxalifətin vahid lider ətrafında birləşmək cəhdidir. Bu, həm də Ermənistanın xarici siyasət vektorunun yenidən Rusiyaya tərəf kəskin dönüşü deməkdir. Revanşist qüvvələrin Moskva ilə sıx təmasda olması sirr deyil. Kreml üçün Paşinyanın Qərbəmeyilli siyasəti və KTMT-dən uzaqlaşması qəbuledilməzdir. Bu mənada Koçaryan Moskvanın "təhlükəsizlik zəmanəti" vədini cəmiyyətə sırımağa çalışır. Xatırladaq ki, hazırda həbsdə olan, "Güclü Ermənistan" adlı partiyanın rəhbəri oliqarx Samvel Karapetyan da parlament seçkilərində iştirak etmək niyyətini açıqlamışdı. Amma Karapetyanın ikili vətəndaşlığı onun namizədliyinin önündə qanuni əngəl sayılır. O səbəbdən, Rusiyanın siyasi dəstəyi daha çox R.Koçaryan üzərində fokuslanır.

Türkiyənin Ərciyəs Universitetinin professoru, ermənişünas-alim Qafar Çaxmaqlı qəzetimizə açıqlamasında Ermənistanda seçki öncəsi çox gərgin atmosferin olduğunu, gündəmin hər gün dəyişdiyini deyib. Alim vurğulayıb ki, Rusiyanın açıq dəstək verdiyi R.Koçaryan, S.Karapetyan və Qagik Tsarukyanın ətraflarına cəmlədikləri qüvvələrlə Paşinyan komandası arasında mübarizə şiddətlənir: "Bəzi antihakimiyyət qüvvələrin də gələcəkdə müxalif blokun yanında yer alacağı ehtimalı yüksəkdir. Keçmiş prezident Levon Ter-Petrosyanın rəhbəri olduğu Erməni Milli Konqresi də seçki marafonuna qoşulmağa hazırlaşır. Seçkilərdə iştirak etməyəcəyi qərarını elan edən sabiq rəhbər Serj Sarkisyanın partiyası da tərəfdarlarına müxalifəti dəstəkləməklə bağlı çağırışlar edib. Bütün bunlar göstərir ki, Paşinyan hakimiyyətinə qarşı geniş cəbhə açılıb. Amma müxalifətin təbliğatına baxmayaraq, erməni cəmiyyəti artıq sülh içərisində yaşamaq istəyir. Çünki 44 günlük müharibə və sonrakı proseslər ermənilərin gözünü elə qorxudub ki, artıq riskə getmək niyyətində deyillər. Ona görə də əksəriyyət Paşinyanı dəstəkləyəcək".

Həmsöhbətimizin sözlərinə görə, baş nazir cəmiyyətə açıq xəbərdarlıq edib ki, revanşist qüvvələr hakimiyyətə gələrsə, sentyabrda müharibə qaçılmaz olacaq: "Erməni analitiklər bu fikri şərh edərkən ciddi arqumentlər gətirirlər. Ermənistan ictimaiyyəti fərqindədir ki, Rusiyameylli qüvvələr hakimiyyəti ələ keçirərsə, Qarabağ məsələsini yenidən gündəmə gətirəcək, Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edəcəklər. Bu isə təbii olaraq, yeni gərginliyə yol açacaq və hərbi qarşıdurma qaçılmaz hala gələcək. Məhz bu ehtimal erməni seçicilərini qorxudur".

Q.Çaxmaqlı əlavə edib ki, kənar güclərin maliyyə dəstəyilə seçkiləri öz xeyirlərinə dəyişdirmək istəyənlər mövcud reallıqları və ermənilərin düşüncəsini gözardı edirlər: "Ermənistan küçələrində keçirilən anket-sorğular da göstərir ki, keçmiş rəhbərlərə, Kremlin layihələrinə nifrət get-gedə artmaqdadır. Məsələn, bu günlərdə Samvel Karapetyanın təbliğatını aparan maşın karvanı Cermuka səfər edərkən daşqalaq edilərək oradan qovulub. Yəqin ki, seçki dövründə bənzər hadisələr olacaq. O da həqiqətdir ki, Nikol Paşinyanın başını çəkdiyi siyasi qüvvələrin seçkidə 50 faizdən çox səs toplama ehtimalı yoxdur. Lakin seçkidə baryeri aşa biləcək yeni siyasi blokların ortaya çıxması da mümkündür. Ehtimal edilir ki, Ermənisanda koalisiya hökuməti qurula bilər. Bu isə mövcud hakimiyyətin davamı deməkdir".

Nəticə etibarı ilə Ermənistanda 7 iyun seçkiləri Cənubi Qafqazda davamlı sülhün taleyini müəyyən edəcək. Revanşist qüvvələr hakimiyyətə gələrsə, Azərbaycanla aparılan delimitasiya prosesinin dayandırılması və ya sazişlərdən imtina edilməsi ehtimalı yüksəkdir. Bu isə rəsmi Bakının öz təhlükəsizliyini təmin etmək üçün adekvat addımlar atmasına zəmin yarada bilər.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Türkiyə və Şimali Kipr parlament nümayəndə heyətləri Fəxri xiyabanı, Zəfər parkını və "Türk şəhidliyi"ni ziyarət ediblər





**Azərbaycanda səfərdə olan Türkiyə Cümhuriyyəti və Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərinin Azərbaycanla dostluq qruplarının üzvləri aprelin 10-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüblər.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində nümayəndə heyətləri Bakıda Zəfər parkını ziyarət edərək Zəfər abidəsi önünə əklil qoyublar. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə məlumat verilib.

Sonra nümayəndə heyətləri 1918-ci ildə Bakının azad edilməsi uğrunda döyüşlərdə həlak olmuş qəhrəman türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsini ziyarət ediblər. Abidənin önünə gül dəstələri qoyulub.

Ziyarət zamanı nümayəndə heyətlərini Milli Məclisin Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, Şimali Kiprlə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev, deputat Anar Məmmədov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Baş prokuror paytaxtın Nizami rayonunda vətəndaşların müraciətlərini dinləyib

**Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, aprelin 10-da baş prokuror Kamran Əliyev Bakı şəhəri Nizami Rayon Prokurorluğunun inzibati binasında Nizami rayonundan olan vətəndaşların müraciətlərini dinləyib.

Həmin gün 26 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

# Konstitusiya Məhkəməsi Plenumunun iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında qərar qəbul edilib

**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**



Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, məhkəmə iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin tələbləri baxımından Azərbaycan Respublikası Vergi Məcəlləsinin 23.1.15-3-cü və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 355-5.1-ci maddələrində nəzərdə tutulan "hüquqi şəxsin icra orqanının rəhbəri" anlayışının şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim O.Qvaladzenin məruzəsini, maraqlı subyektlər - Bakı Apellyasiya Məhkəməsinin müraciətini və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmə, Vəkillər Kollegiyası, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən təqdim edilmiş mütəxəssis mülahizələrini, ekspert - Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki proses və kommersiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru A.Mirzəyevanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin tələblərinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu qərarının təsviri - əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən, Azərbaycan Respublikası Vergi Məcəlləsinin 23.1.15-3-cü və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 355-5.1-ci maddələrində nəzərdə tutulan "hüquqi şəxsin icra orqanının rəhbəri" anlayışı xarici hüquqi şəxsin filial və ya nümayəndəliyinin rəhbərini də ehtiva edir.

Müvafiq məsələyə baxılarkən hüquq tətbiq edən orqanlar tərəfindən vergiödəyicisinin öz öhdəliklərinin icrasından yayınması ilə bağlı ilkin sübutlar araşdırılmalı, alternativ tədbirlərin tətbiqinin mümkünlüyü və tətbiq edilən məhdudiyyətin gözlənilən nəticəyə mütənasibliyi qiymətləndirilməli, belə tədbirin tətbiqi şəxsin hüquqlarının lüzumsuz məhdudlaşdırılmasına gətirib çıxarmamalıdır.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# Azərbaycan və Almaniya XİN-ləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib

**Aprelin 10-da Bakıda Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, Almaniya nümayəndə heyətinə isə Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələri üzrə müvəkkili Niklas Vaqner rəhbərlik ediblər.

Məsləhətləşmələr çərçivəsində ikitərəfli əməkdaşlıq məsələləri üzrə siyasi əlaqələrin cari vəziyyəti nəzərdən keçirilib, davamlı siyasi dialoqun saxlanılması baxımından qarşılıqlı səfərlərin və beynəlxalq tədbirlər çərçivəsində görüşlərin əhəmiyyəti vurğulanıb. Bununla yanaşı, iqtisadi, enerji, nəqliyyat və humanitar sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən strateji enerji və nəqliyyat layihələri barədə məlumat təqdim edilib. Həmçinin müqavilə-hüquq bazasının genişləndirilməsi istiqamətində mövcud planlar ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər beynəlxalq platformalarda qarşılıqlı fəaliyyət, eləcə də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın inkişafı və namizədliklərin qarşılıqlı dəstəklənməsi məsələlərinə diqqət yönəldiblər.

Məsləhətləşmələr zamanı regionda mövcud vəziyyət, Azərbaycan-Ermənistan normallaşma prosesi və davamlı sülhün təmin olunması istiqamətində atılan addımlar, işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa, yenidənqurma və minatəmizləmə işləri barədə ətraflı məlumat verilib.

Bununla yanaşı, qarşılıqlı maraq kəsb edən beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Azərbaycan qlobal logistika sistemində strateji mövqeyini möhkəmləndirir

**Rusiya-Ukrayna müharibəsi və Yaxın Şərqdə mövcud gərginlik fonunda qlobal logistika xəritəsi sürətlə dəyişir, ənənəvi marşrutların məhdudlaşması isə yeni və daha təhlükəsiz alternativlərə tələbatı artırır. Bu şəraitdə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu - Orta dəhliz qısa müddətdə diqqət mərkəzinə düşərək Avropa ilə Asiya arasında strateji əlaqələndirici xəttə çevrilməkdədir. Azərbaycanın bu marşrutda mərkəzi rol oynaması isə onu təkcə tranzit ölkə deyil, həm də regional sabitlik və əməkdaşlıq üçün açar aktora çevirir. Mövcud geosiyasi və geoiqtisadi reallıqlar fonunda ölkənin həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətlərində balanslı siyasəti yeni iqtisadi imkanlarla yanaşı, qlobal tərəfdaşlıq perspektivlərini də genişləndirir. Bu proseslərin fonunda Orta dəhlizin davamlılığı, quru marşrutlarının üstünlükləri və Azərbaycanın artan strateji rolu xüsusi aktuallıq kəsb edir.**






ABŞ-də fəaliyyət göstərən enerji strateqi, **Corc Mason Universitetinin tədqiqatçısı Umud Şokri** AZƏRTAC-a açıqlamasında bildirib ki, geosiyasi gərginliklər fonunda Orta dəhlizin sürətlə ön plana çıxması Azərbaycanın həm siyasi, həm də iqtisadi mövqelərini əhəmiyyətli dərəcədə gücləndirib.

"Bu marşrut üzrə yük daşımaları son illərdə kəskin artıb. Yüklərin həcmi 2021-ci ildə təxminən 840 min ton olduğu halda, 2024-cü ildə bu göstərici 4,5 milyon tona çatıb. Eyni zamanda konteyner daşımalarında da son illərdə təxminən 260 faiz artım qeydə alınıb və bu artım 2025-ci ildə də davam edib", - deyə o qeyd edib.

U.Şokri hesab edir ki, Azərbaycan bu dəhlizdə müasir infrastrukturu ilə mərkəzi rol oynayır. Bakı limanı və Bakı-Tbilisi-Qars dəmir yolu xətti ölkənin Avropa, Mərkəzi Asiya və Çin arasında etibarlı logistika körpüsü kimi fəaliyyət göstərməsinə imkan yaradır. Bu isə həm tranzit gəlirlərini artırır, həm də iqtisadiyyatın şaxələndirilməsinə töhfə verir.

Onun fikrincə, Azərbaycanın artan rolu onun strateji əhəmiyyətini də yüksəldib: "Avropa İttifaqı, Türkiyə, Qazaxıstan və Çin kimi tərəfdaşlarla əməkdaşlıq genişlənir. Azərbaycan Avrasiya ticarətində neytral və etibarlı əlaqələndirici kimi çıxış edir. Lakin bu mövqenin uzunmüddətli olması üçün infrastruktur yatırımları davam etməli, liman imkanları kimi bəzi məhdudiyyətlər aradan qaldırılmalı və regionda sabitlik qorunmalıdır. Hazırda artım yüksək olsa da, bu dəhliz hələ də ənənəvi marşrutlarla müqayisədə daha az yük daşıyır və onun davamlı uğuru beynəlxalq əməkdaşlıqdan asılıdır".

U.Şokri qeyd edib ki, Yaxın Şərqdə baş verən gərginliklər fonunda dəniz marşrutlarının riskləri artdıqca, Azərbaycan üzərindən keçən quru dəhlizlərinin üstünlükləri daha aydın görünür. Dəniz yolları münaqişə, piratçılıq və strateji boğazlarda yaranan problemlər səbəbindən risk altındadır, bu da daşınma müddətini uzadır və xərcləri artırır.

"Quru marşrutları isə daha sürətlidir və adətən, 10-18 gün çəkir, halbuki dəniz yolu ilə bu müddət 45-60 günə qədər uzana bilər. Quru marşrutları daha sabit və proqnozlaşdırılabilən logistika imkanı yaradır. Baxmayaraq ki, dəmir yolu və Xəzər dənizi üzərindən multimodal daşımalar bəzən hava şəraiti kimi amillərdən təsirlənə bilər, ümumilikdə bu marşrut yüksəkdəyərli və vaxt baxımından həssas yüklər üçün daha etibarlı seçimdir. Ekoloji baxımdan bu marşrutların üstünlükləri var. Dəmir yolu daşımaları uzunməsafəli dəniz nəqliyyatı ilə müqayisədə daha az emissiya yaradır və yanacaq, sığorta xərclərində dəyişkənliyə daha az məruz qalır. Bu isə şirkətlər üçün daha dayanıqlı və ekoloji baxımdan məsuliyyətli təchizat zəncirləri qurmağa imkan verir".

Ekspert qeyd edib ki, Azərbaycanın Şərq-Qərb Orta dəhlizi ilə Şimal-Cənub nəqliyyat şəbəkəsinin kəsişməsində yerləşməsi regional əməkdaşlıq üçün yeni imkanlar yaradır. Müxtəlif regionlardan tərəfdaşları bir araya gətirməklə Azərbaycan əvvəllər ayrı olan iqtisadi məkanlar arasında körpü rolunu oynaya və şaxələndirilmiş təchizat zəncirlərini dəstəkləyə bilər.



AZƏRTAC-a danışan **türk siyasi şərhçi Umur Tuqay Yücel** də bu fikirdədir ki, Yaxın Şərqdə artan risklər dəniz daşımalarını çətinləşdirdiyi halda, Trans-Xəzər marşrutu çərçivəsində Azərbaycan üzərindən keçən quru yolları bir sıra üstünlüklər təqdim edir.

"Bu marşrutlar münaqişə zonalarından və dar boğazlardan uzaq olduğu üçün daha təhlükəsiz və proqnozlaşdırılabiləndir. Eyni zamanda dəmir yolu və quru nəqliyyatına əsaslandığı üçün daşınma müddətləri daha sabitdir. Dəniz daşımalarında rast gəlinən gecikmələr, sığorta xərcləri və marşrut dəyişiklikləri bu dəhlizdə daha az müşahidə olunur. Azərbaycanın son illərdə liman, dəmir yolu və logistika infrastrukturlarına yatırdığı sərmayələr bu marşrutun dayanıqlılığını və fasiləsiz fəaliyyətini daha da gücləndirir. Azərbaycan həm Orta dəhliz, həm də Şimal-Cənub xəttinin kəsişməsində yerləşərək artıq, sadəcə, logistika körpüsü deyil, çoxşaxəli regional mərkəzə çevrilir", - deyə ekspert əlavə edib.

Beləliklə, mövcud reallıqlar göstərir ki, Orta dəhlizin sürətlə ön plana çıxması təsadüfi deyil, qlobal geosiyasi dəyişikliklərin məntiqi nəticəsidir və bu proses Azərbaycanın rolunu keyfiyyətcə yeni mərhələyə yüksəldir. Quru marşrutlarının aktuallaşması, alternativ nəqliyyat xətlərinə artan tələbat və çoxşaxəli əməkdaşlıq imkanları fonunda Azərbaycan artıq, sadəcə, tranzit ölkə deyil, regionlararası əlaqələri formalaşdıran strateji mərkəzə çevrilir. Bununla belə, bu mövqenin davamlılığı infrastrukturun inkişafı, koordinasiyanın gücləndirilməsi və balanslı xarici siyasətin qorunmasından birbaşa asılı olaraq qalır.

## *Sunniya Durrani-CAMAL:*

# "Regional inteqrasiya və enerji əlaqələri AİB-in əsas prioritetidir"

**Zəngəzur dəhlizinin maliyyələşdirilməsi perspektivləri nə dərəcədə realdır və bu layihənin iqtisadi əsaslandırılması hansı göstəricilərlə aparılmalıdır? Zəngəzur dəhlizi və Orta dəhlizin paralel inkişafı Azərbaycanın həm logistika, həm də enerji ixrac marşrutları baxımından rolunu necə dəyişə bilər və bu sinerjinin maksimumlaşdırılması üçün Asiya İnkişaf Bankı (AİB) hansı kompleks yanaşmanı təklif edir?**



Asiya İnkişaf Bankının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Sunniya Durrani-Camal AZƏRTAC-ın sualına cavab olaraq bildirib ki, regional və iqtisadi əməkdaşlığı, o cümlədən əlaqəni təşviq etmək AİB strategiyasının əsas istiqamətlərindən biridir.

"Məhz buna görə biz Asiya Regional İnteqrasiya Mərkəzi (ARİC) platformasını yaratdıq. Biz Zəngəzur dəhlizi və Orta dəhliz layihələrinin müsbət inkişafını müşahidə edirik. Hər zaman nəqliyyat və enerji əlaqələrinə böyük diqqət yetirmişik. Biz həmçinin regionun başqa bir mühüm enerji layihəsini - Trans-Xəzər Fiber-Optik Kabel Xətti layihəsini də dəstəkləyirik. Bu layihə uğurla icra olunsa, regionun enerji əlaqəsinə böyük töhfə verəcək", - deyə Sunniya Durrani-Camal qeyd edib.

Bundan əlavə, AİB-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri bankın nəqliyyat, o cümlədən dəmir yolu marşrutlarına sərmayələr qoyduğunu deyib və bildirib ki, digər əsas istiqamət rəqəmsal əlaqədir. AİB bu istiqamətlər üzrə regional inteqrasiyaya töhfə verə bilər.

# Bakıda İranın Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin anım mərasimi keçirilib





**Aprelin 10-da İranın Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin həlak olmasının 40-cı günü ilə əlaqədar Bakıda anım mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev, hökumət və ictimaiyyət nümayəndələri, din xadimləri iştirak ediblər.

Mərasim əvvəlcə "Qurani-Kərim" tilavəti ilə başlayıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək, Seyid Əli Xamenei ilə bağlı xatirələrini bölüşüb, onun zəngin mənəvi irsindən və islam dünyasındakı rolundan danışıb. Şeyxülislam eyni zamanda dünyada baş verən münaqişə və fəlakətlərin aradan qalxmasını diləyib, bəşəriyyət üçün sülh, əmin-amanlıq və rifah arzularını ifadə edib.

İranın ölkəmizdəki səfiri Müctəba Dəmirçilu çıxışında Seyid Əli Xameneinin həyat yolu, dövlət və din sahələrindəki fəaliyyəti, həmçinin islam dünyasına verdiyi töhfələrdən bəhs edib. O, gərginliyin ilk günlərindən etibarən Azərbaycanın göstərdiyi həmrəyliyi, humanitar və mənəvi dəstəyi xüsusi vurğulayaraq, buna görə ölkəmizə minnətdarlığını bildirib.

Sonra çıxış edən din xadimləri dini dəyərlər və mənəvi irs barədə danışıblar. Mərhumun xatirəsi ehtiramla yad edilərək onun dini və ictimai fəaliyyəti yüksək qiymətləndirilib.

Qeyd edək ki, Ayətullah Seyid Əli Xameneinin həlak olmasının 40-cı günü ilə əlaqədar bu gün Naxçıvanda da anım mərasimi keçirilib.

Xatırladaq ki, İranın ali dini lideri Əli Xamenei fevralın 28-də həlak olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun vəfatı ilə əlaqədar İran Prezidenti Məsud Pezeşkiana başsağlığı məktubu ünvanlayıb, həmçinin Bakıda İran səfirliyini ziyarət edərək, xatirə kitabına ürək sözlərini yazıb.

# Naxçıvanda İranın Ali Rəhbərinin xatirəsi anılıb



**İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin həlak olmasının 40-cı günü ilə əlaqədar aprelin 10-da Naxçıvan şəhərində anım mərasimi keçirilib, ehsan süfrəsi açılıb.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, mərasimdə Naxçıvan Muxtar Respublikasının Baş naziri Cabbar Musayev, İranın Naxçıvandakı Baş konsulu Əziz Mənsuri, dövlət və hökumət nümayəndələri iştirak ediblər.

Baş nazir Cabbar Musayev İranın Ali Rəhbərinin ölümünün 40-cı günü münasibətilə başsağlığı verib.

Mərasimdə Azərbaycan-İran əlaqələrindən bəhs olunub. Qeyd edilib ki, Prezident İlham Əliyevin tapşırığı ilə müharibə dövründə İrana humanitar yardımlar göstərilib. Bu addım iki ölkə arasında dostluq və mehriban qonşuluq münasibətlərinin bariz nümunəsi kimi dəyərləndirilib.

# *MEDİA:* Regiondakı gərginlik fonunda sosial şəbəkələrdə qeyri-dəqiq informasiyaların yayılması məqsədli dezinformasiya xarakteri daşıyır

Son günlər bəzi sosial media platformalarında Azərbaycan ərazisindən Körfəz ölkələri istiqamətində guya raketlərin buraxılması ilə bağlı tamamilə əsassız və həqiqətə uyğun olmayan məlumatlar yayılmaqdadır.

Regionda mövcud olan gərginlik fonunda sosial şəbəkələrdə mənbəyi təsdiqlənməmiş, qeyri-dəqiq informasiyaların yayılması ictimai rəydə yanlış təsəvvürlərin formalaşdırılmasına xidmət edir və məqsədli dezinformasiya xarakteri daşıyır. Bu kimi cəhdləri qətiyyətlə pisləyirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyinin açıqlamasında bildirilib.

Açıqlamada həmçinin qeyd olunub: "Bu növ iddialar ya




qəsdən təxribat xarakteri daşıyır, ya da tamamilə məsuliyyətsiz və əsassız yanaşmanın nəticəsidir. Müasir texnoloji imkanlar şəraitində raket və ya digər uçuş vasitələrinin hansı istiqamətdən buraxıldığını müəyyən etmək çətin deyil.

Region və Körfəz ölkələri müasir radar və müşahidə sistemlərinə malikdir və bu sistemlər vasitəsilə obyektlərin mənşəyi və trayektoriyası aydın şəkildə müəyyən olunur.

Bildiririk ki, Azərbaycan Respublikası beynəlxalq hüququn prinsiplərinə, dövlətlərin suverenliyinə və regional sabitliyin qorunmasına daim sadiqdir. Bütün tərəfləri yalnız yoxlanılmış və etibarlı mənbələrə istinad etməyə, təsdiqlənməmiş məlumatların yayılmasından çəkinməyə çağırırıq.

Media subyektlərini və sosial şəbəkə istifadəçilərini informasiya yayımı zamanı yüksək peşəkarlıq və məsuliyyət nümayiş etdirməyə, yalnız rəsmi və etibarlı mənbələri əsas götürməyə, şübhəli və manipulyativ xarakterli məlumatların yayılmasına yol verməməyə səsləyirik".

# Azərbaycan nümayəndə heyəti II Afrika Şəhərsalma Forumunda iştirak edir

**Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) milli koordinatoru Anar Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Keniyanın paytaxtı Nayrobi şəhərində keçirilən İkinci Afrika Şəhərsalma Forumunda (AUF2) iştirak edir.**




AZƏRTAC xəbər verir ki, forum çərçivəsində Azərbaycan nümayəndə heyəti yüksəksəviyyəli sessiya və görüşlərə qatılır.

Tədbirin açılış mərasimində çıxışı zamanı komitə sədri Anar Quliyev bildirib ki, ölkəmiz əlçatan mənzil və dayanıqlı şəhər inkişafı məsələlərini qlobal gündəliyin əsas prioritetləri kimi qəbul edir və bu sahələrdə öz fəaliyyətini həm beynəlxalq əməkdaşlıq, həm də milli təcrübə əsasında ardıcıl şəkildə davam etdirir. Bu kontekstdə cari il mayın 17-22-də Bakıda keçiriləcək WUF13-ün qlobal dialoqun davam etdirilməsi baxımından mühüm platforma olacağı bir daha beynəlxalq auditoriyanın diqqətinə çatdırılıb.

Forum çərçivəsində həmçinin "Mənzil və şəhər inkişafı üçün innovativ maliyyələşmə: dövlət-özəl tərəfdaşlığı" mövzusunda keçirilən Nazirlər Sessiyasına qatılan Anar Quliyev "Hər kəs üçün münasib mənzil" qətnaməsi üzrə Hökumətlərarası İşçi Qrupun həmsədri qismində Azərbaycan və Somali adından Birgə Bəyannamə ilə çıxış edib. Çıxış zamanı dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi, iqlim və qarışıq maliyyələşdirmə mexanizmlərinin inkişafı, eləcə də mənzil əlçatanlığını təmin edən dayanıqlı modellərin tətbiqinin əhəmiyyəti vurğulanıb.

"Layiqli mənzil üzrə açıq tərkibli İşçi Qrup"un yan tədbirində çıxış edən Azərbaycanın Keniya səfiri, BMT-nin Nayrobi şəhərindəki daimi nümayəndəsi Sultan Hacıyev isə Azərbaycanın şəhər gündəliyi və iqlim siyasəti sahəsində yanaşmalarını diqqətə çatdırıb. O deyib ki, COP29-a evsahibliyi etmiş Azərbaycan mövcud tərəfdaşlıqlardan yararlanmaqla yanaşı, iqlim dəyişikliyi ilə mübarizədə yeni əməkdaşlıq imkanlarını da genişləndirir və bu istiqamət WUF13 çərçivəsində əsas prioritetlərdən biri olacaq.

Tədbirdə ikitərəfli əməkdaşlığın inkişafı da diqqət mərkəzindədir. Bu çərçivədə komitə sədri tərəfindən artıq Afrika ölkələrinin və regional təşkilatların rəhbərləri ilə bir sıra məhsuldar görüşlər keçirilib. Afrika İttifaqının komissarı Moses Vilakati, Keniyanın torpaq, ictimai işlər, mənzil və şəhərsalma naziri Elis Vahome, Zimbabvenin yerli idarəetmə və ictimai işlər naziri Daniel Garve, Tanzaniyanın torpaq, mənzil və insan məskənlərinin inkişafı naziri Leonard Douglas Akvilapo, Somalinin ictimai işlər, yenidənqurma və mənzil təminatı naziri Said Mohamed M.Haid, Ruandanın infrastruktur naziri Jean de Dieu Uvihanganye, Kamerunun mənzil və şəhərsalma naziri Celestine Ketcha Courtes, Efiopiyanın şəhər və infrastrukturun inkişafı naziri Chaltu Sani, Tanzaniyanın Dar əs Salam Şəhər Şurasının meri Nurdin Bilal Juma, Nayrobi şəhər dairəsinin qubernatoru Johnson Sakaja, Keniyanın Mənzil, Şəhər Planlaşdırılması və İctimai İşlər Komitəsinin sədr müavini Rindikiri Mugambi Murvithania, "Shelter Afrique" Beynəlxalq Maliyyə Təşkilatının icraçı direktoru Thierno-Habib Hann, "Equity Bank" (Kenya) Məhdud Məsuliyyətli Cəmiyyətinin icraçı direktoru Moses Nyabanda və digər nümayəndələrlə keçirilən görüşlərdə Azərbaycan ilə Afrika ölkələri arasında əməkdaşlığın müsbət inkişaf dinamikası qeyd olunub, dayanıqlı şəhər inkişafı, mənzil siyasəti və müvafiq institutlar arasında əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində eyni zamanda Anar Quliyevlə BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax arasında növbəti işgüzar görüş keçirilib və tərəflər Bakı şəhərində keçiriləcək WUF13-ə hazırlıq məsələlərini müzakirə ediblər. Bildirilib ki, artıq 16 mindən çox iştirakçının qeydiyyatdan keçməsi tədbirə yüksək beynəlxalq marağın əyani göstəricisidir.

Beləliklə, qeyd etmək olar ki, İkinci Afrika Şəhərsalma Forumunda Azərbaycan nümayəndə heyətinin iştirakı gələn ay paytaxtımızda keçiriləcək WUF13-ə beynəlxalq tərəfdaşların cəlb edilməsinə möhkəm zəmin yaradır.

Qeyd edək ki, Afrika Şəhərsalma Forumu dayanıqlı şəhərlərin gələcəyini formalaşdıran liderləri və mütəxəssisləri bir araya gətirən şəhər inkişafı və urbanizasiya ilə bağlı mühüm qitə platformalarından biridir. Forum Afrika ölkələrində sürətli şəhərsalma prosesini daha planlı, inklüziv və davamlı şəkildə idarə etmək üçün Afrika İttifaqı (African Union) ilə BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) təşəbbüsü ilə yaradılıb və Afrika qitəsi üçün vahid şəhər gündəliyinin formalaşdırılması məqsədini daşıyır. Onun başlıca hədəfləri Afrikada davamlı şəhərsalma siyasətini inkişaf etdirmək, əlçatan və adekvat mənzil imkanlarını genişləndirmək, şəhərlərdə iqtisadi inkişaf və məşğulluğu təşviq etmək, iqlim dəyişikliyi və ekoloji problemlərə uyğun şəhər modelləri yaratmaq və şəhər idarəçiliyində inklüzivlik və bərabərliyi artırmaqdır. AUF-un ümumi məqsədi isə Afrikanın şəhərlərini daha dayanıqlı və iqtisadi cəhətdən güclü mərkəzlərə çevirməkdir.

AUF qlobal səviyyədə keçirilən Ümumdünya Şəhərsalma Forumunun (WUF) regional ekvivalenti kimi düşünülüb. Qeyd edək ki, Birinci Afrika Şəhərsalma Forumuna 2024-cü ildə Efiopiyanın paytaxtı Əddis-Əbəbə evsahibliyi edib.

Həmçinin 10 mindən artıq iştirakçının qatıldığı builki forumun açılışında Keniya Prezidenti Uilyam Samoei Rutonun, eləcə də bir çox hökumət və beynəlxalq qurumların rəhbər şəxslərinin iştirakı tədbirdə müzakirə edilən məsələlərin aktuallığının və diqqət mərkəzində olduğunun vacib göstəricisidir.

# Bütün gözlər İslamabada dikilib

**İranda müharibəyə son qoymaq üçün danışıqların bu gün İslamabadda keçirilməsi planlaşdırılır. Lakin ABŞ tərəfindən elan edilən atəşkəs rejiminə cəmi bir neçə saat qalmış, bu, kifayət qədər şərti görünür: cümə gecəsi İsrail Livana hücumlarını davam etdirib və Donald Tramp Hörmüz boğazının faktiki olaraq bağlanması səbəbindən İranı müvəqqəti atəşkəsi pozmaqda suçlayıb.**



ABŞ Prezidenti sosial media platforması Trith Social-da yazıb: "İran Hörmüz boğazından neftin maneəsiz keçməsini təmin etmək üçün son dərəcə zəif iş görür. Bu, əldə etdiyimiz razılaşma ilə ziddiyyət təşkil edir!" D.Tramp həmçinin iddia edib ki, onun məlumatına görə, İran tankerlərin Hörmüz boğazından müəyyən ödəniş əvəzində keçməsinə icazə verir. ABŞ lideri əlavə edib ki, "bunu etməmələri daha yaxşıdır, əgər etsələr, dərhal dayandırmaları daha yaxşıdır!" Başqa bir paylaşımda o, "çox tezliklə İranın köməyi ilə və ya o olmadan neftin axmağa başladığını görəcəksiniz" vədini verib, lakin bunun necə baş verəcəyini izah etməyib.

Tehranın Hörmüz boğazında gəmilərin keçidinə icazə verməsi D.Tramp tərəfindən elan edilən müvəqqəti atəşkəsin ən vacib şərtlərindən biri hesab olunur və ABŞ ilə İsrailin fevralın 28-də İrana qarşı başladığı müharibədə atəşkəsə nail olmaq üçün şərtlər siyahısındakı 10 bənddən biridir.

ABŞ Prezidentinin açıqlamasından sonra Hörmüz boğazında gəmilərin hərəkəti məhdud şəkildə bərpa edilib. Reuters agentliyinin məlumatına görə, atəşkəsdən sonrakı ilk 24 saat ərzində boğazdan yalnız 1 neft tankeri və 5 yük gəmisi keçib. Yaxın Şərqdə atəşkəs elan edildiyi çərşənbə axşamından bəri ümumilikdə Hörmüz boğazından 18 gəmi keçib. Bu, qlobal neft hasilatının 20 faizinin (gündə təxminən 140 tankerin) keçdiyi regionun ən vacib gəmiçilik arteriyalarından biri üçün olduqca kiçik rəqəmdir.

Tehran Hörmüz boğazının blokadasının davam etməsinin səbəbi kimi İsrailin qonşu Livanı - İran tərəfindən dəstəklənən və onun tərəfdarı hesab edilən Hizbullahın hədəflərini atəşə tutmasını göstərib. Dünən səhər İsrail ordusu 10 raket atışı qurğusunu vurduğunu bildirib. Cümə axşamı həmin qurğulardan İsrailin şimalına raketlər atılıb. Bundan əlavə, İsrail Müdafiə Qüvvələri Hizbullahın İsrailə raket atdığını və "Times of Israel" qəzetinin məlumatına görə, raketin tutulduğunu bildirib. Qəzetin Reuters-ə istinadən verdiyi məlumata görə, Hizbullah şimali Hayfa şəhərindəki İsrail hərbi infrastrukturunu hədəf aldığını iddia edib.

ABŞ-nin atəşkəs elan etməsindən sonra İsrail və Hizbullah arasında zərbələr mübadiləsi daha da güclənib və ilk 24 saat ərzində İsrail Livan ərazisinə ən böyük hava zərbələrindən birini endirib. Hədəf Hizbullahın mövqeləri və obyektləri olub. Livan hakimiyyətinin məlumatına görə, İsrail hücumları zamanı 300-dən çox insan ölüb və cümə axşamı ölkədə matəm günü elan edilib.

Cümə günü davam edən zərbələr İsrailin Baş naziri Binyamin Netanyahunun Livan hakimiyyəti ilə birbaşa danışıqlara başladığını elan etməsi ilə eyni vaxta təsadüf edib. Netanyahu "Livandan birbaşa danışıqlara başlamaq üçün təkrarlanan xahişləri" qeyd edərək əsas diqqətlərinin Hizbullahın tərk-silah edilməsi və İsrail ilə Livan arasında dinc münasibətlərin qurulmasına yönələcəyini açıqlayıb.

Öz növbəsində Donald Tramp da İsrailin yaxın günlərdə Livana hücumlarının "intensivliyini azaldacağına" söz verib. "Mən Bibi (Netanyahu - red.) ilə danışdım və o, daha təmkinli davranacaq. Sadəcə düşünürəm ki, bir az daha təmkinli davranmalıyıq", - deyə Tramp İsrail Baş naziri ilə telefon danışığından sonra NBC News-a bildirib.

Öz növbəsində Livanın yüksəkvəzifəli rəsmisi Reuters-ə açıqlayıb ki, Beyrut İsraillə daha geniş danışıqlara yol açmaq üçün son 24 saat ərzində müvəqqəti atəşkəsə nail olmaq istəyib və onları ABŞ-İran atəşkəsi kimi "ayrı bir kanal, lakin eyni modeldə" xarakterizə edib. Hizbullahın sözçüsü Əli Fəyyad isə cümə axşamı qruplaşmanın İsraillə birbaşa danışıqları rədd etdiyini bildirib.

Bu arada israilli mənbə Reuters-ə bildirib ki, İsrail-Livan danışıqlarının gələn həftə Vaşinqtonda başlaması gözlənilir. Dövlət Departamentinin sözçüsü də gələn həftə "davam edən atəşkəs danışıqlarını müzakirə etmək" üçün görüş keçirəcəyini təsdiqləyib.

Lakin daha geniş kontekstdə İsrailin Livan ərazisini atəşə tutmağa davam etməsi ABŞ, İsrail və İran arasında potensial atəşkəsin şərtləri ilə bağlı fikir ayrılığının nəticəsidir və bunun aprelin 11-də İslamabadda keçiriləcək danışıqlarda müzakirə edilməsi planlaşdırılır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## Yanacaq çatışmazlığı Avropada turizm mövsümünə ciddi təsir göstərə bilər

**Avropa hava limanları İran ətrafındakı gərginlik və əsas təchizat marşrutu olan Hörmüz boğazının bağlanması səbəbindən aviasiya yanacağı çatışmazlığı ilə üzləşə bilər.**

AZƏRTAC xəbər verir ki, "ACI Europe" Hava Limanları Assosiasiyasına görə, yanacaq ehtiyatları sürətlə tükənir və vəziyyət üç həftə ərzində normallaşmasa, bu, hava nəqliyyatına və iqtisadiyyata ciddi təsir göstərə bilər.

Problem hərbi təyyarələrin yanacaq istehlakının artması ilə daha da ağırlaşır. Eyni zamanda yanacaq qiymətləri kəskin şəkildə artıb və Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının qiymətləndirmələrinə görə, ötən illə müqayisədə təxminən iki dəfə artıb.

Aviaşirkətlər artıq nəticələri hiss edir. Uçuşlar ləğv edilir və bilet qiymətləri artır. Belə ki, SAS Skandinaviya aviaşirkəti təxminən min reysin ləğv olunduğunu açıqlayıb.

Ekspertlər xəbərdarlıq edirlər ki, Avropaya tədarük edilən aviasiya yanacağının yarısı Körfəz ölkələrindən gəlir və əsasən dəniz yolu ilə Hörmüz boğazından daşınır, buna görə də gələcək fasilələr turizm mövsümünə və regionda iqtisadi vəziyyətə ciddi təsir göstərə bilər.

Xatırladaq ki, ABŞ və İran ikihəftəlik atəşkəs barədə razılığa gəliblər, lakin Hörmüz boğazı hazırda bağlı qalır.

# Türk dünyası artıq qlobal nizamın formalaşdırıcı aktorudur

**Bakıda keçirilən türk dövlətlərinin son toplantısı sıradan diplomatik görüş olmaqdan daha çox, dəyişən qlobal güc balansında türk dünyasının artan rolunu nümayiş etdirən mühüm siyasi hadisə kimi qiymətləndirilməlidir.**

Bunu AZƏRTAC-a açıqlaması zamanı türkiyəli siyasi ekspert Kadir Uğur Yılmaz bildirib.

Onun sözlərinə görə, uzun illər boyunca beynəlxalq sistemdə türk coğrafiyası ya nəzərdən kənarda saxlanılıb, ya da ikinci dərəcəli faktor kimi qəbul edilib.

"Qərb dünyası enerji və ticarət marşrutlarını planlaşdırarkən bu geniş coğrafiyanı çox zaman alternativsiz hesab etməyib. Lakin bu yanaşma artıq öz aktuallığını itirməkdədir. Yaxın Şərqdə baş verən proseslər göstərir ki, xarici müdaxilələr və süni siyasi konstruksiyalar uzunmüddətli sabitlik yaratmaq əvəzinə, əksinə, dərin böhranlara yol açıb. Bu reallıq fonunda enerji təhlükəsizliyi və dayanıqlı nəqliyyat marşrutlarının əhəmiyyəti daha da artıb. Məhz bu məqamda türk dünyasının geosiyasi mövqeyi ön plana çıxır. Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP layihəsi, Orta dəhliz və Zəngəzur istiqamətində formalaşan yeni nəqliyyat xətləri artıq regional təşəbbüs çərçivəsindən çıxaraq qlobal iqtisadi sistemin alternativ damarlarına çevrilməkdədir", - deyə Kadir Uğur Yılmaz vurğulayıb.

Türkiyəli ekspert əlavə edib ki, Bakı toplantısında bu layihələrin genişləndirilməsi və türk dövlətləri arasında iqtisadi, enerji və logistika sahələrində inteqrasiyanın gücləndirilməsi istiqamətində atılan addımlar türk dünyasının strateji birlik kimi formalaşdığını açıq şəkildə göstərir.

Bu prosesdə Azərbaycan və Türkiyə aparıcı rol oynayır. Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıqlar regionda əməkdaşlıq imkanlarını daha da genişləndirib. Bu gün Ankara və Bakı yalnız qardaş ölkələr deyil, həm də ortaq geosiyasi baxışa malik iki strateji mərkəz kimi çıxış edir.

"Bununla yanaşı, türk dövlətləri arasında siyasi koordinasiyanın güclənməsi beynəlxalq münasibətlər sistemində yeni bir blokun formalaşdığını göstərir. Bu əməkdaşlıq modeli qarşılıqlı maraqların qorunmasına əsaslanır və regional sabitliyə töhfə verir. Dünya artıq çoxqütblü sistemə doğru irəliləyir. ABŞ-nin qlobal dominantlığı nisbi şəkildə zəifləyir, Çin yüksələn iqtisadi güc kimi mövqeyini möhkəmləndirir, Rusiya isə geosiyasi təsir imkanlarını qoruyur. Avropa isə enerji təhlükəsizliyi və iqtisadi çətinliklərlə üz-üzədir. Belə bir mürəkkəb beynəlxalq şəraitdə türk dünyası balanslaşdırıcı və sabitləşdirici güc kimi çıxış etmək potensialına malikdir. Enerji marşrutları, ticarət yolları və coğrafi mövqe bu üstünlüyü daha da gücləndirir", - deyə o vurğulayıb.

Kadir Uğur Yılmaz əlavə edib ki, Bakıda verilən mesaj aydındır: "Türk dünyası artıq qlobal proseslərin passiv izləyicisi deyil. O, yeni beynəlxalq nizamın formalaşmasında aktiv iştirak edən və təşəbbüs irəli sürən güc mərkəzlərindən birinə çevrilməkdədir. Bu baxımdan, türk dünyasının gələcəkdə daha inteqrasiya olunmuş struktur kimi çıxış etməsi ehtimalı da istisna edilmir. Bu isə qlobal sabitlik və əməkdaşlıq baxımından yeni imkanlar vəd edir".

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 26 iyun (Cümə axşamı günü) tarixli 212-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Pəncşənbə, 27 ramazanül-mübarək sənə 1337. 26 haziran 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

1919[-cu il] həziranın [iyunun] 28[-i] cümə günü saat 11-də Azərbaycan Məclisi-Məbusanının növbədənxaric iclası olacağı elan olunur.

*T-157*

## BAKI TİCARƏT VƏ SƏNAYE İTTİFAQI

Düyü, səbzə, pambıq və neft istehsalatı [neft məhsulları], ticarət və qeyriləri ilə maraqlananları cümə günü həziran ayının 27-sində axşam saat 5-də Birjanın salonunda (Qorçakovski, nömrə 1) vaqe olacaq iclasa dəvət edir. Ticarət, Sənaye və Ərzaq nazirinin binagüzarlığına binaən [sərəncamına əsasən] həll ediləcək məsələlər:

1) Kuban ilə mal dəyişilməsi barəsində;

2) Padşahlıq [dövlət] pullarının kursu artması barəsində.

*T-156*

## "SƏDDİ-İSKƏNDƏR"

Avropa mətbuatının bizə çatan ala-yarımçıq xəbərlərindən bizə, bizim istiqlalımıza, bizim müqəddəratımıza aid yazılarını böyük bir maraqla arayıb oxuyuruq. Oxuyub da məyus və mükəddər olmaq [kədərlənmək] məcburiyyəti hiss edib fikirlərə düşürük.

O mətbuat, baxüsus [xüsusən] Fransa mətbuatının bizim haqqımızdakı fikiri bizim Afrika vəhşiləri barəsində qərarlaşmış fikirimizin eynidir. O mətbuatın fikirincə Qafqazda iki qisim millət vardır ki, onlardan birisi məzlum, digəri zalımdır. Zalım, əlbəttə biz imişik, özümüz də vəhşi, yırtıcı, mədəniyyət düşməni, ürfan müxasimi [düşməni] zalımlardan imişik. Bizim heç bir məziyyətimiz, heç bir fəzilətimiz yox imiş. Məhz bir vəhşət və dəhşət mücəssəməsi imişik.

Haqqımızda olan böylə bir fahiş və haqsız nəzər, yevropalılarda nədən və nərədən hasil olmuşdur?

Bu nəzər, sənələrdən bəri əleyhimizdə çalışmaqda olan düşmənlərimizin səy və əməklərinin məhsul və nəticəsidir ki, bizimlə Avropa arasında, zənn edirsən ki, yıxılmaz, deşilməz, keçilməz bir "səddi-İskəndər" əmələ gətirib və bizi "yəcuc və məcuc" mənzələsində [yerində] qoymaqla əbədi bir zindana məhkum və açılmaz bir tilsimə salmışdır.

Əcəba, Avropaya göndərmiş olduğumuz mürəxxəslərimiz [nümayəndələrimiz] bu səddi yara biləcək və bu tilsimi aça biləcəkdirlərmi?

İştə, mühüm bir məsələ!

Düşmənlərimiz bu işdə də bir çox çalışmışdırlar. Azərbaycan mürəxxəsləri ehyanən [birdən] bunların yalan və iftira və böhtandan qurulma kələklərini açar qorxusu ilə mürəxxəslərimizin üzərinə olmazın böhtanlar atmaqla onları da Avropa nəzərində ləkələndirmişdirlər. Bunun nəticəsi olacaqdır ki, fransız qəzetələrindən ən nəzdikbinləri [dar görüşlüləri] mürəxxəslərimizin Parisə vürudunu [gəlişini] bir taqım nalayiq sözlərlə "təbrik" edib öz münasibətlərini bildirmişdirlər.

Bunun üçündür ki, Parisdəki mürəxxəslərimizin vəzifəsi dedikcə ağır və müşküldür. Bir tərəfdən öz böhtanlanmış adlarını təbriə etdirmək [təmizə çıxarmaq], digər tərəfdən düşmənlərin tilsimini qırıb həqiqəti meydana çıxarmaq nə qədər məharət və ustadlıq istər.

Qəzetəmizin dünənki nömrəsindəki xəbər ki, mürəxxəslərimiz "Dördlər" tərəfindən hüzura qəbul edilmişdirlər, bizə bir taqım ümidlər verir və bunu təbşir edir [müjdələyir] ki, Avropada dəllallıq edən və özünü pula satan məsləksiz mətbuat olmaqla bərabər, doğruluq sevən adamlar, cəmiyyətlər və işin ciddiyyətini nəzərə alıb da hər tərəfin sözünü və şikayətini dinləməklə, birgözlü və birqulaqlı olmaq istəməyənlər dəxi vardır. Binaənileyh [ona görə], düşmənlərimizin "səddi-İskəndər"i əslində saxta bir sədd, tilsimləri aldatma bir tilsim olduğundan, hümmət və həmmiyyətimiz sayəsində bu səddi uçurmaq və bu tilsimi açmaq imkanına ümidimiz çoxdur.

Əgər bu işə müvəffəq olarsaq, avropalıların gözləri açılıb da baxıb görərlər ki, sədd arxasında olanlar zənnibatillərinin əksinə olaraq yəcuc-məcuc deyil, bəlkə özləri kimi adi insanlardır ki, nə zalımdırlar, nə mədəniyyət düşmənidirlər, nə ürfan ədüvvləridirlər [düşmənləridirlər], biləks [əksinə], alicənab, mərhəmətli, insaflı, tərəqqi və təkamülə mail bir qövmdür ki, müxalif tərəfin təsvir və tərif etdiyinə heç də oxşayışları yoxdur.

O halda işlər açılar və ikigözlü Avropa öz zəlalətini də [yanlış yolda olduğunu da] anlar, düşmənlərimizin deyil yalnız bizə qarşı, bəlkə bütün insaniyyətə, ümum aləmibəşəriyyətə qarşı xəyanətlər etmiş olduğunu dərk ilə xainlərə bizimlə bərabər lənətxan olar [lənət oxuyar].

*Hacıbəyli Üzeyir*

## İRAN – AZƏRBAYCAN

Bu mövzuda qəzetəmiz ilə Tehran mətbuatından möhtərəm "İran" qəzetəsi arasında bir münaqişə vaqe olduğunu qarelərimiz [oxucularımız] bilirlər. "İran" qəzetəsi Cümhuriyyətimizə "Azərbaycan" isimi vermək haqqında olmadığımızı, biz isə bunun əksini isbat edirdik. "İran" qəzetəsinin tərəfindən yazılan son məqaləsinə cavab yazmaq üzrə ikən posta məzkur [adı çəkilən] qəzetənin 454-cü nömrəsini gətirdi. Bu nömrədə "Qəzavət tarixi" ünvanı ilə "İsmayıl Əfşar Tarəmi Azərbaycani" imzası ilə müfəssəl bir məqalə nəşr edir. "Elmi-intiqad və azadiyi-mətbuat" [tənqid elmi və mətbuat azadlığı] naminə dərci təqaza olunan [lazım görülən] bu məqalə Bakı ilə Tehran arasında olan mübahisəyə iştirak edərək, kəndisi iranlı ikən haqqın biz tərəfdə olduğunu tarixi və elmi bir surətdə isbat edir. Bu müfəssəl məqaləni tərcümə ilə aşağıya dərc ediriz.

İştə "İran" qəzetəsində mündəric [dərc olunan] məqalənin eynən tərcüməsi:

439 və 440 nömrələrinizdə ədibi-maarifpərvər M. Ə. Rəsulzadə əfəndinin qələmi ilə yazılmış Azərbaycan haqqında bir məqalə dərc edilmişdir. "İran" qəzetəsi dəxi haman məqalənin zeylində [haşiyəsində] bəzi mətləbləri tənqid eyləmişdi. Bu münaqişəyə mən də iştirak etmək istədim. Fəqət bu iştirakımla mən Azərbaycan hökumətinin İran üzərində siyasi təsiratından sərf-nəzər yalnız bir həqiqəti-tarixiyyənin kəşfi üçün səy edəcəyəm. Çünki məşhur müvərrixlərdən [tarixçilərdən] Füstel de Kulanj der ki, tarixi ehsasati-vətəniyyə [vətən duyğuları] ilə qarışdırmaq hər zaman möhlikdir [təhlükəlidir]. Onlardan birisi elm, digəri isə fəzilətdir.

Şərq və qərb müvərrixləri ilə coğrafiyyunlarının rəylərinə görə Azərbaycan Zaqafqaziyanın qismişərqisindən, İrəvan, Naxçıvan və bütün İran Azərbaycanı, bütün Xəmsə vilayətləri, Tarəm, Təvaliş-Gilan həvalisindən bir qismi ilə Həmədan və Qəzvindən ibarət olmuşdur. Rzaqulu xan Lələbaşı ki, Rus-İran müharibəsinin müasirlərindəndir, "Rövzətüs-səfa"nın 10-cu cildində deyir ki, Azərbaycan keçmiş zamanlarda Bakı bəndərindən [limanından] Xalxala qədər tulən [uzunluq dairəsi boyunca] 95 fərsəng və Macərvan qəsəbəsindən cəbəli-Sinaya [Sina dağına] qədər ərzən [en dairəsi boyunca] 55 fərsəng bir məsahədə [ərazidə] vaqe olmuşdur. Eyni məzmunda təfsilat "Bustanüs-səyahət" ilə digər əsərlərdə dəxi məzkur [qeyd edilir] ki, mətləb uzanmasın deyə zikrindən sərf-nəzər ediriz.* Bu həqiqəti-tarixiyyə kəşf olunarsa, "İran" qəzetəsinin, vətənlərinin əski nami-müqəddəsini [müqəddəs adını] ehya etmələri [diriltmələri] üçün azərbaycanlıları haqlı görəcəyini ümid edirəm.

Əxlaq, adat [adətlər] və dil barəsində də dəxi bir taqım şeylər zikr edilmişdi. Bunun doğru olduğunu dəxi isbata lüzum yoxdur. Zira Qəzvindən birisi qalxıb da Qubaya müsafirət eyləsə [səfərə getsə], yalnız əxlaq, adat və dil birliyində deyil, şivə və ləhcənin dəxi eynilə bir olduğunu görər. Bu gün bir tehranlı ilə bir şəmiranlı ləhcələri arasında fərq vardır. Mazandaranlı ilə dəmavəndlinin şivələrindəki fərq isə daha bəllidir. Bu böylə ikən, aya [görəsən], azərbaycanlıların bir cinsdən və bir irqdən olmadıqlarını iddia etmək qabilmidir?

Şimdi görəlim Amerika və İngiltərənin bitərəf üləması [alimləri] bu xüsusda nə deyirlər.

Professor Nikerld Krayblis deyir ki: 1907-ci ildə Amerika asari-ətiqə [arxeologiya, qədim əsərlər] mütəxəssislərindən bir heyət Azərbaycanı tədqiq üçün getmiş idi. Bu heyət kəndi məruzəsində deyir ki:

"Türküstan ilə Kürdüstan arasında Azərbaycan mahallarında çini və zürufat [qabqacaq] kimi qədim türk asari-ətiqəsinə təsadüf edildi. Hətta bəzi sikkə və kətəbələr [kitabələr] üzərində uyğurca yazılar vardı." (Uyğur əski Azərbaycan hökumətinin rəsmi lisanı olmuşdur.)

Eyni professor ingilis üləmasının əsərlərindən birisindən nəql edir ki:

"Turan haqqındakı tədqiqat getdikcə genişləyir, Asiyayi-Vüstanın [Orta Asiyanın] hər tərəfində bu millətin əsərlərinə təsadüf olunur. Burası bizcə mühəqqəqdir [şübhəsizdir] ki, İranın ətrafı türklərlə mühat olub [əhatələnib], qədim iranilərin (Aryəniqədim) ilk müharibəsi Azərbaycan türkləri ilə vaqe olmuşdur."

Məzkur [adı çəkilən] professor deyir ki, türklərin iranilərdən daha əvvəl Azərbaycanda sakin olduqları ədillə və bərahin [dəlillər və sübutlar] ilə sabitdir.

Professor Nikerld Krayblisin təlif eylədiyi [yazdığı] "Məsələyi-Şərqiyyə" [Şərq məsələsi] nam kitabında (61-64-cü səhifələr) aryənlərin Azərbaycandakı arizi [sonradan gəlmə] və ani olduğu haqqında bir çox sübut və dəlillər vardır və Azərbaycan həmişə türklərin olmuşdur. Bunu tarix asanlıqla isbat edir.

Tarixi-qədimdən əldə mövcud olan nə varsa, yunanlılardan nəql olunmadır. (Tövrat ilə bəzi ortadan itmiş İran və Hind asarından [əsərlərindən] sərfnəzər.) Yunanlılar müfrit [ifrat] bir təəssübi-milliyyə bəslədiklərindən və Şərqi-qədim lisani-tarixiyyəsinin [tarixi dilinin] ədəmi-müsaidəsindən [oxunmağa əlverişli olmamasından] dolayı tarixi bir çox əfsanələr və yalanlarla doldurdular.

19-cu əsrə qədər tarixi-qədim haqqında yunan asarından başqa əldə bir vəsiqə yox idi. 19-cu əsrin tülusunda [doğuşunda] bir çox ingilis, firəng və alman üləmasının hümməti ilə keçmişin ölü dilləri həll olunaraq, bu vasitə ilə asari-qədimədən mövcud olmayan bir çox tarixi həqiqətlər açılmış oldu. Kətibələr [kitabələr] kəndisinə heç bir əl sürülmədən samit [dinməz] və sabit bir halda qədim dövrlərin sərgüzəştini bizə nəql edirlər.

Avropa üləması kəşf olunan bu kətibələr sayəsində bilmişlər ki, Kəldə və Assur dövlətlərinin təşkilindən əvvəl və aryanilərin qərbə doğru olan hərəkətlərindən daha müqəddəm [qabaq] Orta Asiyada digər millətlər sakin olmuşlardır. O millətlərin dilləri tədqiq olunduqda, türk cinsinə mənsub olduqları və bu günlər türklərilə həmcins olduqları aşkar olur.

Bu millətlərdən "Akkad-Sumer" denilən bir qismi Beynənnəhreyndə [İkiçayarasında], "Hett"lər Anadoluda, "Uradhu" lar Azərbaycanda mütəvvətin olmuşlar [özlərinə vətən tutmuşlar]. Kilikiya, Beynənnəhreyn və Azərbaycanda bir çox kətibələr bulunmuşdur ki, üləma onlardan bəzisini oxuya bilmişlərdir.

Bu kətibələrdən sabit olmuşdur ki, məzkur [deyilən] millətlər böyük bir mədəniyyətə malik olmuşlar. Vəqtən [vaxt baxımından] tarixi müəyyən olmayan bir zamanda övladi-Sam [Samın övladları], Cəzirətül-ərəbə [Ərəb yarımadasına] (Akkad-Sumerə) həmlə edib, onlarla ixtilat edərək [qaynayıb-qarışaraq] "Hammurapi-Akkad" mədəniyyətinin əsasını vəz etdilər [əsasını qoydular]. O zamanlarda ariya millətləri şərqdən hücum edərək nagəhani bir istila nəticəsində urardhu və hett millətləri ni məhv edərək ermənilər Azərbaycanda, frakiyalılar da Anadoluda sakin oldular.

Oksford Darülfününunun [Universitetinin] aliqədr professorlarından Says deyir ki:

"Turanilər bu böyük mədəniyyətin əsasını vəz etdilər. Məqsəd növi-bəşərin mədəniyyəti-əvvəliyyəsidir [ilk mədəniyyətidir] ki, əgər iranilər onu məhv etməsəydilər, bizə ondan böyük yadigarlar qalacaqdı. Fəqət İran istilası bu təməddünü [mədəniyyəti] məhv eylədi. İranilər ancaq kəndi məmləkətlərində bir əsəri-təməddün [mədəniyyət əsəri] göstərə bildilər. Yoxsa mütəvaliyən [ardıcıl] icra olunan hərblər nəticəsində müştərək bir Urardhu-İran mədəniyyətini vücuda gətirəmmədilər.*

Üləmanın bəzisinin əqidəsi bu mərkəzdədir ki, kürd, gürcü, talış urardhu nəslindəndirlər. Urardhu ləfzi ilə kürd ləfzi arasında şəbahəti-tammə [tam oxşarlıq] vardır. Bu millətlər kəndi istiqlaliyyətlərini qaib etdikdən sonra İran mədəniyyətinin qarşısında durammayıb məhv olmuşlar. Hettlər daima Azərbaycanı fəth eyləmək qəsdində olmuş, yeni təərrüzlərdə [hücumlarda] bulunmuşlar. Onlardan bir qismi Azərbaycana daxil olub İran din və əxlaqını qəbul eyləmişlərdir.

Bu mütaliədən məlum olur, Turan millətləri mütəməddin idilər və Avropanın məruf üləmasının [tanınmış alimlərinin] dediyinə görə, Babil mədəniyyəti Turan mədəniyyətinin bir surəti-mütəkamili [kamilləşmiş bir surəti] idi. Böylə ikən "İran" qəzetəsinin "bevasiteyi-vürudi-moğol" ["monqolların gəlişi vasitəsi ilə"] deyə yazması mövcibi-heyrətdir [təəccüb doğurur]. Görünür ki, qəzetə bu xüsusda Mətinüssəltənəyə nəzirə yapmışdır. Mərhum Mətinüssəltənə qeyrətinin şiddətindən xuddarlıq edəmməyib [özünü saxlaya bilməyib] "vəhşi türklər islamı məhv və nabud [yox] etdilər" deyə yazmışdı.

Halbuki münsiflər [insaf sahibləri] təsdiq edərlər ki, türk millətinin islama olan xidməti heç bir zaman unudulmaz. Türklərin Səlibiyyuna [Xaçlılara] qarşı müdafiəsi, Təbəristanı slavlardan təmizləmələri (6-cı əsr, "Kamil", cild 11 və 12), Batu[nun] bu xüsusdakı qəhrəmanlıqları – ki onun sayəsində slavlar birboyuna [özbaşına] 5 yüz sənə artıq hərəkət edəmməz oldular – İslam hüdudunun Kiyev, Varşo, Krakov, hətta Vyana hasarlarına qədər dayanması və səkkiz milyon hindlilərin müsəlman edilməsi – ki bu gün dəxi onlar[ın] müsəlman aləmi haqqındakı dad və fəryadlarının nə dərəcədə müəssir [təsirli] olduğunu görürüz – əcəba, bunlar türklərin xidməti deyilmidir? Oğuz, Tuman, Atilla, Çingiz, Teymur, Fateh, Səlim, Süleyman, Nadir, Ağa Məhəmməd xan kimi sərdarlar, Çingizin "Yasa"sı, Teymurun "Tüzük"ü kimi qanunlar, Süleyman Qanuninin əsəri əcəba unudularmı?

* * *

Ərəb istilasından sonra Azərbaycan: Ərəblərin istilası zamanında Azərbaycandakı türklər hettlərlə urardhu bəqasından [qalıqlarından] ibarət idilər. İran məzhəbi ilə adat [adətləri] və əxlaqı onlara nüfuz eyləmiş idi. Rəşid və Məmun zamanlarında iranilər xüləfa dərbarında [xəlifə sarayında] böyük nüfuz qazandılar. Bu nüfuz bir dərəcəyə qədər irəliləmişdi ki, əgər Mötəsim tədbir görməsə, bütün ərəb hökumətinin iranilərə intiqal etmək [keçmək] qorxusu vardı.

Türklərdən ibarət məxsus bir qoşun təşkil edərək bu vasitə ilə Mötəsim farsların nüfuzunu kəsr eyləmişdi [qırmışdı]. Fəqət ərəblər bundan müstəfid olammayaraq [istifadə edə bilməyərək], aralarına əvvəlkindən daha ziyadə bir ixtilal düşdü. Bir dərəcədə ki, türklər istəmədikləri xəlifəni əzl edir [taxtdan salır], yerinə istədiklərini nəsb eyləyirlərdi [taxta çıxarırdılar]. Buna görə də xüləfa məcbur oldular ki, türk qoşununu paytaxtdan uzaqlaşdırıb sərhədlərə göndərsinlər. Bunlardan bir qismini slav-qıpçaq qabağını saxlamağa göndərdilər. Bunlardan bir qismi Azərbaycanda qalaraq Cüstaniyan və sairə kimi Azərbaycan hökumətini təşkil etdilər.

O zamanlarda səlcuqilər Xorasandan gəlib Azərbaycanı tutdular. Azərbaycan bu sülaləyə intiqal eylədi. Səlcuqilərin intiqrazında [çöküşündə] səlcuq şiələrindən olan Atabəylər Azərbaycanda səltənət etdilər. "Əlfi" və "Kamil" tarixlərindən məlum olur ki, Atabəylər zamanında türk xanvadələrindən [ailələrindən] bir çoxu Türkistandan Azərbaycana gəlib burada sakin olmuşlardır. Qıpçaq səfərində bu müsəlman olmuş türklərdən bir çoxu ərəb ordusunda idi. Fəqət məlum idi ki, Azərbaycan düşmənləri bulunan ermənilərlə deyləmlilərə qarşı müqavimət edəməyəcəkdi. Bu sıralarda idi ki, Azərbaycan yarlığı Qaaniəzəm [Böyük Xaqan] tərəfindən Hülaküyə vagüzar olundu [tapşırıldı].

Hülakü müxtəlif türk qəbiləsindən 32-sini ayıraraq Bağdad ilə Azərbaycan səmtinə rəvanə qıldı [yola saldı]. Bütün Turanda zəfər təranələri çalındı. Car çəkildi ki, Pürcəkin xanvadəsinin ən şücaətli bir cavanı Qərbi Turanı mühafizə eyləməyə gedir. Elxani-əzəm Bağdaddan Azərbaycana gəldi. Türk qəbilələrindən ötrü qışlaq və yaylaqlar təyin eylədi. Bu günlər Azərbaycan milləti təşkilatının övci-əlaya [zirvəyə] yetişdiyi günlərdi. Elxan Marağada ikən dari-üqbaya rəhlət etdi [əbədiyyət evinə köçdü]. Nəvələri Qazan xan ilə Olcaytu Azərbaycan millətinin rüknünü [təməlini, dayağını] möhkəmlədərək onu dini-islamla qüvvətləndirdilər. Xacə Rəşidəddinin yazdığına görə, bir dəfə 200.000, digər dəfə 400.000 türk islama müşərrəf oldu.

Slavların (rusların), ermənilərin, gürcülərin, sonra da Cebe və Subutay nam cəngavərlərin istilası ilə hasil olan qətliamlar vasitəsilə Azərbaycanın farsları məhv olmuşlardı. O gündən bu günə qədər bir ovuc ermənidən savayı bütün Azərbaycan əhalisi türk və müsəlmandır.

Sultan Olcaytu Azərbaycanda bir taqım təcəddüdlər [yeniliklər] vücuda gətirdi. O cümlədən olaraq, Azərbaycan paytaxtını Marağadan Sultaniyyəyə köçürtdü. Məəttəəssüf [təəssüf] ki, tündbadi-həvadisə [hadisələrin tufanına] qarşı bu bina davam edəmməyib məhv oldu.

Bu gün Azərbaycanın o böyük paytaxtından bir məzar qübbəsi qalmışdır. Bu qübbə illərin təsirinə müqavimət edərək qalmışsa, əxlafın [övladların] naxələfliyi üzündən o əsər dəxi xarabaya üz tutmaqdadır. Hər sabah günəş o qübbə üzərinə tülu edərək [doğaraq] inikasatı [əksləri] ilə bizə türk millətinin fütuhat və iftixaratını [fəthlərini və fəxr edilməyə layiq hadisələrini] yad etdirir.

Azərbaycan Elxaniyan [Elxanilər] sülaləsinin inqirazından [çöküşündən] sonra Çobaniyan [Çobanilər] sülaləsinə intiqal edir [keçir]. Bunlar Azərbaycanı idarədən aciz qaldıqlarından, qəbilələrdən bir çoxu babalarının qədim yolunu tutaraq Anadoluya köçürlər. Teymurun zühuru və Anqara vaqeəsindən sonra bu qəbilələrdən bir çoxu təkrar Azərbaycana övdət edirlər [qayıdırlar]. Bədəhu [sonra] Şeyx Səfinin irşadatı [təbliğatı] ilə şiə məzhəbini qəbul edib Anadoludakı qardaşlarını da bu məzhəbə daxil etdirirlər.

Şah İsmayılın zühurundan sonra Anadoludakı azərbaycanlılar Şah Abbasa köməyə gəlirlər. Fəqət Osmanlı hökuməti bunlara mane olduğundan bir qisimi Anadoluda qalırlar. (Bu gün Osmanlı azərbaycanlıları Amasiya və Anqara vilayətlərində 500.000 miqdarında olub kəndilərinə qızılbaş denilməkdədir.)

Elxan sülaləsinin inqirazından sonra Şah İsmayıl Əfşar qəbiləsini Xəmsə, Marağa, Qarabağ və Şirvan vilayətlərinə, Qacar qəbiləsini də Səlmas, Gəncə və İrəvana məmur eylədi.

Şah İsmayıl zamanında Azərbaycan ədəbiyyatı rəvac eyləmişdir. Təqribən demək olar ki, Şah İsmayıl Azərbaycan ədəbiyyatının binasını vəz eyləmiş [binasını qoymuş] və kəndi "Divani-türkisini" [Türk dilində divanını] yadigar olaraq buraxmışdır. O zamanın böyük şüərası Azərbaycan türkcəsinin ehyasına [canlandırılmasına] çalışmışlardır. Füzuli, Müseyib xan Təkəli, Şani Təkəli, Sadiq Əfşar, Həsən Türkman və Yusif Qarabaği o zamanın türkcə yazar şairləridir. ("Təzkireyi-Sadiq" ilə "Töhfeyi-Sami"yə rücu [müraciət] oluna.)

Azərbaycanlılar səfəviyyə və əfşariyyə və onlardan sonra zamanında kəndi ədəbi-siyasi təşkilatlarını qururdular. Bu zamanda rus militarizmi həmlə edərək Azərbaycanın bir qitəsini [hissəsini] digərindən ayırdı, möhtərəm şəhid Cavad xan ilə İbrahimxəlil xan, Mirhəsən xan və sair bu kimi qəhrəmanların rəşadət və müqaviməti istilanı qurtara bilmədi. Azərbaycanın qismişimalisi yüz sənədən ziyadə rus əsarətində qaldı, tainki hürriyyətin sədayi-fərəhfəzası [fərəhləndirici səsi] üfqialəmdə tərənnümsaz olub Rusiya militarizmi elani-iflas eylədi. Bunun üzərinə Azərbaycan məmləkəti təkrar qəddini düzəldərək təmameyi-aləmə elani-istiqlal etdi.

Bu üçüncü dövrədir ki, azəri türkləri kəndi azadlıqlarının binasını qurmaq üçün və azadlıq düşməni olan Azərbaycan düşmənlərinin dəfi üçün mübarizə edirlər. Əlbəttə ki, edəcəklər və kəndi cavanlarının fədakarlığı sayəsində Azərbaycan istiqlalını paydar [möhkəm] etməklə müzəffər olacaqlardır.

Azərbaycanlı qardaşımızın, tərcüməsi yuxarıda məzkur [qeyd edilən] bu məqaləsinə "İran" qəzetəsi uzun-uzadıya cavab verir. Bittəb [təbii olaraq], onun dəlil və sübutları ilə müvafiqət edəmməyir [razılaşa bilmir]. Bu xüsusda ayrı bir vaxt.

*M. Ə. Rəsulzadə*

* Bu xüsusda şübhələri olanlar İstəxri, Müqəddəsi, Yaqut, Əbül-Fəda, Həmdullah, Hafiz və Katib Çələbiyə rücu buyursunlar [müraciət etsinlər].

* Turani-qədim təməddünü haqqında aşa-ğıdakı kitablara müraciət oluna: Masir, "Tarixi-miləli-məşriq" [Şərq millətləri tarixi]; Says, "Yek hökuməti-fəramuş şüddə" [Unudulmuş bir hökumət]; Vamberi, "Milləti-Türk"; Kinq, "Tarixi-Akkad və Şumer".

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter acentəliyindən)*

**Şərqi Qaliçədə**

Şərqi Qaliçədə Polşa əsgərləri bir çox əsir və külli miqdarda qənaimi-hərbiyyə [hərbi qənimət] almışlardır.

**Kolçakın hücumu**

Omskdan Kolçakın verdiyi teleqrafa görə, Vyatka tərəfə hücum davam etməkdədir. Perm dəmiryolundan şimala tərəf olan əsgərlər bir neçə bolşevik dəstəsini pərişan etmişlər.

**General Foş**

Almanların sülh müahidənaməsini [sazişini] imza və ya mütarikəni qət etmək [atəşkəsə son vermək] niyyətində olmaqları cavabını gözləməkdən ötrü fransız generalı Foş Lüksemburqdan Parisə dəvət edilmişdir.

- İstanbulda, Yıldız sarayında vaqe olan yanğından Sultan həzrətlərinə məxsus olan saray yanıb məhv olmuşdur.

- Bolşevik əleyhinə olan qüvvə Krasnaya Qorka tabyasını [istehkamını] işğal etmişlərdir. Bu yer Fin boğazında Kronştadtın rubərusundadır [üzbəüzündədir].

- Dabravollar tərəfindən Lumbun ilə Kuları işğal edilmişdir. Düşmənlər cənub tərəfinə püskürdülmüşlərdir. Ümumi ricət [geri çəkilmə] nişanələri müşahidə edilir.

- Petroqrad üzərinə hücum davam edir. Petroqradın 45 ağac cənub-qərbində vaqe Volosovo mövqifi [stansiyası] işğal edilmişdir. Bolşeviklərin 8-ci və 16-cı alayları məhv edilmişdir.

- Katçində bolşeviklər ciddi həmləyə hazırlaşırlar.

- Bu yaxınlarda Parisdə əmələlərin [fəhlələrinin] işə başlayacaqları gözlənir. Zira dəmiryolunda əhval yaxşılaşmışdır. Kömür mədənlərində olan əmələlər ümumi tətil etməyə qərar vermişlərdir.

- Qaradağda getdikcə üsyan vüsətlənir [genişlənir]. Üsyançılar Serbistanın istila qoşunlarına hücum edirlər. Bunlar arasında qızğın müharibə olur.

- Bolşeviklər Feodosiya şəhərini tərk etdiklərini elan edirlər. Müharibə Feodosiyanın 50 verst qərbində vaqe olmaqdadır.

Yekaterinodar - İngilislər tərəfindən ərəb hökuməti təşkil edilməsi ərəblərin köhnə cahangirlik məqsədini irəliyə sürdüyünə və Məkkədə xilafət təşkil etmək istədiklərinə bais olub, bu işlər Misirdə ingilis hökmranlığına zərbə endirəcəyi üçün Türkiyənin Müttəfiqlər arasında təqsim edilməsi [bölünməsi] layihəsi rədd edilmişdir. Həman layihəyə görə, Türkiyənin əlində Bursa və Samsun xətti qalırdı ki, bu yerlərin əhalisi türklərdən ibarət idi. Sultanın Bursaya göndərilməsi qərarı da təbdil edilmişdir [dəyişdirilmişdir]. Sultan İstanbulda qalacaqdır.

Yekaterinodar – [Damad] Fərid paşa tərəfindən yeni təşkil edilmiş Kabinə istefa vermişdir. Bu istefaya səbəb İzmir vilayətinin istila edilməsidir.

- Şura hökumətinin simsiz teleqrafı xəbər verir ki, bolşeviklərin aeroplanları Uralsk şəhərini bombardman edir.

- İyun ayının 22-də cəbhə barəsində verilən məlumatdan anlaşılır ki, bütün cəbhələrdən Şura qoşunları ricət edirlər [geri çəkilirlər]. Şərq cəbhəsində admiral Kolçakın güclü qüvvəsi irəliləməyə başlamışdır. Xarkov dairəsində qırmızı qoşun nəfəratı [əsgərləri] ricət edir.

## SÜLH ƏTRAFINDA

İstanbul qəzetələri yazırlar ki, Türkiyə mürəxxəslərinə [nümayəndələrinə] böylə düsturüləməl [təlimatnamə] verilmişdir:

1) Türkiyə hökuməti Türkiyənin mandat üzərinə idarə edilməsi prinsipinə etiraz edir və tələb edir ki, Türkiyə tam müstəqil yaşasın.

2) Türkiyə hökuməti Amerika rəisi-cümhuru Vilsonun sülh əsaslarına istinadla bu tələbdə özünü haqlı görür.

* İstanbuldan xəbər verilir ki, Babi-ali Etilaf [Antanta] dövlətlərinə məlum eyləmişdir ki, Türkiyə hökuməti şərqi vilayətlərə mükəmməl muxtariyyət verir. Hələlik Müttəfiqlərdən cavab alınmamışdır.

**İmza etmək istəyirlər**

Noske, Erzberqer sülh müahidənaməsinin imzalanması tərəfdarıdırlar. Bu xəbər Parisdə böyük şadlığa bais olmuşdur.

Lion - General Foş Müttəfiqlər qoşunlarının, o cümlədən Lehistan [Polşa], Romaniya və Çexslovak qoşunlarının başında duracaqdır. Hərgah düşənbə [bazar ertəsi] gününədək almanlar sülh müahi-dənaməsini imza edəcəklərinə razılıqlarını verməsələr, dərhal nemeslərə qarşı hərbi və iqtisadi tədbirlər ittixaz ediləcəkdir [tədbirlər görüləcəkdir].

**Almaniya hökuməti sülh barəsində**

Almaniya hökuməti müttəhid [birgə] mətbuat nümayəndələrini vəkil etmişdir məlum edə ki, Almaniya Müttəfiqlərin sülh müahidənaməsini imza etməkdən ona görə imtina edir ki, bu sülh Almaniyanın iqtisadi dağılmasına, şərəfsiz siyasətinə və bir çox nəsillərin əxlaqən məhv edilməsi deməkdir. Bu müahidənamə Vilsonun 14 maddəli məramnaməsinə müvafiqət etməyir [uyğun gəlmir]. Amerika gərək bu işə müdaxilə eyləsin və yaxud bəyan etməlidir ki, bu işi etməkdən acizdir.

## QƏZETƏLƏRDƏN

**Tsaritsına kömək**

"Volna" qəzetəsi xəbər verir ki, 15 iyunda Yekaterinodardan çıxmış olan şəxslər xəbər verirlər ki, mərkəzi Rusiyadan və Hacı-Tərxandan Tsaritsına bolşeviklər üçün külli imdadiyyə gəlmişdir. Tsaritsın altında Qırmızı ordunun halı möhkəmdir.

**Yaponlar qərq edilən gəmilərin pulunu istəyirlər**

Yaponiyanın sülh mürəxxəsləri [nümayəndələri] müharibə zamanında qərq edilən paroxodlarının parasını tələb edirlər.

**Versal vahid cəbhəsi**

İyunun 19-da Versaldan xəbər verirlər ki, Nazirlər Şurası çexlər ilə ukraynalılar arasında olan ixtilafı bərtərəf eyləməyə [aradan qaldırmağa] çalışır, tainki almanlar sülh müahidənaməsini imza etməkdən imtina etdikləri təqdirdə, şərqdə almanlar əleyhinə vahid cəbhə vücuda gətirilsin. Müttəfiqlərə lazımdır ki, mərkəzdə, Avropada bolşevizm əleyhinə olan qüvvələri yerləşdirsinlər, tainki bununla da bunların biri ilə Almaniyaya birləşmək imkanı verməsinlər.

**Rusiya**

Fin cəbhəsi boyu müharibə şiddətlənmişdir.

**Bolşeviklərin məğlubiyyəti**

Yekaterinodardan xəbər verirlər ki, Berdyansk-Çornı Yar cəbhəsində 9-cu, 13-cü və 2-ci Ukrayna orduları pərişan edilmişdir. Tsaritsın yolunu mühafizə edən 10-cu ordu artıq dərəcədə məğlub olmuşdur.

**Estonların hücumu**

Estonlular Pskovu və Volmarı işğal edib hücuma davam edirlər.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 26 iyun (Cümə axşamı günü) tarixli 212-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

**Kiyevdə üsyan**

Kiyev üsyanı gəldikcə şiddətlənməkdədir. Meydanlarda top və pulemyot qoyulmuşdur. Küçələrdə səngərlər yapılıb, əhali dükanları dağıdıb qarət etdiklərindən, nizamsızlıqdır. Kəndlilər Şulyavki tərəfdən müharibə başlamışlardır. Kiyevdən gələn qaçqınlar Kiyev hadisələri haqqında dəhşətlər söyləyirlər. Şəhər üzərində tüstü vardır. Şəhər bir çox yerlərdən yanır. Ümdə küçələr dağılmışdır. Tramvay vaqonları səngər halına salınmışdır. Çin əsgərləri kefləri istədiklərini edirlər. Arvadlara təcavüz edib, uşaqları öldürürlər. Kiyev-Poltava dəmiryol hərəkatı dayanmışdır.

**Krımda**

Yaltadan Batuma gələn balıqçılar nəql edirlər ki, üç nəfər keşişdən başqa "Fransa" adlı mehmanxananın sahibi də güllələnmişdir. Mehmanxana sahibi müqəssir edilirmiş ki, guya onun evində Dabravol ordusunun teleqraf acentəliyi varmış. Müsəlmanlar bitərəfliyə istinadən əsgərliyə getməyirlər. Bir çoxları şəhərdən çıxıb dağlara getmişlərdir. Yalta və Simferopol tərəfdə əsgər cəm edilməsi işləri pərişandır. Perekop üzərində almanlar və müsəlmanlar fürsət tapdıqca dabravollar tərəfinə keçirlər. Bir dəstə müsəlman axtarılarkən pulemyot tapıldıqda 12 nəfəri güllələnmişdir. Feodosiyadan xəbər verirlər ki, Qışlaq koloniyasında olan bolqarlar bolşeviklər tərəfinə keçmişlərdir.

Müsəlman əhalisi bitərəfdir. Onların başçılarından bir neçə nəfər türklər müsəlmanlar arasında bolşeviklərin tərəfini saxlayırlar. Baxçasarayda "Yeni dünya" adında türk dilində bolşevik qəzetəsi nəşr edilir. Bu qəzetədən Krım kəndlərinin hamısına, hətta Türkiyəyə göndərilir. Oraya hər bir münasib zamanda silah dəxi yollayırlar. Tüfəngin qiyməti 2 min rublədir. Baxçasarayda bolşeviklər bir çox müsəlman mitinqləri tərtib edirlər.

Benderə hücum

Novorossiyskə xəbər verirlər ki, bolşevik dəstələri Benderə hücum etmişlərdir. Romaniya əsgərlərinə qoşulan fransız qarnizonu düşməni Dnestrdən ətrafa atıb əhvalı düzəltmişdir.

**Təkzib**

Soçidən xəbər verirlər ki, Abxaziyanın Rusiyaya yapışması haqqında Dabrovol ordusu komandanlığı yanına istidadan [xahişdən] ötrü Abxaziya heyəti göndərilməsi şayiələri yalandır.

## TÜRKÜSTANDA

- Mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərdən aşkar olmuşdur ki, Aleksandrovsk fortu yanında bolşeviklər tərəfindən başlanan əməliyyat Əfqanıstan və Hindistan iğtişaşı ilə sıxı bir surətdə əlaqədardır. Moskvadan verilən əmrə görə, Hacı-Tərxan bolşevikləri ingilislərlə mübarizədə bulunan və bolşeviklərə hüsntəvəccöh bəsləyən təzə əfqan əmirinin köməyinə göndərilmişlərdir.

- Alınan məlumata görə, Türküstan oblastı əhvalı xeyli ciddiləşmişdir. Bolşeviklər qəti hücuma keçib Mərv şəhərini, Kuşka körpüsünü işğal etmişlər. Belə ki, Aşqabad təhlükə altındadır. Türküstan əhvalının bu cür ciddi olması ingilisləri oraya qüvvə göndərməyə məcbur etmişdir. Türküstan əsgərlərinin köməyinə Dabravol dəstələri və zirehli avtomobillər də göndərilmişdir. Türküstandan xəbər verirlər ki, mayın 27-də bolşevik dəstələri Əfqanıstana daxil olmaq üçün Kuşkaya çatmışlardır.

**Türküstanda bolşeviklər**

Türküstanda bolşeviklər Qəhqədə dayanmışdırlar. Oradan irəliyə yürüş etməyib, Məşhəd tərəfindən cinahlarının çevrilməsindən ehtiyat edirlər. Krasnovodskda ingilislərin müxtəsər qüvvələri vardır ki, şəhərin 6 verstliyində xəndəklərə girmişlərdir. Bolşeviklər cərgəsindən qaçanları böyük qiymətlə gizləyirlər. Matroslar əvvəla onları həbsxanalara doldurub, sonra 3500 rublə mükafatla Bakıya göndərirlər. Aşqabadda qara çörəyin girvənkəsi 7 manatdır.

**Türküstandan son məlumat**

Türküstandan alınan son məlumata görə, Duşak altında bolşeviklərin qabaq səfləri pərakəndə edilmişlərdir. Bolşeviklər 300 nəfər tələfat və 100 nəfər əsir vermişlərdir. Dabravollar onlardan 2 top, 29 pulemyot və 300-dək tüfəng qənimət almışlardır.

**Əfqanıstanda**

- "Krasnovodsk" qəzetəsi xəbər verir ki, şayiata görə əfqanlar buxaralılarla birləşib bolşeviklərin arxasında böyük üsyan qaldırmışlardır. Bolşeviklərin macar dəstələri tərk-silah edilmişdir. Bu münasibətlə Daşkənddə halət həyəcanlıdır. Deyirlər ki, orada da üsyan qalxmışdır. Fərqanə də öz növbəsində Əndican xətti ilə bolşeviklər üzərinə hücuma başlamışdır.

- Türküstan bolşevikləri ilə mübarizədə bulunan Türküstan hökuməti əsgərləri türkmən süvariləri, zabit bölüyü, könüllü dəstələri və Qafqaziya cəbhəsində olan sabiq Tersk dabravol naçalniki polkovnik Litvinovun təşəbbüsatı ilə Şimali Qafqaziyadan Türküstana gətirilmiş nizami dabravol dəstələrindən ibarətdir. Türküstan Müdafiə Komitəsi siyasi təsəvvürata görə öz əsgərlərinin komandanlığını türkmən general Uraz Sərdara vermişdir.

## HACI-TƏRXANIN SON DƏQİQƏLƏRİ

Bu günlərdə Hacı-Tərxandan [Həştərxandan] balıqçı qayığı ilə Bakıya varid olanların [gələnlərin] dediyinə görə, oranın əhvalı zeyldəki [aşağıdakı] qərar üzrədir:

İyunun 15-dən başlayaraq 17-nə qədər Biryuçaya Kosa deyilən yerdə 20-25 dənə gəmi dayanmışdı. Gəmilər dabravollar qoşunları ilə yüklü idilər. Gəmilərin qabağında saatda 32 uzla məsafə yol gedən lodkalar [qayıqlar] var idi. Bu lodkalarda kiçik toplar var idi. Ayın 15-dən başlayaraq Şura qoşunları Biryuçaya Kosadan yavaş-yavaş Hacı-Tərxana tərəf çəkilib özləri ilə bərabər batareyaları da aparırlardı. İyunun 17-də səngərlərdə 1000 nəfərə qədər qırmızı qoşun qalmışdı. Bunlara kömək gələcəyi vəd edilmişdisə də, gəlmədi.

İyunun 17-də axşam saat 8-də Krasnı Yar tərəfdən qaçan əsgərlər gəlib oranın dabravollar tərəfindən işğal edilməsini xəbər vermişlərdir. Buna görə də qaçmaq lazım olduğunu söyləmişlərdir. Dabravollar oranın bolşeviklər tərəfindən təxliyə edilməsini bilməyib, bir saat 45 dəqiqə zərfində oranı bombardman etmişlərsə də, cavab alammamışlardır. Sonra vəkillər göndəriblər, vəkilləri orada heç kəs görməyib geri qayıtmışlardır. Bundan sonra dabravollar oranı işğal etmişlərdir. Bolşeviklər oradan Hacı-Tərxana getməyib, Maniç tərəfinə çəkilmişlərdir. Onlar Kuban kazaklarından qorxaraq Don tərəfinə getmək istəyirlər. Hal-hazırda Hacı-Tərxan heç kəs tərəfindən işğal edilməmişdir.

"Volnaya Kuban" qəzetəsi 19 iyun tarixli nömrəsində yazır ki, alınan xəbərlərə görə, bolşeviklər bilkülliyyə [tamamən] Hacı-Tərxanı boşaltmışlardır. Bolşevik donanması Volqa yuxarı getmişdir. Bolşevik əsgərləri də dəmiryol və paroxodlarla getməkdədirlər. Xəzər dənizində olan hamı mayaklar Serebryakov körpüsündən başlamış Hacı-Tərxana qədər bolşeviklər tərəfindən xarab edilmişdir. Volqanın dənizə qarışan yerində bir çox barjalar qərq edilmişdir. Ural kazakları şərqdən, İngiltərə-rus donanması dənizdən Hacı-Tərxana yaxınlaşmaqdadır.

## ŞİMALİ QAFQAZİYADA

İnquşistan hakimi general Malsaqov təhti-idarəsində [idarəsi altında] olan yerdə qarətgərlik və oğurluqla mübarizə etməkdən ötrü xüsusi alay təşkil etmişdir. Alay öz vəzifəsi ifasına başlamışdır.

**Çeçenlərin yığıncağı**

Dağılmış olan çeçen kəndləri nümayəndələrinin yığıncağı iyunun 14-də Qroznıda açılmışdır. Yığıncağın məqsədi Çeçenistanda xarab edilən kəndləri bərpa etmək üçün ümumi plan hazırlamaq məsələsini müzakirə etməkdir.

## NƏZARƏTLƏRDƏ

**Azərbaycan və Ermənistan**

Ermənistan Xariciyyə nazirinə bu məzmunda bir teleqraf göndərilmişdir:

*"Zaqafqaziya millətlərinin cümhuriyyəti elan edildikdən sonra Ermənistan və Azərbaycan cümhuriyyətləri daxilində qanlı müsadimələr [toqquşmalar] vaqe olmuşdur ki, qayət fəna nəticələr vermişdir. Keçən il müsəlman və erməni kəndlərinin dağılması, müsəlmanlarla ermənilər arasında olan qətl-qarət tərk edilmədi. Bunların həpsinin nəticəsi o oldu ki, bu cümhuriyyətlər daxilində külli müsəlman və erməni fərariləri [qaçqınları] yığıldı. Ona görə də müsəlmanlarla ermənilər arasında mübahisə və gərginlik başlandı. Ən ibtida [ən başda], Zaqafqaziya cümhuriyyətləri elan edildikdə, bu cümhuriyyətlər üçün qaya və əsas qonşular arasında hüsn-rəftar sanılmışdı. Məattəassüf [təəssüf ki], yuxarıda zikr edilən səbəblərə görə, bu hüsn-əlaqəni bərpa etmək olmayır. Bu hadisələri ədalətə müvafiq və tərəfgirlik etmədən təhqiq eyləmək və bu cür hadisələr təkrar olmamaq üçün lazım gələn tədbirlər ittixaz etmək [tədbirlər görmək], hakəza [həmçinin] ən kəskin hal kəsb edən qaçqın məsələsini islah etmək adi gözəl əlaqənin başlanmasına yeganə bir vasitə olardı. Buna görə Azərbaycan hökuməti Ermənistan hökumətinə təklif edir ki, yuxarıda zikr olunan məqsədlə Ermənistan, Azərbaycan hökumət və Parlaman üzvlərindən ibarət bir komisyon təşkil edilsin. Azərbaycan hökuməti ermənilər lazım görsələr, mədəni Avropa və Amerika nümayəndələrinin də həmən komisyona daxil olmalarına heç bir vəch ilə mane deyildir.*

*Xariciyyə naziri əvəzi:*
*Adil xan Ziyadxan"*

## DAŞNAKLARIN MÜFƏTTİNLİYİ

Xunxar [qaniçən] və dünya üzünə gələndən bu günədək məzlum demokratiya [xalq] qanı tökməkdə olan daşnaklar gecə-gündüz müfəttinlik [fitnəkarlıq], iftiraguluq [iftiraçılıq] yapıb müsəlmanları, xüsusən türkləri olmazın xəyanətlərdə ittiham etməyə, onların arasında hərdən-bir müşahidə edilən hərəkata əksinqilab və ittihadi-islam [islam birliyi] rəngi verib Yevropa nəzərindən salmağa çalışırlar, qəzetələrinin bir nömrəsini fitnə və böhtanla dolu məqaləsiz keçirməyirlər. Nümunə üçün "Aşxatavor"un 126[-cı] nömrəsinin "Şərqin əksinqilabçılığı" sərlövhəsində baş məqaləni götürəlim:

*"Düvəli-müttəfiqənin [Müttəfiq dövlətlərin, Antanta dövlətlərinin] İstanbula daxil olub Yeni türklərin məğlubiyyətlərinin əvvəl günlərindən "Aşxatavor" şərqdə, müsəlman aləmində müxtəlif qara qüvvələrin əksinqilab hərəkatında bulunmaqlarını hamıya bildirməyə çalışır. Bunu göstərmək üçün lazım idi müvəffəqiyyətsiz bir hərəkat. İndi isə ona ehtiyac qalmayıbdır. Çünki həman hərəkat öylə halət kəsb edib [elə vəziyyət alıb] və bütün Yaxın Şərqin başı üstə öylə bir təhlükə asıbdır, hamı onu görübduya bilir. Mədəniyyət, siyasət və zəhmətkeş sinifinin əleyhinə nəhayət dərəcədə böyük və təhlükəli bir əksinqilab iğvası [oyunu, hiyləsi] hazırlanıb nizama salınmaqdadır. Bu öylə möhlik [ölümcül] təhlükədir ki, nəinki Qərbdə inqilab hərəkatını yox edə bilər, hətta bütün Şərqi sirayət [yayılma] təhdidi altına ala bilər.*

*Yeni türklərin səyləri açıq və aşkardır – hazırkı mütərəddid [qeyri-stabil] halətdən istifadə etmək. Bu qəsdlə ki, bəlkə özünə bir şey hasil ola və məqsədlərinə nail olmaq üçün pişəzvəqt [qabaqcadan] hazırladıqları proqramları üzrə iş görməyə [nail olalar]. İnqilabçılar tərəfindən meydana çıxarılmış tayfaların müqəddəratı kəndi ixtiyarlarına verilmək şüarı ilə istifadə edərək Jön türklər bir taqım cümhuriyyətlər təşkilinə şüru edirlər [girişirlər] ki, gələcəkdə əksinqilab hərəkatı başlandıqda özləri üçün hazır istinadgah olsun. Odur ki, Tələt, Ənvər binagüzarlığı [sərəncamı] ilə Azərbaycan, Axısxa, Qars, Naxçıvan, Araz, Ərzurum və Trabzon cümhuriyyətləri meydana gəlirlər ki, lazım olan vaxtda özlərinin qara fikirlərini yerinə yetirsinlər.*

*Digər tərəfdən də bolşevik hərəkatına bürünüb etilafçı hökumətlər [Antanta] əleyhinə camaat arasında narazılıq törədib, onların zəifliklərini, özlərinin müntəzəm olmaqlarını sübuta çalışmaqdadır. Hələbdə, İstanbulda, Trabzonda, İzmirdə olan qətliam hazırlıqları buna böyük bir dəlildir. O biri yandan da ittihadi-islam hərəkatı meydana gətirməyə çalışırlar. Bu yolda onlar avam camaatın fanatizmasını əllərində bir vəsilə edib də kamali-müvəffəqiyyətə nail olurlar. Əfqanıstan, Misir, Konya, Hindistan hadisatı Yeni türklərin bu siyasəti nəticələridir.*

*Hər yerdə vaxtında hazırlanmış böyük ittihadi-islam hərəkati-kəbirəsi [böyük hərəkatı] Ermənistandan tutmuş Qarabağa, Qarabağdan Misirə, Misirdən İstanbuladək bütün islam aləmində gördüyümüz hərəkat yeni türklərin həman bu səylərinin nəticəsidir ki, var. Şərqdə ələn [indi] müşahidə edilən hərəkat öylə bir böyük əksinqilab hərəkatıdır ki, onun müqabilində qeyri xırda hərəkatlar əhəmiyyətlərini itirirlər. O cəhətə, lazım gəlir ki, inqilabçı siniflər pişəzvəqt lazım tədbirlər ittixaz etməlidirlər ki, paşaların həmin əksinqilab hərəkatının önünü alsınlar. Yoxsa həmin hərəkat nəinki Şərqdə olan cüzi inqilabiyyunları, ola bilər hətta bütün mədəniyyəti nüfuzdan salar. İnqilabçılar bu hərəkatla şiddətli mübarizə başlayıb türklərin tükənməz zülüm iştahalarına birdəfəlik intəha verməlidir."*

İştə fitnə, iştə provokasiya!

Erməni Milli Komitəsinin "Naşe vremya" qəzetəsi "erməni dilini bilmiş olsaydı" bizə eylədiyi töhmətləri geri götürüb "Aşxatavor"ların üzərinə yüklərdi.

## MƏTBUAT

Erməni siyasətçilər əskidən bəri adət etmiş olduqları həyasızlıqlarından əl çəkməyirlər. Türk millətinin yamanlığına sərf etdikləri hümməti bu vaxtadək özlərinin yaxşılığına işlətmiş olsaydılar, bəlkə çoxdan bəri rahi-nicata [qurtuluş yoluna] çıxmışdılar. Amma siyasətçilikdən vaz keçməyirlər. Bütün erməni demokratiyası [xalqı] həman bir neçə siyasətçinin intriqası qurbanı olaraq xoş günə həsrətdirlər. Əzcümlə [o cümlədən] Qarabağ erməniləri dinc, fərağət yaşamaq arzularına rəğmən, intriqa fədası olub nəhayət dinc qonşuları olan türk əhalisi ilə qanlı toqquşmaya belə vardılar. Şimdi erməni hökuməti öz siyasətlərinin nəticəsi olan Qarabağ hadisəsindən istifadə edərək Azərbaycan hökumətinə bir protesto notası təqdim etmişdir. Rus dilində nəşr olunan "Azərbaycan" rəfiqimiz həman protestonun əsassız və erməni hökuməti məlumatının həqiqətdən uzaq olduğunu göstərərək yazır ki:

*"Fəqət erməni mütəassib [mürtəce] mətbuatı və erməni siyasi dairələrinin Qarabağ məsələsi ətrafında qaldırdıqları bunca səs-küy onun üçün deyil ki, mühüm bir hadisə vaqe olmuşdur, onun üçün deyil ki, bir dənə erməni kəndi talan edilmişdir, onun üçün deyil ki, İrəvan erməni camaatı həqiqi tədbirlərlə Qarabağ ermənilərinin əhvalını yaxşılaşdırmaq istəyirlər. Məqsəd və plan ancaq Azərbaycan hökumətini rüsvay edib Qarabağ məsələsi haqqında İngilis Komandanlığının fikirini dəyişməyə çalışmaqdır. Əgər Qarabağ ermənilərinin "vəliyyünnemətləri" bəzi "xadim"lərin siyasətçiliyi sayəsində mahalın sair qismindən ayrı düşmüş və bundan dolayı fəlakətə uğramış olan qardaşları üçün doğrudan da adi bir həyat şəraiti hasil etməyə çalışırsalar, başqa tədbirlər görməlidirlər. Onlar hadisatı təhqiq edər və görərlərdi ki, dağlıq hissə erməniləri səhrasız dolana bilməzlər və Qarabağda sülh və müsalimət [əmin-amanlıq] bərpası üçün tədbirlər görərlərdi. Fəqət bu vaxtadək bunu etməmişlərdir. Biləks [əksinə], general-qubernatorun hər növ sülhcuyanə [sülhpərvər] təşəbbüsləri (buna dəlil-sübutlar var) erməni başçılarının şiddətli etirazına məruz qalmışdır. İrəvan siyasətçilərinin bütün böylə rəftarı Qarabağda milli ehtirasatı alovlandırmış və ermənilərin iqtisadi əhvalını daha da fənalaşdırmışdır. Qarabağda erməni kəndliləri və şəhər burjuaziyası Azərbaycan hökuməti ilə mübarizənin nahaq və mənasız olduğunu anlayıb mübarizədən yorulmuş və siyasətlərini dəyişmişlərdir. Məclisi-Məbusan heyətinin təhqiqat və istintaqından anlaşıldığı üzrə, onlar dərk etmişlərdir ki, Azərbaycan hökumətini qəbul etmədikcə nizam və asayiş və vadi ilə əlaqə hüsulu mümkün olmayacaqdır. Qarabağda bizim tədrici, azar və əziyyətsiz fəaliyyətimiz nəticəsində Qarabağ məsələsinin qurtarması yaxınlaşmışdı. Fəqət birdən-birə Qarabağda tam asayiş bərpa edilmiş, möhkəm və mütəşəkkil hökumət idarəsi vətəndaşlara tam səlamət və əmin-amanlıq təmin etdiyi bir zamanda, erməni kəndliləri maddi və iqtisadi rifah hallarının tamamilə vadi ilə sıxı əlaqə hüsulu ilə mərbut [bağlı] olduğunu və bunun da ancaq hökumət idarəsi altında əmələ gələ biləcəyini anladığı halda, İrəvan agentlərinin təəssüb sərməstliyindən ayılmış olan Qarabağ erməniləri bütün erməni həyatında Qarabağın biyaban içində bir vahə kimi qaldığını, bu da Azərbaycan hökuməti tərəfindən saxlandığını gördükləri bir zamanda, böylə bir zamanda erməni hökuməti haqsız notası və mütəşəkkil gurultuları ilə Qarabağda erməni-türk münasibatında sönmək üzrə olan ehtirasata bir də od vurur."*

Rəfiqimiz pək haqlı olaraq erməni hökumət və məsuliyyətli siyasi dairələrinin böylə xətti-hərəkətinin ermənilər üçün pək ağır nəticələr verə biləcəyini qeydlə, iki cümhuriyyət və millətin sülh və müsalimətlə yaşaya bilməsi üçün ədalətli rəftar və hadisati-siyasiyyəyə [siyasi hadisələrə] haqq və ədalətlə baxmaq lüzumunu göstərərək, axırda bu məsələdə Azərbaycan hökumət və siyasilərinin rəftarına keçərək yazır ki:

*"Azərbaycan hökuməti və siyasi dairələri Qarabağ haqqında möhkəm və müəyyən bir vəziyyət almışlardır və öz xətti-hərəkətlərini sülhcuyanə və hüquq əsası ilə davam etdirəcəklərdir. Qarabağ məsələsində özlərinin haqlı olduqlarını dərk və Qarabağın səadət və rifah halını bütün Azərbaycanın səadət və rifah halı hesab edərək biz Qarabağ məsələsi ətrafında rəsmi və qeyri-rəsmi agentlərin fəaliyyətinə qarşı laqeyd qala bil[m]əriz."*

## BAKI XƏBƏRLƏRİ

**Denikin casusları**

Yalama mövqifinin [stansiyasının] sərhəd naçalniki Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinə məlum etmişdir ki, gecə o, bir nəfər minik tövqif [həbs] etmişdir ki, onda bir dənə də əks götürən makina, topoqrafiya alatı [alətləri] tapılmışdır. Yalama və Xaçmaz mövqiflərində miniklərin vəsiqələrini təhqiq etmək üçün xüsusi məmurlar qonulmuşdur.

## AZƏRBAYCANDA

**Lənkəranda**

Lənkərandan Bank təriqi [yolu] ilə Bakıya gələnlər xəbər verirlər ki, hərçənd əhalinin əksəri Lənkəran Şura hökumətinə meyil və məhəbbət bəsləməyirlərsə də, lakin Lənkəran asudəlikdir. Şura hökumətinə Privolnoye və Qriqoryevo nam [adlı] iki kənd müavinət edir. İcra komitəsinin başında Tituşkin dayanmışdır. Bolşeviklər orada hələlik heç bir ciddi tədbir göstərməmişlərdir. Yalnız bir çox həbs və edamda bulunmuşlardır. O cümlədən Sentrodomun [Mərkəzi Ev Komitəsinin] nümayəndəsi Kuznetsovu atmaqla qətl etmişlərdir. Burjuaziyadan təzminati-hərbiyyə almağa hazırlanırlar. Lənkəranlıların əlində paroxod yoxdur. Yalnız balıq və motor lodkalarından istifadə edirlər. Bunlarla Banka göyərti gətirib oradan paroxoda verirlər. Sara cəzirəsində [adasında] vaqe balıq mədəni dayanmışdır. Əmələlər ərzaq almadığına görə aclığa mübtəla olmuşlardır. Külli göyərti ki, daima Bakı ondan istifadə edirdi, şimdi dəyilməmiş qalmaqdadır.

## ERMƏNİSTANDA

**Türkiyə erməniləri və Parlaman seçkiləri**

Türkiyə ermənilərinin Erməni Parlamanı seçkilərində nə cür vəziyyət alacaqları məsələsini aşkar etmək qəsdi ilə iyunun 12-də Aleksandropolda [Gümrüdə] qərb rayonu ermənilərinin bələdiyyə idarəsi salonunda ümumi iclasları olmuşdur. Qarabet Qaraxanyan sədarət etmişdir. Bir çox nitqlərdən sonra müttəhidülqövl [yekdilliklə] aşağıdakı qətnamə qəbul edilmişdir:

1) Poqos Nubar paşa Kabinəsi təbrik edilsin.

2) İrəvan, yəni Erməni Qərbi Şurasının üsulsuz tərzihərəkəti əleyhinə protesto edilsin.

3) Ararat hökumətinə müraciətən təklif edilsin ki, hökumət özünü müvəqqəti elan eyləsin. Bu da belə edilməlidir ki, həqiqi hökumət Poqos Nubarın Kabinəsindən ibarətdir.

4) Hərgah Ararat hökuməti mayın 28-də istiqlaliyyət haqqında elan etdiyi əqd-naməni – ki bu əqdnamə ilə hökumət özünü müttəhid [vahid, birləşmiş] Ermənistan və daimi hökumət elan edir – dəyişməsə qərbi (Türkiyə) erməniləri seçkilərdə iştirak etməyəcəklərdir.

**Qars və İğdır dəstələrinin məlumatı**

Diqor icmasına mütəəlliq [aid] olan Sakop kürdləri Arğaca hücum etmişlərdir. Qorxanda olan qara-mal qovulub aparılmışdır. Hücum edənlərdən biri tutulmuşdur. Alınan xəbərlərə görə, Əli-mirzə Xarababazar dərəsindədir. Belə görünür ki, Əlimirzə köçəriləri Simaxa müşayiət etmək fikrindən daşınmışdır. Mərdənək səmtində üç nəfərdən ibarət kürd dəstəsi iyunun 15-də Muzaret kəndinə hücum etmişdir. Erməni dəstələrinin köməyi ilə hücum dəf edilmişdir. Dörd-kilisə və ona yaxın rayonlarda min nəfərdən ibarət kürd dəstəsi olduğu kəşf edilmişdir.

**İğdır dəstəsinin məlumatı**

Erməni komandanlığının tələbatına baxmayaraq, kürdlər dinc əhali üzərinə hücum və əhalini qarət etməkdə olduqlarından, cəza dəstəsi göndərilmişdir. Kürdlərin quldur dəstələri dağıdılmışdır.

**Amerika Səfarətini qarət**

Müsəlləh [silahlı] müsəlmanlar Urmiyədə Amerika heyəti binasına hücum etmişlərdir. Burada Amerika heyəti ilə qayıtmış olan erməni və assuri qaçqınları yaşayırmış. Üç yüz nəfər ölüb, yüz əlli nəfər yaralanmışdır. Amerika heyəti sədrinin oğlu yaralanmışdır. Sədrin arvadına təcavüz olmuşdur. Şayiata görə, Amerika konsulu və Urmiyə sabiq general-qubernatoru Urmiyəyə azim olmuşlardır [getmişlər].

**Davidxanyan**

Erməni hökumətinin Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi] Bakı erməni məhəlli [yerli] əhalisinin halını öyrənib Azərbaycanda nümayəndə təyin edilməsi haqqında müzakiratda bulunmaqdan ötrü Tiflisdə olan nümayəndəsi Davidxanyanın Bakıya əzimət etməsi [yola düşməsi] binagüzarlığını [sərəncamını] vermişdir.

**Kürdlər Ermənistana göndərilir**

Türkiyə hökumətinin təşəbbüsatına görə, 10 min nəfərdən ibarət birinci kürd karvanı şərqi vilayətlərə göndərilir. Türkiyə hökuməti yolda onlara hər cür müavinət olunması üçün tədbirlər ittixaz etmişdir [tədbirlər görmüşdür].

**Corab maşını**

Hər bir əşyası ilə nömrə 14, qrammofon plastinkaları ilə, köhnə işlənmiş simli skripka və telefon aparatı satılır. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Kamenski küçə, nömrə 52. Səhər saat 10-dan 6-ya qədər.

*10254 1*

**Diş həkimi R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Petroqraddan gəlmiş doktor İshaq Avetisoviç Atayans (professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti "Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan
Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov
Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld
Cərrahiyyə 9-11 Sander
Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron
Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]
Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik
Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan
Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;
Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin
Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***"Səddi-İskəndər"***

"Səddi-İskəndər": rəvayətə görə, İskəndər Zülqərneynin "yəcuc" və "məcuc" adlı qövmlərin fitnəsindən qorunmaq məqsədi ilə çəkdirdiyi möhkəm sədd.

***İran-Azərbaycan***

"İran qəzetəsinin tərəfindən": qəzetdə "tərəfindən" yerinə "tərəfimdən" getmişdir.

"Füstel de Kulanj": qəzetdə təhrif edilmişdir.

"Bustanüs-səyahət": Azərbaycan səyyahı və coğrafiyaşünası Hacı Zeynalabdin Şirvaninin əsəri.

"Həmdullah": XIV əsrdə yaşamış iranlı tarixçi və coğrafiyaşünas Həmdullah Müstəvfi nəzərdə tutulur; qəzetdə bu ad təhrif edilmişdir.

"Məsələyi-Şərqiyyə": Krayblisin "Rusiyanın Şərq siyasəti və vilayəti-şərqiyyə məsələsi" adlı əsəri nəzərdə tutulur. Bu kitab 1913 və 1916-cı illərdə İstanbulda çap edilmişdir.

"Millət-Türk": Vamberinin 1885-ci ildə Leypsiqdə nəşr edilən "Das Türkenvolk" adlı əsəri nəzərdə tutulur.

"Mətinüssəltənə": İranlı qəzet naşiri Əbdülhəmid Səqafinin ləqəbi idi.

"Kamil": ərəb tarixçisi İbnül-Əsir İzzəddin əl-Cəzərinin ümumi tarix kitabı "əl-Kamil fit-tarix" nəzərdə tutulur.

"Fateh, Səlim, Süleyman": Osmanlı hökmdarları Fateh Sultan Məhməd (II Məhməd), Yavuz Sultan Səlim (I Səlim), Qanuni Sultan Süleyman (I Süleyman) nəzərdə tutulur.

"Rəşid və Məmun zamanlarında": Abbasi xəlifələri Harun ər-Rəşid və Məmun nəzərdə tutulur.

"Cüstaniyan": VIII əsrin axırlarından XI əsrin əvvəllərinə qədər müasir İranın Deyləm bölgəsində hökm sürmüş Cüstanilər xanədanı nəzərdə tutulur.

"Deyləmilər": İranın Deyləm vilayətində (dağlıq Gilanda) yaşamış tayfa.

"Qaani-əzəm": Monqol hökmdarı Məngü xan nəzərdə tutulur.

"Elxani-əzəm": Hülakü xan nəzərdə tutulur.

"Təzkireyi-Sadiq": Sadiq bəy Əfşarın Səfəvilər dövrü şair, rəssam və xəttatları haqqında biblioqrafik əsəri olan "Məcməül-xəvas" nəzərdə tutulur.

"Töhfeyi-Sami": Şah İsmayıl Xətainin oğlu Sam Mirzənin Səfəvi şairləri haqqında biblioqrafik əsəri nəzərdə tutulur.

***Sülh ətrafında***

"Babi-ali" (hərfən "uca qapı"): Osmanlı dövlətində Sədrəzəmin (Baş nazirin) sarayına verilən ad; beynəlxalq münasibətlərdə "Osmanlı hökuməti" mənasında işlədilirdi.

***Türküstanda***

"Aleksandrovsk fortu": Qazaxıstanın Mangistau (Manqışlaq) vilayətində yerləşən Fort-Şevçenko şəhəri.

***Hacı-Tərxanın son dəqiqələri***

"uzla" (uzel): saatda 1 dəniz milinə (1852 metrə) bərabər sürət ölçüsü.

"bir saat 45 dəqiqə": qəzetdə "1 saat 45 saat" getmişdir.

***Daşnakların müfəttinliyi***

"Yeni türklər": Osmanlı imperiyasında sultan II Əbdülhəmidə müxalif gənc ziyalılar nəslinin meydana gətirdiyi siyasi hərəkat olan "Jön türklər" (yaxud "Gənc türklər") hərəkatı nəzərdə tutulur.

***Mətbuat***

"vəliyyünnemət": birini bəsləyib böyüdən, saxlayan şəxs.

***Azərbaycanda***

"Bank": indiki Neftçala rayonunun Bankə qəsəbəsi nəzərdə tutulur.



2026 Şəhərsalma və Memarlıq İli



**Azərbaycan tarixinin qədim köklərə bağlılığını, onun yüksək mədəniyyət diyarı olmasını sübut edən xeyli abidələrimiz var və onlar qorunaraq nəsillərdən-nəsillərə ötürülür. Bunlardan biri də tariximizin daş şahidi olan İçərişəhərdir. Bu qədim məkanda hər daş parçası tarixin əbədiləşmiş hekayəsini, şəhərsalma memarlığının fundamental prinsiplərini özündə əks etdirir.**

İçərişəhər həm də çoxəsrlik mədəniyyətimizin rəmzi, Azərbaycanın Orta əsrlərdə yüksək inkişaf etmiş şəhərsalma sənətinin misilsiz yadigarıdır. Bu unikal məkandakı Qız qalası, Şirvanşahlar saray kompleksi, məscidlər, karvansaralar və digər tarixi abidələr Azərbaycan memarlığının parlaq nümunələridir.

Bakının qoynunda, möhtəşəm qala divarları əhatəsində yerləşən, açıq səma altında bir muzey olan İçərişəhər qədim və Orta əsrlər dövrünə aid zəngin maddi və mənəvi mədəniyyət abidələrini əsrlərdən bəri qoruyub saxlayır. 200 il əvvəl İçərişəhər - Bakı, İçərişəhərin ətrafı - müasir Bakı isə Bayır Şəhər adlanırdı. Orta əsrlərdə Bayır Şəhər qala hasarından kənarda olan hissəyə deyilirdi. Burada Orta əsrlərdə sənətkar məhəllələri vardı. Bəzi sənətkarlar elə oradaca ev tikib yaşayardılar.

Tarix-Memarlıq Qoruğu İdarəsi yaradıldı. Dövlət başçısı belə bir addımla bu möhtəşəm memarlıq - şəhərsalma kompleksinin qorunub saxlanması üçün unikal idarəetmə sistemi formalaşdırdı. Ərazidə aparılan bütün işləri bununla vahid dövlət nəzarəti altına aldı. Qədim şəhərdə bütün abidə və tarixi binaların inventarizasiyası həyata keçirildi. Ərazidə nəqliyyatın hərəkətinin tənzimlənməsi ilə bağlı mühüm tədbirlər görüldü.

Milli dəyərlərimizin qorunması və dünyada təbliği sahəsində misilsiz işlər görən Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva da bu tarixi məkanda gedən bərpa və abadlıq tədbirlərini birbaşa nəzarətində saxlayaraq görülən işlərə böyük qayğısı, qəlbinin istiliyi, səliqə-sahmanı ilə mənəvi dəyər qatdı. Nəhayət, 2020-ci ildə Prezident İlham Əliyev İçərişəhərin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinin 20 illiyinin qeyd olunması haqqında sərəncam imzaladı.

Bu gün İçərişəhər təkcə Azərbaycanda deyil, bütün dünyada yüksək qiymətləndirilən tarixi abidədir. Bunu UNESCO-nun Dünya Maddi İrs Siyahısına İçərişəhərin Qız qalası və Şirvanşahlar Saray Kompleksi ilə birgə salınması da təsdiq edir. Azərbaycan memarlığının, onun tarixinin bir hissəsi, Azərbaycan xalqının maddi-mədəniyyət irsinin qiymətli nümunəsi olan bu abidələr UNESCO tərəfindən Dünya irsi kimi qəbul olunub. Bu da ölkəmizin dünya mədəni irsinə əvəzsiz bir töhfəsidir.

# Bakının anası - İçərişəhər

## Bu unikal qədim məkan tariximizin daş yaddaşıdır







Azərbaycanda şəhərlər müxtəlif zəmin əsasında formalaşaraq inkişaf tapmışdır. Əsas karvan yolları üzərində yerləşən yaşayış məntəqələrində sənətkarlığın və ticarətin inkişafı həlledici amil olmuşdur. Bir sıra şəhərlər ilkin başlanğıc olan qalaların, istehkamların, yaşayış məntəqələrinin böyüməsi nəticəsində yaranmışdır. Burada bir fakt xüsusi qeyd edilməlidir ki, Bakının kiçik yaşayış məntəqəsindən böyük şəhərə çevrilməsində neft və duz kimi sərvətlərin olması mühüm əhəmiyyət daşıyır. Bakının "müqəddəs odlar diyarı" kimi tanınması onun həyatında mühüm rol oynamışdır. Neft gəlirlərindən zənginləşən Bakı milyonçuları XX əsrin əvvəllərində bir-birinin bəhsinə qala divarlarından kənarda gözəl binaların inşasına başlamışdılar. Bu tikinti işləri qala divarlarının birinci cərgəsinin sökülməsi və daşların satılmasından sonra daha böyük vüsət almışdır. Bundan sonra qədim Bakının görunuşü də dəyişmişdir.

XIX əsrin sonları - XX əsrin əvvəllərində Bayır Şəhərdə barokko, qotika, klassik, neoklassik memarlıq üslublarını əks etdirən bir cox avropasayağı gözəl binalar tikildi və müasir Bakı böyüməyə başladı. Lakin Bakı milyonçuları bir tərəfdən şəhəri genişləndirib gözəlləşdirsələr də, digər tərəfdən özləri də hiss etmədən qədim şəhərin böyük tarixinə, zəngin mədəniyyətinə xələl gətirir, laqeydlik göstərirdilər. Bu səbəbdən İçərişəhər onun qəlbində keçmişi əks etdirən mədəni irsimizin yadigarı kimi qaldı.

Tarixi məkana laqeyd münasibət sovet dövründə də müəyyən qədər davam etdi və burada erməni hiyləgərliyi, tariximizə qarşı bu millətin düşmənçiliyi az rol oynamadı. O dövrdə belə layihələrin icrasında əsas söz sahiblərindən olan erməni mühəndislərindən birinin fitnəsi ilə indiki "İçərişəhər" metro stansiyasının qala divarlarının qarşısında tikilib onu görünməz etməsi bunun sübutudur.

Yalnız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bir çox tarixi dəyərlərimiz kimi, İçərişəhər də öz qüdrətli hamisini tapdı. Heydər Əliyev bu tarixi-memarlıq incisini hər zaman qoruyur, onu tariximizə düşmən kəsilənlərin dağıdıcı əməllərindən, öz içimizdən olanların tamahından bacardığı qədər hifz edir, Azərbaycanın qiymətli tarixi sərvəti kimi müxtəlif üsullarla bütün dünyada tanıdırdı.

### Dəyərlərimizə sevgi nümunəsi

10 fevral 2005-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə "İçərişəhər" Dövlət

### Muzeylər məkanı

İçərişəhərdə abidələr üç qrupda təsnif edilir. İlk növbədə dünya əhəmiyyətli abidələr muzeyləşdirilir. Qız qalası, Şirvanşahlar sarayı, Məhəmməd məscidi kimi abidələr bu qrupa aiddir. Ölkə əhəmiyyətli abidələr isə qismən muzeyləşdirilərək funksiyasına uyğun müstəqil obyektə çevrilir. İçərişəhərdəki karvansaraları, məscidləri və hamamları buna nümunə göstərə bilərik. Yerli əhəmiyyətli abidələrdə isə qarışıq muzeyləşdirmə aparılaraq müxtəlif növ ekspozisiya kompleksləri cəmləşdirilir. Bunu XIX - XX əsrin yaşayış binalarında görmək olar.

Şirvan hakimlərinin iqamətgahı olan "Şirvanşahlar Saray Ansamblı"nın ən diqqətçəkən tikililərindən biri də Keyqubad məscidi idi. Dərviş türbəsi yanında ona bitişik bir məscid-mədrəsə binası olmuşdur. Türbə məscidin cənub hissəsində yerləşir. O, düzbucaqlı ibadət zalından və onun önündəki kiçik dəhlizdən ibarətdir. Vaxtilə zalın mərkəzində günbəzi saxlayan 4 sütun var imiş. Məsciddə Bakuvinin tədris və ibadət etməsi barədə A.Bakıxanov yazırdı: "Onun ibadət etdiyi hücrə, işlədiyi məktəb və qəbri orada - məsciddədir".

Tədqiqatçı S.Aşurbəylinin yazdığına görə, Keyqubad Şeyx İbrahimin babası idi. Şirvanşah Keyqubad 1317-1343-cü illərdə hakimiyyətdə olmuşdur. Hazırda Şirvanşahlar sarayının aşağı həyətinin cənub hissəsində Keyqubad məscidindən, sadəcə, bünövrə qalıqları və bir neçə tağ salamat qalmışdır.

"Şirvanşahlar Saray Ansamblı"nın ən aşağı həyətində saray hamamı yerləşir. İçərişəhərin bütün hamamları kimi bura da temperatur rejimini sabit saxlamaq üçün yerin altında tikilib. Vaxt keçdikcə torpaq qatının qalınlığı artaraq onu tamam örtüb.

Hamam 1939-cu ildə təsadüfən aşkar olunmuş, 1953-cü ildə bir hissəsi təmizlənmiş, 1961-ci ildə konservasiya edilmişdir. Hamamın indiyə qədər qalmış divarlarına görə demək olar ki, onun otaqlarının üstü günbəzlə örtülmüşdür. Günbəzdə olan dəliklərdən hamamın içərisinə işıq düşürmüş. Bu növ hamam sistemi Bakı və Abşeron üçün tipikdir. Abidənin sol hissəsi bərpa olunmuş, sağ hissə isə öz əvvəlki formasını daha çox saxlamışdır.

Hamama daxil olan su divar yaxınlığında olan ovdandan (su anbarından) qazanxanaya axır, oradan isə tikilmiş xüsusi yollar vasitəsilə otaqlara paylanırdı. Hamamın sağ küncündə üstü günbəzli bir böyük və iki kiçik otaq vardır. Kaşı üzlüyə malik bu otaqların şəxsən şaha məxsus olduğu ehtimal olunur.

Ovdan portal şəklində tərtib olunub, oradan anbara çoxsaylı pilləkən gedir. Ovdanla hamam arasında əlaqənin olduğu yan vestibüldən görünür. Bura 1954-cü ildə təmir-bərpa işləri aparılarkən təsadüfən aşkar edilmişdir. Ovdana su kəhrizlər vasitəsilə şəhərin dağlıq hissəsindən verilirmiş. Beləliklə aydın olur ki, "Şirvanşahlar Sarayı Ansamblı" Orta əsr Azərbaycan memarlığının monumental dekorativ sənətinin möhtəşəm nümunəsidir.

### Bitməyən tarix, yaşayan adət-ənənə

İçərişəhərin özəlliyi həm də ondadır ki, burada tarix bitmir, əksinə, davam edir. Keçmiş, bu gün və gələcək bu məkanda qovuşur. İçərişəhərdəki yaşayış evlərində bu gün də sakinlər yaşayırlar və bu tarixi məkanın hər biri misilsiz sərvət qədər qiymətli olan abidələr kimi adət-ənənələr, həyat və məişət ruhu da nəsillərdən-nəsillərə ötürülür.

Əsrlər əvvəl olduğu kimi, bu gün də İçərişəhərdə dükan-bazar, Azərbaycan mətbəxinin unudulmaz dadını qoruyan ictimai-iaşə məkanları, sənətkarlıq köşkləri və s. fəaliyyət göstərir. Bu məkan canlı orqanizm kimi öz təbii halında əsrlərdən-əsrlərə qucaq açır. Şəhərin unikallığı ondadır ki, bura səhər açılıb, axşam bağlanan muzey deyil - canlı bir şəhərdir. Hətta insanlar unudurlar ki, tarixi məkandadırlar və hər gün XII, XV, XVII əsrlərin abidələri ilə ünsiyyətdə olurlar.

İçərişəhər kompleksinə daxil olan dünya əhəmiyyətli 3, ölkə əhəmiyyətli 28 memarlıq, konservasiya olmuş 8 arxeoloji və 600-dən çox yerli əhəmiyyətli abidə xalqımızın zəngin mədəniyyətindən xəbər verir. Qoruq ərazisindəki XVIII-XIX əsr memarlığına aid elmi, tarixi və mədəni cəhətdən yüksək dəyərə malik onlarca bənzərsiz yaşayış binaları və Orta əsrlərdə tikilmiş memarlıq abidələri dövlət tərəfindən qorunur. Arxeoloji kəşfiyyat və nəzarət işləri nəticəsində aşkar olunan qədim Bakının tarixini əks etdirən arxeoloji artefaktlar və son 30 il ərzində arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş antik dövr maddi-mədəniyyət nümunələri, habelə İçərişəhərin sahilə yaxın hissəsinin təhlili, analizi və təsnifatı belə bir fikir söyləməyə əsas verir ki, şəhərin qədim yaşayış yeri konkret olaraq sahilə yaxın, məhz ən qədim yazılı memarlıq abidəsi olan Məhəmməd məscidi və Qız qalası yerləşən ərazi və Bakı buxtası olmuşdur.

İçərişəhər ruhumuzun şəhəridir. Bura Azərbaycan xalqının milli sərvətidir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Şuşanın şəhərsalma mədəniyyəti və memarlıq abidələri





**Prezident İlham Əliyevin 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında sərəncamında qeyd edilir ki, İpək yolu üzərində yerləşən və mühüm ticarət, sənətkarlıq, mədəniyyət mərkəzləri kimi Şərq ölkələri ilə sıx iqtisadi, siyasi və mədəni əlaqələr quran iri şəhərlərimizin özünəməxsus simasının formalaşmasında qiymətli memarlıq abidələri müstəsna rol oynamışdır.**

Ermənistanın işğal etdiyi və 30 il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir. Azərbaycanın mədəniyyət paytaxtı, xalqımızın qürur mənbəyi Şuşanın əvvəlki memarlıq mühiti və əsl tarixi siması bərpa edilməklə dirçəldilməsi isə milli iradənin təzahürüdür.

Qeyd etmək lazımdır ki, Şuşa şəhərindəki 17 qədim məhəllənin hər birinin məscidi, bulağı və hamamı mövcud olmuşdur. XIX əsrdə İbrahimxəlil xanın qızı Gövhər ağanın sifarişi ilə Qarabağın bir çox məşhur memarlıq nümunəsinin banisi kimi tanınmış memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilmiş Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidləri Şərq memarlıq üslubunda tikilmiş və Azərbaycanın tarixi-mədəni irs nümunələridir. Qeyd etmək lazımdır ki, məhəllə məscidləri içərisində Saatlı məscidi yeganə minarəsi olan məsciddir. Bununla yanaşı, vaxtilə şöhrəti nəinki Şuşaya, bir sıra ölkələrə də yayılan memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilmiş XIX əsrə aid məhəllə məscidləri və malikanələr şəhərə xususi yaraşıq verirdi. Təsadüfi deyil ki, məşhur rəssam V.Vereşşagin Şuşanı görəndən sonra yazmışdı: "Bu şəhərin evləri düzgün formalı, qəşəng və hündür olub, çoxsaylı və gözəl pəncərələrlə işıqlandırılır. Qayalıqlar qoynunda yerləşən bu şəhər elə həmin qayalıqlardan götürülmüş daşlardan tikilmişdir. Şəhərin bütün küçələrinə enli daş plitələr döşənmiş, evlərin damları tirlərdən düzəldilmişdir".

XIX əsrin ikinci yarısında tikinti işləri Şuşada daha geniş vüsət almışdı. Xurşidbanu Natəvanın, Gövhər ağanın, Cəfərqulu ağanın, Uğurlu bəyin, Nəcəfqulu ağanın, Hacı Qulunun, Səfibəyin tikdirdiyi yeni tipli saray və imarətlər, Mehmandarovlara məxsus malikanə kompleksi şəhərə xüsusi gözəllik verirdi. Dövlət tərəfindən əsası qoyulan bir sıra məktəb binaları, Qarabağın imkanlı adamlarının sayəsində ucaldılan məscid və bulaqlar, karvansaray və malikanə kompleksləri ozamankı memarlıq abidələrinin ən nadir nümunələrindən sayılırdı.

### Mehmandarovların malikanə kompleksi

Şuşa şəhərində Mehmandarovlara məxsus saray tipli tarixi yaşayış kompleksi Azərbaycanın XVIII əsr mülki memarlığının ən maraqlı nümunələrindən biridir. Vaxtilə Mehmandarovlar ailəsinə məxsus olmuş yaşayış kompleksinə böyük və kiçik yaşayış binaları, ailə məscidi daxildir. Kompleks ərazisindəki məscid həm də məhəllə məscidi funksiyasını yerinə yetirmişdir. Kompleks daş divarlarla əhatələnmişdir.

Binanın memarlığında geniş pəncərələr vasitəsilə yaxşı işıqlandırılmış və zəngin bəzədilmiş qonaq zalı xüsusi yer tutur. Böyük yaşayış binası və ailə məscidinin interyerləri usta Qənbər tərəfindən çəkilmiş və divarları rəsmlərlə bəzədilmişdir. Binanın layihəsini o dövrün memarı Kərbəlayi Səfixan Qarabaği vermiş, bəzi işlərini isə tanınmış dekorativ boyakarlıq və ornament ustası Qənbər Qarabaği həyata keçirmişdir. Bununla yanaşı, məscidə gedən yolun üstündə sonralar bulaq da tikilmişdir.

Mehmandarovların malikanə kompleksi ilk dəfə 1977-1978-ci illərdə Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərəfindən pasportlaşdırılmışdır. Azərbaycan Xalçası və Xalq-Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialının əsası Azərbaycan SSR Mədəniyyət Nazirliyinin 1985-ci il 26 sentyabr tarixli əmrinə əsasən qoyulmuşdur.

2023-cü il mayın 9-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışında iştirak etmişlər. Şuşanın azad edilməsindən sonrakı dövrdə - 2021-ci ilin oktyabrından etibarən Mehmandarovların malikanə kompleksində - ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılmış, bulağın damı əvvəlki vəziyyətinə gətirilmişdir. Kompleksə daxil olan evin və məscidin binalarının dam örtükləri yenilənmiş, tavanlar bərpa edilmiş, malikanə kompleksinin dağılmış divarı bərpa olunmuş, zədəli divarda bərkitmə işləri aparılmışdır. Həmçinin məscidin "Güldəstə"si restavrasiya olunmuşdur. Evin həyətində XX əsrin əvvəllərinə aid tarixi fayton da dövrünün texnologiyalarına uyğun bərpa edilmişdir.

### Zöhrabbəyovların malikanə kompleksi

XIX əsrin memarlıq abidəsi olan Zöhrabbəyovların malikanə tipli tarixi yaşayış kompleksi adından da göründüyü kimi, Şuşanın məşhur soylarından olan Zöhrabbəyovlara məxsusdur. Bu soy Azərbaycanın, Qarabağın qədim və məşhur soylarından biridir. Zöhrabbəyovların ulu babası Zöhrab bəy olmuşdur. Evin sahibi Zöhrabbəyovlar soyunun nümayəndəsi II gildiya taciri Abbasqulu bəy Zöhrabbəyovdur.

Kompleksin memarlıq xüsusiyyətləri haqqında qeyd etmək olar ki, tarixi 3 mərtəbəli evin iri və geniş şüşəbəndi başdan-ayağa antik rəsmlərlə bəzədilmişdi. Hər mərtəbədə 200-250 nəfərlik zal, şüşəbənd, yataq otağı, uşaq otağı, buxarılı aşpazxana mövcud olmuşdur. Evlərin içərisi milli ornament və antik rəsmlərlə bəzədilmişdi.

XX əsrin 80-ci illərində kompleks bərpa edildikdən sonra həmin binada Şuşa Dövlət Rəsm Qalereyası fəaliyyət göstərmişdi. Bu memarlıq kompleksində keçmiş və müasir təsviri sənət ustalarının 200-dən çox əsəri nümayiş etdirilirdi. Qalereyanın qızıl fondunu XIX əsr Azərbaycan miniatür sənətinin görkəmli nümayəndələrinin əsərləri təşkil edirdi, eyni zamanda yüksək bədii zövqlə düzəldilmiş dekorativ tətbiqi sənət nümunələri də nümayiş olunurdu.

1992-ci ildə Şuşa şəhərinin Ermənistan silahlı dəstələri tərəfindən işğalı zamanı bina talan edilmiş, şəbəkədən hazırlanmış pəncərələri və divar rəsmləri məhv edilmiş, dağıdılmış, binanın bir hissəsi qalmışdır.

### Hacı Qulunun malikanəsi

Şuşadakı ən möhtəşəm tarixi-memarlıq abidələrindən biri də Hacı Qulunun malikanəsidir. Üçmərtəbəli saray tipli evin inşasına 1849-cu ildə Qulu Məhəmmədəli oğlunun sifarişi əsasında başlanılmış, təxminən 1855-ci ildə başa çatdırılmışdır. Şuşa şəhərində yerləşən XIX əsrin tarixi memarlıq abidəsi olan bu mülk öz memarlıq üslubu, həmçinin milli koloriti ilə xüsusilə seçilirdi. Sarayın 46 otağı və 2 böyük qonaq zalı var idi.

Evin uzadılmış düzbucaqlı formasına malik olan planı ara divarı boyunca inşa edilmiş və birinci mərtəbədəki xidməti otaqları, ikinci mərtəbədəki yemək və yaşayış otaqları ilə birləşdirən pilləkəni ilə diqqət çəkir. Evin tamamilə parad xarakteri daşıyan üçüncü mərtəbəsi iri zal və onun yanlarında yerləşən qonaq otaqlarından ibarətdir. Bu evin otaqları xidmət məqsədinə uyğun olaraq müvafiq formada inşa edilmişdir. Zəngin Şuşa evləri üçün xarakterik olan böyük zal formalı qonaq otağı ilə yanaşı, burada yemək və yataq otaqları da istifadə profilinə uyğun memarlıq formalarına malikdir. Birinci mərtəbə ilə əlaqə parad və xidmətçilər üçün nəzərdə tutulmuş iki pilləkən vasitəsilə həyata keçirilir.

Evin divarları daş və əhəng-gil məhlulu qarışığından inşa edilmiş, daşların arası da həmin məhlulla üzlənmişdir ki, bu da binanın fasadına xüsusi kolorit verir. Birinci mərtəbədə tikilinin fasadı tağvari formalı üç böyük girişə malikdir, ikinci mərtəbədə isə simmetrik formada üç pəncərə yerləşdirilmişdir. Əksər Şuşa ev və saraylarından fərqli olaraq Hacı Qulunun malikanəsi üçün tikilinin bütün fasadlarında yerləşən çoxlu sayda geniş pəncərələr xarakterikdir. Pəncərələr hamısı şəbəkə ilə işlənmişdir.

Şuşanın Çuxar məhəlləsindəki bu mülk bir zamanlar Cəfərqulu xan Məhəmmədhəsən ağa oğlu Sarıcalı-Cavanşirə xidmət edən Hacı Qulu sonra ticarətlə məşğul olmuş, Şuşanın varlı tacirlərindən birinə çevrilmişdir. 1865-ci ildə Şuşada olmuş rus rəssamı V.V.Vereşşaginin əsərində bu zallardan biri təsvir olunmuşdur.

Hacı Qulunun malikanəsində sovet dövründə müxtəlif müəssisələr fəaliyyət göstərmiş, işğaldan əvvəl isə burada Qarabağ ipək fabrikinin toxuculuq sexi olmuşdur. 1992-ci ildə Şuşa şəhərinin Ermənistan silahlı dəstələri tərəfindən işğalı zamanı Hacı Qulunun malikanəsi top atəşinə tutularaq divarları dağıdılmışdır. Hazırda divarlarının bəzi hissələri qalmaqdadır.

### Əsəd bəyin mülkü

Şuşa şəhərində Xurşidbanu Natəvanın sarayının yaxınlığında yerləşən Əsəd bəyin evinin memarlıq planında Şəki şəhərində yerləşən Şəkixanovların evi ilə çoxlu ortaq xüsusiyyətlər vardır. Əsəd bəyin də evinin kompozisiya mərkəzində böyük zal yerləşir. Evin digər otaqları isə həmin bu zalın ətrafında qruplaşdırılmışdır. Əsəd bəyin evinin bu cür plana malik əsilzadə evlərindən fərqləndirən əsas xüsusiyyəti onun çoxotaqlı olmasıdır. Uzadılmış düzbucaqlı formasına malik evin birinci mərtəbəsindəki otaqlar üç qrupa bölünmüşdür: mərkəzdə iri zal və onun ətrafında kiçik otaqlar, iki tərəfdə isə hər biri iki otaqdan ibarət olan daha iki qrup otaq yerləşir.

Evin mərtəbələri arasında daxili əlaqə mövcud deyil. İkinci mərtəbəyə evin fasadının hər iki küncündə inşa edilmiş iki daş pilləkənlə qalxmaq olur. Qonaq zalı bütün fasad boyunca yerləşdirilmiş nəhəng şəbəkə pəncərəyə malikdir. Həm vestibüllərdən, həm də dəhlizlərdən zalın ətrafındakı otaqlara qapılar açılır. Əsəd bəyin evinin ikinci mərtəbəsində iri qonaq zalı və bir qədər kiçik ölçülərə malik ikinci zal da var. Bu iki iri zalla yanaşı, evin ikinci mərtəbəsində daha 10 otaq da inşa edilmişdir. Birinci mərtəbənin inşasında yerli ağ qaya daşlarından, ikinci mərtəbənin inşasında isə bişmiş qırmızı kərpicdən istifadə olunmuşdur.

Şuşada yerləşən tarix-memarlıq abidəsi kimi qeydiyyata alınmış və şəhərin qədim evlərinin xarakterik xüsusiyyətlərini özündə əks etdirən Fərəməzovların, Səfərbəyovların, Qədimovların, Behbudovların, Qaraşarlıların, Mamay bəyin, Cahangir bəyin, Bəhmən Mirzənin, Hacı Məmmədin, Məşədi İbrahimin, Səfi bəyin, Hacı Əmirin, Məşədi Qaranın, Hacı Dadaşın, Cəfərqulu ağanın, Uğurlu bəyin, Fərzəli bəyin və şəhərdə tanınmış digər insanların mülkləri Azərbaycan milli memarlığının parlaq nümunələrindəndir.

***Elçin ƏHMƏDOV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının professoru, siyasi elmlər doktoru***




## "WhatsApp"dan ödənişli abunə sistemi



"WhatsApp" platforması məzmun yaradıcıları üçün yeni gəlir modeli üzərində işləyir. Şirkət kanallar vasitəsilə pullu abunə sistemini sınaqdan keçirir. Yeni funksiya sayəsində kanal sahibləri eksklüziv məzmunu ödənişli şəkildə təqdim edə biləcəklər. İstifadəçilər isə yalnız abunə olduqları kanalların xüsusi paylaşımlarına çıxış əldə edəcəklər.

Bu sistem "İnstaqram" platformasının abunə modelinə bənzər şəkildə işləyəcək. Kanal sahibləri məzmunlarını monetizasiya edə, istifadəçilər isə maraqlandıqları kontent üçün abunə ola biləcəklər. Diqqətçəkən məqamlardan biri isə ödənişli abunəçilərin sayının açıq şəkildə göstəriləcək olmasıdır. Bu, istifadəçilərə kanalın populyarlığını əvvəlcədən qiymətləndirməyə imkan verəcək.

"WhatsApp" mövcud pulsuz kanal sistemini qoruyacaq. Ödənişli abunə isə tam könüllü olacaq və ümumi istifadəçi təcrübəsinə təsir etməyəcək. Hazırda test mərhələsində olan funksiyanın yaxın gələcəkdə mərhələli şəkildə bütün istifadəçilərə təqdim olunacağı gözlənilir.

## "Meta"nın ən güclü süni intellekt modeli




"Meta" şirkəti bu günə qədər hazırladığı ən güclü süni intellekt modeli olan "Muse Spark"ı təqdim edib. Model xüsusi olaraq "Meta" məhsulları üçün hazırlanıb. Doqquz ay davam edən intensiv inkişaf prosesindən sonra təqdim edilən "Muse Spark" "Muse" seriyasının ilk nəsli kimi kompakt və sürətli işləmə xüsusiyyətlərinə malikdir. Model elm, riyaziyyat və səhiyyə sahələrində mürəkkəb problemləri məntiqi şəkildə həll etmək üçün optimallaşdırılıb.

Yenilənmiş "Meta AI" tətbiqi və veb-versiyası artıq daha sürətli cavablar təqdim edir və mürəkkəb tapşırıqları yerinə yetirə bilir. İstifadəçilər müxtəlif rejimlər arasında keçid edərək paralel şəkildə çalışan bir neçə agentdən istifadə edə bilərlər. Məsələn, səyahət planlaşdırılarkən bir agent marşrutu qurur, digəri məkanları müqayisə edir, üçüncüsü isə fəaliyyətlər təklif edir. "Muse Spark"ın çoxmodal imkanları sayəsində sistem yalnız mətni deyil, vizual məlumatları da analiz edə bilir.

"Meta"dan bildirilib ki, səhiyyə ilə bağlı funksiyalar mütəxəssislərlə əməkdaşlıq çərçivəsində hazırlanıb və istifadəçilərə daha etibarlı məlumat təqdim etməyə yönəlib. Model, həmçinin vizual kodlaşdırma sahəsində də imkanlar təqdim edir. İstifadəçilər sadə sorğularla interaktiv panellər, retro oyunlar və ya mini-simulyatorlar yarada bilirlər.

## Velosipeddaşıma sistemi



ABŞ-nin Allen Sports şirkəti velosipedlər üçün "Smart Suction Go" adlı yeni daşıma texnologiyası təqdim edib. Klassik baqaj sistemlərinə alternativ kimi nəzərdə tutulan qurğu avtomobilin damına və ya arxa hissəsinə vantuz vasitəsilə bərkidilir.

Sistem "ağıllı təzyiq" sensorları ilə təchiz olunub və vantuzların vəziyyətini hər 5 saniyədən bir yoxlayır. Problem yaranarsa, istifadəçinin smartfonuna bildiriş göndərilir. İstifadəçiyə avtomobili təhlükəsiz şəkildə saxlamaq üçün bir neçə dəqiqə vaxt verilir.

Qurğu 15 kiloqrama qədər velosipedlər üçün uyğundur, mənfi 15 dərəcə ilə müsbət 60 dərəcə arasında işləyir. Dörd ədəd batareya ilə çalışan sistem 6-8 saat aktiv istifadə imkanı təqdim edir. Şirkət texnologiyanı gələcəkdə kamera avadanlıqları üçün də tətbiq etməyi planlaşdırır.

## Uşaq oyun platforması




"Netflix" şirkəti "Netflix Playground" adlı yeni interaktiv oyun tətbiqini təqdim edib. Platforma 8 yaşa qədər uşaqlar üçün nəzərdə tutulub və öyrədici, əyləncəli oyunlar təklif edir.

İstifadəçilər tətbiqi yüklədikdən sonra internet bağlantısı olmadan və əlavə ödəniş etmədən oyunlardan istifadə edə bilirlər. Platformada "Peppa Pig", "Sesame Street", "StoryBots" və "Dr. Seuss" kitabları əsasında hazırlanmış oyunlar yer alır.

Hazırda ABŞ-də iOS və Android üçün mövcud olan tətbiq aprelin 28-dən etibarən qlobal istifadəyə veriləcək.

## "Kindle" cihazlarında dəstək dəyişiklikləri



"Amazon" şirkəti mayın 20-dən etibarən köhnə "Kindle" və "Kindle Fire" (elektron kitablar) cihazlarına dəstəyi məhdudlaşdıracaq. 2012-ci il və daha əvvəl istehsal edilmiş modellərdə "Kindle Store" üzərindən yeni kitab almaq və yükləmək mümkün olmayacaq. Siyahıya "Kindle DX", "Kindle Keyboard", "Kindle Touch", "Kindle 4" və "Kindle 5", birinci nəsil "Kindle Paperwhite", həmçinin 2011-2012-ci illərə aid "Kindle Fire" və "Kindle Fire HD" modelləri daxildir. İstifadəçilər mövcud kitabları oxumağa davam edə biləcəklər. Lakin cihaz sıfırlanarsa və ya hesabdan çıxarılarsa, yenidən qeydiyyat mümkün olmayacaq.

Şirkət yeni cihazlara keçid üçün kampaniya təqdim edir. İstifadəçilər yeni "Kindle" alarkən 20 faiz endirim və 20 dollar dəyərində e-kitab krediti əldə edə bilərlər. Təklif iyunun 20-dək qüvvədədir.

## Robotaksi xidməti genişlənir



"Waymo" şirkəti ABŞ-də robotaksi xidmətini genişləndirərək Tennessi ştatının Naşvil şəhərində istifadəyə verib. Bu, şirkətin xidmət göstərdiyi 11-ci şəhərdir.

Şirkət artıq bir neçə aydır ki, şəhərdə fəaliyyət göstərir. Əvvəlcə avtomobillər manual şəkildə idarə olunurdu, daha sonra isə təhlükəsizlik məqsədilə sükan arxasında sürücü olmaqla avtonom sistemlər test edilirdi. İndi isə bu mərhələlər tamamlanıb və xidmət istifadəçilər üçün açılıb. Şəhərdə xidmətin keyfiyyətinin sabit saxlanılması üçün mərhələli şəkildə genişlənəcəyi bildirilir. İlkin mərhələdə xidmət şəhərin təxminən 60 kvadrat millik ərazisini əhatə edəcək.

"Waymo" bu layihədə "Lyft" ilə əməkdaşlıq edir. Hazırda sifarişlər yalnız "Waymo" tətbiqi üzərindən mümkündür, gələcəkdə isə "Lyft" platformasına inteqrasiya ediləcək.

## "Kia"nın strateji hədəfləri

"Kia" şirkəti 2030-cu il üçün elektrik avtomobillərinin satış hədəfini 1 milyon ədədə endirib və diqqəti hibrid modellərə yönəldib.

Şirkət illik 1,1 milyon hibrid və ümumilikdə 2,1 milyon elektrikləşdirilmiş avtomobil satmağı planlaşdırır. Şimali Amerika bazarı üçün elektrik pikap istehsalı da gündəmdədir.

Bundan əlavə, "Kia" istehsalatda robot texnologiyalarını genişləndirir. "Boston Dynamics" tərəfindən hazırlanmış "Atlas" humanoid robotlarının 2028-ci ildən zavodlarda tətbiqi planlaşdırılır. Bu robotların əvvəlcə sadə əməliyyatlarda, daha sonra isə daha mürəkkəb yığım proseslərində istifadə olunacağı bildirilib. Şirkət 2027-ci ilə qədər "Level 2+" avtonom idarəetmə sistemli ilk modelini təqdim etməyi hədəfləyir.

## "Apple" təmir proqramı

"Apple" şirkəti "Self Service Repair" proqramını genişləndirərək yeni cihazlar üçün ehtiyat hissələri və təlimatları istifadəyə verib. İstifadəçilər artıq batareya, ekran, klaviatura kimi komponentləri sifariş edib cihazlarını özləri təmir edə bilərlər. Proqrama "iPhone 17e", "MacBook Neo", "M5 MacBook Air" və digər yeni modellər daxil edilib.

Xüsusilə "MacBook Neo" modeli daha asan təmir olunması ilə seçilir. Batareya yapışqanla deyil, vintlərlə bərkidilib və klaviaturanı rahatlıqla çıxarmaq mümkündür. Bu isə onu ən asan təmir olunan "Apple" cihazına çevirir.

*Hazırladı:*
***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***


**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**

öz gəmilərinə müxtəlif rezinlər, paranitlər, qayışlar və kipləşdirici kəndirlərin satın alınması məqsədilə

**açıq tender elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 24 aprel 2026-cı il saat 14:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu - (012) 404-37-00, daxili: 1132**
**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, küçəsi 2**

***Tender komissiyası***



## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Qlobal münaqişələr fonunda Azərbaycan reallığı
Bu reallığın müəllifi İlham Əliyevdir
Litva Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin inkişafına həmişə dəstək verib
Azərbaycan Prezidenti İlham Əliyev Litvanın Baş nazirini qəbul edib
Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlər qardaşlıq və strateji müttəfiqlik prinsiplərinə əsaslanır
Prezident İlham Əliyev Türkiyənin daxili işlər nazirini qəbul edib
Prezident İlham Əliyev xristian icmasını təbrik edib
Sülh, humanizm və mehriban qonşuluq siyasəti
Yeni təlim mərkəzində mülki aviasiyamız üçün yüksəkixtisaslı kadrlar hazırlanacaq
Azərbaycan tolerantlığın unikal ünvanıdır
Dövlət idarəçiliyində süni intellektin tətbiqi: üstünlüklər və strateji baxış

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*




# Bilmək istəyirəm

***- Əmək Məcəlləsinə edilən dəyişikliklərlə distant, yəni məsafədən iş hüquqi status alıb. Bu imkandan hansı peşə sahibləri istifadə edə bilərlər və distant işi ölkə xaricindən də həyata keçirmək mümkündürmü? Bu, qanunda hansı şərtlərlə tənzimlənir?***

***Rüfət Cəfərov,***
***Bakı şəhəri***

- Sualınıza cavab olaraq bildirmək istəyirik ki, əmək müqaviləsində nəzərdə tutulan bir və ya bir neçə vəzifə (peşə) üzrə işçinin yerinə yetirməli olduğu işlərin (xidmətlərin) məcmusu kimi məsafədən (distant) iş - əmək funksiyasının məsafədən icrasına imkan verən vasitələrlə (elektron, proqram-texniki, telekommunikasiya vasitələri və s.) müəssisədən və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerlərindən kənarda (işlərin görülməsi (xidmətlərin göstərilməsi) üçün münasib olan digər yerdə) yerinə yetirilməsidir.

Əmək funksiyasının məsafədən (distant) iş formasında yerinə yetirən işçilərə Əmək Məcəlləsinin müddəaları şamil edilir.

İşəgötürənlə işçi arasında fərdi qaydada Əmək Məcəlləsi ilə müəyyən edilmiş formada əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən əmək müqaviləsi bağlanır.

Əmək Məcəlləsinin 55-ci maddəsinə əsasən, əmək müqaviləsi bağlanarkən, habelə əmək münasibətləri prosesində işəgötürən imkanı hesabına bu Məcəllədə, yaxud kollektiv müqavilədə nəzərdə tutulmuş əmək şəraitinin şərtlərindən daha yüksək əməkhaqqı, əlavə məzuniyyət müddəti, qısaldılmış və ya natamam iş vaxtı, əlavə fərdi sığorta məbləği, sosial təminat və yardımlar, habelə heç bir norma ilə məhdudlaşdırılmayan digər əlavə şərtləri müəyyən edə bilər. Bu əlavə şərtlərin dairəsi, qüvvədə olma müddəti və istifadə qaydaları, habelə onların dəyişdirilməsi tərəflərin razılığı ilə müəyyən edilir.

Məsafədən (distant) iş formasına münasibətdə əmək funksiyalarının məsafədən (distant) iş formasında yerinə yetirilməsi ilə əlaqədar əmək şəraitinin əlavə şərtləri tərəflərin qarşılıqlı razılığı əsasında əmək müqaviləsi ilə müəyyən edilir.

Məsafədən (distant) iş formasından hansı peşə sahiblərinin istifadə edə bilmələri ilə bağlı qanunvericilikdə hər hansı bir müəyyənetmə nəzərdə tutulmamışdır. Burada əsas meyar işin xüsusiyyətidir. Əgər əmək funksiyası elektron, proqram-texniki və telekommunikasiya vasitələri ilə (kompüter, internet və s.) yerinə yetirilməyə imkan verirsə, bu format tətbiq oluna bilər.

Təcrübə göstərir ki, bir çox sahədə (informasiya texnologiyaları, hüquqi məsləhət, təhsil, tərcümə, media və s.) məsafədən (distant) iş formasından istifadə geniş yayılmışdır.

Məsafədən (distant) iş formasında fəaliyyəti ölkə xaricində həyata keçirməklə bağlı sualınıza gəlincə, əmək qanunvericiliyi bununla, yəni əmək funksiyasının həyata keçirilmə yeri ilə bağlı konkret ərazi "müəssisədən və ya işəgötürənin yaratdığı iş yerindən kənarda, işin görülməsi üçün münasib olan digər yer" ifadəsi işlədilir. Bu, nəzəri olaraq həm ölkə daxilini, həm də ölkə xaricini əhatə edə bilər. Lakin burada vergi qanunvericiliyinin müvafiq müddəaları, eləcə də işəgötürənin razılığı mütləq nəzərə alınmalıdır.

**Sualları cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

## Hava Bakıda dəyişkən buludlu, dağlıq və dağətəyi rayonlarda arabir yağıntılı olacaq



Azərbaycanda aprelin 11-nə gözlənilən hava şəraiti açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim şimal-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 8-11, gündüz 13-16 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunundan 764 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 75-85, gündüz 60-70 faiz təşkil edəcək.

Azərbaycanın əsasən dağlıq və dağətəyi rayonlarında havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısa müddətə intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 6-8, gündüz 15-20, dağlarda gecə 0-5, gündüz 5-10 dərəcə isti olacaq.


***Azərbaycan İnşaat Mühəndisləri İnstitutu tərəfindən Sabir Musa oğlu Sadıqovun adına 17 oktyabr 1996-cı il tarixdə verilmiş HB 950437 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.***


## ALLAH RƏHMƏT ELƏSİN!

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov xarici işlər naziri Ceyhun Bayramova əzizi **VİDADİ BAYRAMOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova əzizi **VİDADİ BAYRAMOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Texniki Universitetinin rektorluğu, kollektivi və Həmkarlar İttifaqı Komitəsi universitetin əməkdaşı Lalə Cəfərovaya anası **ELMİRA XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3714**
**Sifariş 458**

**Qiyməti 60 qəpik**